Xalqın qəzeti!

# Xalq qəzeti

№ 53 (31022) 1 aprel 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Bölgələr yeniləşir, gözəlləşir, ümumi tərəqqiyə qovuşur

## Prezident İlham Əliyevin Şamaxı rayonuna səfəri



Səhifə ⇨ 2

## Prezident İlham Əliyev sosial media hesablarında Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib




**Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edilib.**

## Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşımı




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir: "Soyqırımı qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin".**

## 1918-ci ilin Mart soyqırımı: erməni millətçilərinin bəşəri cinayəti və xalqımızın qan yaddaşı

Səhifə ⇨ 12-13

## "Dəmir yumruğ"un baş məşqi



Səhifə ⇨ 9



## Yaxın Şərqdə savaş səngimir

Səhifə ⇨ 15

## 31 Mart – qisas və ibrət



Səhifə ⇨ 9

## Oliqarxın revanş cəhdi



Səhifə ⇨ 10

Səhifə ⇨ 10



## "Tunel"də qətliam və yeniyetmə qəhrəman

## Azərbaycan dünyanın ən təhlükəsiz ölkələri sırasında



Səhifə ⇨ 15

# Prezident İlham Əliyevin Şamaxı rayonuna səfəri

## Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 23-də Şamaxı rayonuna səfər edib.**

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

## Avropa liseyinin yeni binasının açılışı






**Martın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən inşa edilmiş Şamaxı Avropa liseyinin yeni binasının açılışında iştirak edib.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına liseydə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Avropa liseyinin yerləşdiyi əvvəlki bina 1937-ci ildə inşa edilmişdi. Təhsil müəssisəsinin 1987-ci ildə yenidən qurulan binası isə ötən müddətdə istifadəyə yararsız hala düşdüyündən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən yeni lisey binası inşa olunub.

Üç və dördmərtəbəli 7 korpusdan ibarət 1200 şagird yerlik bu təhsil müəssisəsi rayonun ən böyük məktəblərindəndir. Lisey zəruri mebel və avadanlıqla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə təchiz edilib.

Burada 50-dən çox sinif otağı, fizika, kimya və biologiya laboratoriyaları, informatika və STEAM, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası yaradılıb.

Liseyin yeni binası Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən “Yeniləşən Azərbaycana yeni məktəb” Proqramı çərçivəsində inşa edilib.

Qeyd edək ki, Azərbaycanda təhsil sahəsinin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Dövlət səviyyəsində bu istiqamətdə həyata keçirilən işlərə Heydər Əliyev Fondu da böyük töhfələr verir. Fondun “Yeniləşən Azərbaycana yeni məktəb” Proqramı çərçivəsində indiyədək ölkəmizdə 500-dən çox məktəb istifadəyə verilib.

Paytaxt Bakı ilə yanaşı, bölgələrdə bu cür layihələrin icrası ilk növbədə regionlarda yaşayan şagirdlərin yüksək səviyyədə təhsil almalarına, onların elmin sirlərinə daha dərindən yiyələnmələrinə hərtərəfli şərait yaradır. Bu, eyni zamanda, ölkəmizdə ümumilikdə təhsil sahəsinin inkişafını əyani şəkildə göstərir.



## “Şirvan Aqro” heyvandarlıq kompleksi istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 23-də Şamaxı rayonunda “Şirvan Aqro” heyvandarlıq kompleksinin açılışında iştirak edib.**



Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov dövlətimizin başçısına kompleks barədə məlumat verdi.

Bildirildi ki, 100 hektara yaxın ərazini əhatə edən kompleksin yaradılmasında məqsəd ölkə əhalisinin yüksəkkeyfiyyətli süd və ət məhsulları ilə təmin olunmasına, bu məhsulların ixracına, həmçinin regionun inkişafına, xüsusən də Şamaxı və ətraf rayonlarda məşğulluğun artırılmasına töhfə verməkdir.

Kompleksdə 9000 baş heyvanın – 3200 baş südlük, 3000 baş ətlik mal-qaranın və 2800 baş buzovun saxlanılmasına şərait var. Hazırda burada Holşteyn-Friz, Limuzin, Aberdin-Anqus və digər cinslərdən heyvanlar saxlanılır.

Ən son texnologiyalarla təchiz edilən və süni intellekt vasitələri ilə idarə olunan bu kompleks Qafqaz regionunda və MDB məkanında ən böyük heyvandarlıq müəssisələrindən biridir.

*(ardı 3-cü səhifədə)*






# "Şirvan Aqro" heyvandarlıq kompleksi istifadəyə verilib




*(əvvəli 2-ci səhifədə)*

Bura ölkəmizdə alternativ və yaşıl enerjidən istifadə edən ilk heyvandarlıq kompleksidir.

Kompleksdə yüksəkixtisaslı mütəxəssislərin hazırlanması üçün dünyanın qabaqcıl texnologiyalarının tətbiqini öyrədəcək Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək.

Müəssisədə Azərbaycanın və Cənubi Qafqazın ən böyük "Karusel" tipli süd sağımı, həmçinin "Paralel" sağım sistemləri yaradılıb. Hər bir sağım nöqtəsində süd keyfiyyətinin onlayn analizatoru quraşdırılıb. Ölkədə südün 32 dərəcədən 4 dərəcəyədək sürətli soyudulması üçün qabaqcıl sistem, həmçinin dünyadakı ən son genetik materiallar əsasında fəaliyyət göstərən, süd həcminin artırılmasını təmin edən ilk Reproduksiya Mərkəzi yaradılıb.

Saxlanılan heyvanlar arasında xəstəliklərin erkən diaqnozu və tez bir zamanda müalicəsi üçün tətbiq olunan innovativ sürü idarəetmə sistemi mövcuddur. Burada real vaxtda sürü inkişafı monitorinqinin həyata keçirilməsi, kökəltmənin səmərəli idarə edilməsi və çəkinin elektron hesablanması üçün xüsusi tərəzi sistemi tətbiq olunur.

Heyvanların identifikasiya və sağlamlıq vəziyyətinin qeydiyyatı, eyni zamanda, mayalanmanın dəqiq vaxtının müəyyən edilməsi üçün "AfiCollar" elektron boyunbağılarından istifadə olunur.

Kompleksdə innovativ və xüsusi stasionar avadanlıqlarla təchiz edilən yem mərkəzi də fəaliyyət göstərir. Burada, həmçinin innovativ sistemlərlə təchiz olunan, "Dry Age" otağına malik ət kəsimi məntəqəsi yaradılıb.

Müəssisədə Şamaxı və ətraf rayonların 200-dən çox sakini işlə təmin olunub. Kompleksin ərazisində digər rayonlardan buraya işləməyə gələnlər və xarici mütəxəssislərin qalması üçün yaşayış binası da var.

*

Sonra dövlətimizin başçısı müəssisənin əməkdaşları ilə görüşdü.

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Təbrik edirəm. Yüzlərlə iş yeri, gözəl şərait yaradırıq. Bu müəssisənin həm Şamaxı rayonunun, həm də ümumilikdə ölkəmizin kənd təsərrüfatının inkişafı üçün çox böyük əhəmiyyəti var. Bu, nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük həm ətlik, həm südlük təsərrüfatıdır. Bizdə indi idxal həcminin azaldılması istiqamətində işlər aparılır. Biz elə etməliyik ki, özümüzü həm ətlə, həm südlə, süd məhsulları ilə 100 faiz təmin edək. Buna yaxınıq, amma hələ ki, buna nail ola bilməmişik. Belə təsərrüfatların fəaliyyətə başlaması bu məqsədi də təmin edəcək və gələcəkdə biz hətta ət və süd məhsullarını ixrac edə də bilərik.

Əlbəttə ki, burada iş şəraiti də çox gözəldir. Xüsusi deyə bilərəm ki, bu kompleks kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı sahəsində ən müasir təsərrüfatlardan biridir. Burada tətbiq edilən texnologiyalar qabaqcıl şirkətlərin texnologiyalarıdır. Dünyanın ən yüksəksəviyyəli iş yanaşması burada tətbiq olunur. Bir daha qeyd etmək istəyirəm ki, Şamaxı rayonunda məşğulluğun artırılması üçün də bu müəssisənin çox böyük əhəmiyyəti olacaq.

Siz də yaxşı bilirsiniz ki, bu gün Şamaxı rayonunda çox böyük işlər görülür. Şamaxı ölkəmizin turizm mərkəzlərindən birinə çevrilib. Bir çox müasir istirahət zonaları, hotellər, iaşə, mədəniyyət, təhsil obyektləri yaradılıb. Şamaxı-Bakı avtomobil yolu da çox müasirdir. İndi həm Bakı ilə, həm ölkəmizin həm qərb, şimal-qərb bölgələri ilə əlaqə üçün yeni imkanlar var. İndi Şamaxı-İsmayıllı-Qəbələ yeni avtomobil yolu inşa edilir. Orada inşa olunan körpü ölkəmizdə ən böyüyüdür, yəqin ki, biz onu gələn il istifadəyə verəcəyik. Ölkə ərazisində bağlantılar məsələləri də öz həllini tapır. Elə etməliyik ki, insanlarımız daha yaxşı yaşasın, iş yerləri olsun, dolanışıq yaxşı olsun.

Bu bayram günlərində belə müəssisənin açılışı, əlbəttə ki, böyük rəmzi məna daşıyır. Bu günlərdə biz həm Ramazan, həm Novruz bayramlarını qeyd etmişik və bütün ölkə üzrə çox gözəl ab-hava, çox gözəl ovqat var. Bunun da əsas səbəbi ölkəmizin inkişafı, bizim qalib xalq kimi yaşamağımız və gələcəyə böyük nikbinliklə baxmağımızdır.

Sizi bir daha ürəkdən təbrik edirəm və uğurlar arzulayıram.

**Müəssisənin əməkdaşları:** Çox sağ olun.

*

Qeyd edək ki, bu cür müasir kompleksin istifadəyə verilməsi ilk növbədə kənd təsərrüfatının mühüm sahələrindən olan heyvandarlığın inkişafına və ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfə verir. Layihənin icrası, həmçinin ümumilikdə regionun kənd təsərrüfatı potensialının artırılmasında böyük rol oynayır. Bu cür təsərrüfatlarda müasir texnologiyaların tətbiqi isə məhsuldarlığın artırılmasına, heyvanların sağlam şəraitdə saxlanmasına və istehsal xərclərinin azaldılmasına zəmin yaradır. Bu kompleksin fəaliyyətə başlaması, eyni zamanda, ölkəmizin ixrac potensialının artırılmasına müsbət təsir edəcək.

***AZƏRTAC***




## Pakistan İslam Respublikasının Baş naziri Zati-aliləri cənab Məhəmməd Şahbaz Şərifə

**Hörmətli cənab Baş nazir,**
**Əziz Qardaşım!**

23 Mart – Pakistan Günü münasibətilə Sizə və qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Dərin tarixi köklər, ortaq dini-mənəvi dəyərlər ilə bir-birinə bağlı olan qardaş xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Pakistan münasibətləri bu gün yüksək pillədə qərarlaşmışdır. Ali səviyyəli müntəzəm qarşılıqlı səfərlər, sıx təmaslarımız, aramızdakı fəal dialoq dövlətlərarası münasibətlərimizin bütün sahələrdə möhkəmlənməsinə, həm ikitərəfli əsasda, həm də çoxtərəfli müstəvidə yeni tərəfdaşlıq imkanlarının reallaşmasına mühüm təkan verir. Bu əsnada keçən il ölkəmizə həyata keçirdiyiniz səfərləri xüsusi qeyd etmək istərdim.

Azərbaycan ilə Pakistan arasında əlaqələr çoxşaxəli əməkdaşlıq gündəliyinə malikdir. Ölkələrimizin siyasi, iqtisadi, ticari, sənaye, enerji, nəqliyyat-logistika, müdafiə, investisiya, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı gündən-günə yeni məzmunla zənginləşir. Bir müddət əvvəl İslamabadda ilk "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlaması genişmiqyaslı dövlətlərarası əməkdaşlığımızın yeni praktiki nəticəsidir. İkitərəfli əməkdaşlıq zəminində qısa müddət ərzində əldə etdiyimiz nailiyyətlər xalqlarımızın rifahına və firavanlığına, regionumuzda əməkdaşlığa xidmət edir.

Çoxtərəfli əsasda da Azərbaycan ilə Pakistan arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlıq uğurla davam edir. Regional və qlobal məsələlərə ortaq baxışlarımız, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyimiz Azərbaycan-Pakistan qardaşlığının və həmrəyliyinin bariz nümunələridir.

Dövlətlərarası əlaqələrimizin və strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi naminə daim nümayiş etdirdiyiniz qətiyyətinizi və əzminizi çox yüksək qiymətləndirirəm.

Əminəm ki, qardaş ölkələrimiz arasında formalaşmış və xalqlarımızın ümumi mənafelərinə tam cavab verən Azərbaycan-Pakistan strateji tərəfdaşlığı birgə qətiyyətli səylərimiz sayəsində bundan sonra da möhkəmlənməyə və dərinləşməyə davam edəcəkdir.

Bu bayram günündə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının əmin-amanlığı və firavanlığı naminə məsul və şərəfli fəaliyyətinizdə uğurlar və yeni-yeni nailiyyətlər arzulayıram.

***Hörmətlə,***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 mart 2026-cı il**

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Martın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında telefon danışığı olub.**

Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif bir-birini müqəddəs Ramazan bayramı münasibətilə təbrik edib, xalqlarımıza firavanlıq və yeni-yeni uğurlar arzulayıblar.

Azərbaycan Prezidenti və Pakistanın Baş naziri ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafından məmnunluqlarını ifadə edib, əməkdaşlığın perspektivləri və gələcək təmaslara dair fikir mübadiləsi aparıblar.

Telefon danışığı əsnasında Yaxın Şərqdəki mövcud vəziyyətə toxunulub, gərginliyin siyasi yollarla tezliklə həllinin vacibliyi vurğulanıb.

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Bahar bayramı münasibətilə göndərdiyiniz təbrik məktubuna görə Sizə səmimi təşəkkürümü bildirirəm. Çin Hökuməti və xalqı adından Sizi, Azərbaycan Hökumətini və bütün Azərbaycan xalqını ənənəvi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır. Son illərdə qarşılıqlı siyasi etimad möhkəmlənir, bütün sahələrdə əməkdaşlıq inkişaf edir. Çin ilə Azərbaycan arasında əlaqələrin inkişafına böyük əhəmiyyət verirəm və iki ölkə xalqlarının mənafeləri naminə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra daha da inkişaf etdirilərək yeni səviyyəyə yüksəldilməsi üçün Sizinlə birlikdə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

## Yunanıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Konstantinos Tasoulasa

**Hörmətli cənab Prezident!**

Yunanıstan Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Yunanıstan arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Yunanıstan xalqına əmin-amanlıq və rifah arzulayıram.

***Hörmətlə,***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 mart 2026-cı il**

## Banqladeş Xalq Respublikasının Prezidenti Zati-aliləri cənab Məhəmməd Şahabuddinə

**Hörmətli cənab Prezident!**

Banqladeş Xalq Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Banqladeş arasındakı dostluq münasibətlərinin xoş ənənələri mövcuddur. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ikitərəfli əlaqələrimizin inkişafı, əməkdaşlığımızın genişlənməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Banqladeş xalqına əmin-amanlıq və rifah arzulayıram.

***Hörmətlə,***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 mart 2026-cı il**

# Prezident İlham Əliyev "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 25-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin açılışında iştirak edib.**




"AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzi barədə məlumat verdi.

Qeyd edək ki, Azərbaycan enerji sahəsində yeni inkişaf mərhələsinə daxil olur. Prezident İlham Əliyevin tapşırığına əsasən "AzərEnerji" ASC tərəfindən 100 faiz daxili maliyyə vəsaiti hesabına iki əsas yarımstansiyada - 500 kV-luq "Abşeron" və 220 kV-luq "Ağdaş" yarımstansiyalarının ərazilərində ümumi gücü 250 MVt, enerji tutumu isə 500 MVt/saat olan böyük enerji saxlanc mərkəzləri yaradılıb. Belə miqyasda bu cür mərkəzlərin qurulması yalnız Azərbaycanda deyil, ümumilikdə MDB regionunda ilkdir.



Layihə çərçivəsində "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin ərazisində 50 akkumulyator batareya və 13 invertor konteyneri quraşdırılıb. Beynəlxalq məsləhətçi şirkətlərin (ABŞ-nin TETRA Tech və Türkiyənin EPRA) apardıqları araşdırma Azərbaycanda təxminən 1850 MVt gücündə bərpaolunan enerji mənbələrinin təhlükəsiz şəkildə enerji sisteminə qoşulması üçün bu cür batareya sistemlərinin yaradılmasının zəruri olduğunu göstərib.



Batareya Enerji Saxlanc Mərkəzi çevikliyi ilə seçilir. Belə ki, onlar 2 saat ərzində tam doldurula və ya boşaldıla bilər. Artıq enerji, o cümlədən günəşli saatlarda istehsal olunan enerji burada toplanır və pik saatlarda - enerjiyə tələbat artan zaman avtomatik olaraq şəbəkəyə verilir. Bir sözlə, bu sistemlər enerjini yığıb saxlayır, lazım gəldikdə isə onu istifadəyə yönəldir.

Belə Mərkəzin tətbiqi enerji şəbəkəsinə bir çox üstünlüklər verir. Məsələn, SCADA sistemi ilə enerji sisteminə real vaxt rejimində nəzarət olunur, şəbəkədə sabitlik, o cümlədən tezlik və gərginlik qorunur, qəfil enerji çatışmazlıqları avtomatik tənzimlənir, qəzaların təsiri azalır və sistem daha etibarlı olur. Bundan başqa, pik saatlarda elektrikə tələbat daha rahat qarşılanır, Günəş və külək enerjisindəki fasilələrin təsiri azalır, enerji sisteminin sıfırdan bərpası mümkün olur. Eyni zamanda, Günəş batan saatlarda yük dəyişiklikləri daha rahat idarə edilir.

Bir sözlə, Batareya Enerji Saxlanc Mərkəzinin yaradılması Azərbaycanın enerji sistemini daha müasir, çevik və dayanıqlı edir. Xüsusilə Günəş və külək enerjisinin artdığı bir dövrdə bu cür saxlanc sistemləri gələcəyin enerji modelinin əsas hissəsi hesab olunur.

"Abşeron" Batareya Enerji Saxlanc Mərkəzində bu sistemləri idarə etmək üçün xüsusi mərkəz yaradılıb.

Ərazidə müasir idarəetmə binası tikilib, geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.

Dövlətimizin başçısına bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyası və enerjisistemin rəqəmsal transformasiyası haqqında da məlumat verildi.

Bildirildi ki, yaxın perspektivdə böyükhəcmli bərpaolunan enerji mənbələri enerjisistemə inteqrasiya ediləcək və 2028-ci ildə ümumilikdə 2100 MVt-dan çox yaşıl enerji artıq şəbəkədə olacaq.

Bütün bunlar nəzərə alınaraq Azərbaycanda tikilən 2 GVt bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasını dayanıqlı və təhlükəsiz şəkildə həyata keçirmək, Bakının, o cümlədən Ələt Azad İqtisadi Zonasının enerji təchizatında yaşıl enerji payını yüksəltmək, 500/330 kV-luq "Nəvahi Yaşıl Enerji" qovşağını ölkə enerjisistemi ilə birbaşa tam əlaqələndirməklə onu əsas qovşaq yarımstansiyalarından birinə çevirmək üçün icra edilən "AZURE" layihəsi çərçivəsində işlərin əsas mərhələsi artıq yekunlaşıb.

Layihə çərçivəsində "Nəvahi" yarımstansiyasına "Abşeron" yarımstansiyasından 65 kilometr məsafədə 500 kV-luq, "Bankə" və "Biləsuvar" Günəş Elektrik stansiyalarından isə ümumilikdə 181 kilometr məsafədə 330 kV-luq ötürmə xətləri çəkilib. Perspektivdə "Nəvahi" yarımstansiyasına Mingəçevirdən 235 kilometr 500 kV-luq, Qobu, Ələt və Qobustandan isə ümumilikdə 103 kilometr 330 kV-luq ötürmə xətlərinin çəkilişi nəzərdə tutulur.

Son 7 ildə 4700 kilometr fiber-optik kabel infrastrukturu yaradılıb, 550-dən çox enerji obyektini əhatə edən mərkəzi SCADA sistemi qurulub.

Enerjisistemdə onlayn diaqnostika texnologiyaları (AGC, WAMS/WACS), süni intellektəsaslı qəza proqnozlaşdırma və diaqnostika sistemləri tətbiq olunur. Günəş və külək stansiyaları üçün yüksəkdəqiqlikli proqnozlaşdırma sistemi hazırlanır.

"AzərEnerji" ASC-nin daxili strukturunda enerjisistemin tam avtomatlaşdırılmış idarə edilməsi məqsədilə Rəqəmsal İdarəetmə Departamenti yaradılıb.

Elektrik enerjisi istehlakının 2032-ci ilədək təxminən 17 faiz artacağı proqnozlaşdırılır. Həmin dövrədək 8 GVt BOEM gücləri yaradılacaq.

Yaşıl enerjinin Qara dəniz kabeli, regional enerji dəhlizləri və digər layihələr vasitəsilə Avropa bazarlarına ixracı əsas hədəfdir. Qara dəniz kabelinin 1300 MVt yaşıl enerjiötürmə imkanı olacaq.

Dövlətimizin başçısı "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin açılışını bildirən düyməni basdı.

***AZƏRTAC***



# Dövlət başçısı Gürcüstan səfirliyində



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 27-də Gürcüstanın ölkəmizdəki səfirliyində olub, Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlya həzrətlərinin vəfatı ilə əlaqədar başsağlığı verib.**

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze dövlətimizin başçısını qarşıladı.

Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazdı.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlya həzrətlərinin həyatını və fəaliyyətini nəcib amallara və dinlərarası dialoqun təşviqinə həsr etdiyini deyərək, onun xatirəsinin ölkəmizdə daim ehtiramla xatırlanacağını vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan-Gürcüstan ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında II İlya həzrətlərinin roluna toxundu.

Zurab Pataradze səfirliyə gələrək başsağlığı verdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

***AZƏRTAC***

## Minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, minatəmizləmə fəaliyyəti həyata keçirilən zaman vəzifə borcunu yerinə yetirərkən həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinə dövlət qayğısını artırmaq məqsədilə "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 316 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilsin və onun aylıq məbləği 700 (yeddi yüz) manat müəyyən olunsun.

**2.** Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

2.1. minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənin aşağıda göstərilən ailə üzvlərinə (təqaüd məbləği onların sayına uyğun bərabər hissələrə bölünməklə) ödənilir:

2.1.1. dul arvadına (ərinə), valideynlərinə;

2.1.2. 18 yaşına çatmamış (peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrində təhsil alanlara isə həmin təhsil müəssisələrini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək), yaxud 18 yaşına çatanadək əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı əlilliyi olan övladlarına, uşaq evlərində tərbiyə olunan qardaş və bacılarına;

2.1.3. birinci növbədən digər qohumları olmayan baba və nənələrinə;

2.2. dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün nəzərdə tutulmuş xərclər hesabına həmin Nazirlik tərəfindən ödənilir;

2.3. bu Fərmanın 1-ci hissəsi ilə təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü bu Fərman qüvvəyə mindiyi tarixədək minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə də şamil edilir və bu Fərman qüvvəyə mindiyi tarixdən sonrakı dövr üçün ödənilir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 mart 2026-cı il**

# Dərbənddəki Azərbaycan Dövlət Musiqili Dram Teatrının yenidənqurmadan sonra açılışı münasibətilə təbrik

**Əziz dostlar!**

Sizi əlamətdar hadisə - Dərbənd şəhərində fəaliyyət göstərən Azərbaycan Dövlət Musiqili Dram Teatrının genişmiqyaslı yenidənqurmadan sonra açılışı münasibətilə təbrik edirəm.

Rusiya Federasiyasının və Dağıstan Respublikasının rəhbərliklərinə Azərbaycan xalqının mədəni-tarixi irsinin bu abidəsinin qorunmasına göstərilən diqqətə görə təşəkkürümü bildirirəm.

Bir əsrdən çox tarixi olan bu mədəniyyət mərkəzi Azərbaycan milli teatr sənətinin ən qədim kollektivlərindən biridir.

Rusiya Federasiyasında Azərbaycan dilində yeganə dövlət teatr müəssisəsi olan Dərbənddəki Azərbaycan Dövlət Musiqili Dram Teatrı Dağıstanın mədəni həyatında daim mühüm rol oynayıb və respublikanın ərazisində yaşayan azərbaycanlıların milli və mənəvi dəyərlərinin qorunmasına töhfə verib. Görkəmli Azərbaycan dramaturqlarının əsərlərinin uğurla tamaşaya qoyulması mədəniyyət mərkəzinə təkcə Dağıstanda deyil, həm də onun hüdudlarından kənarda geniş tamaşaçı rəğbəti qazandırıb.

Bu gün Dərbənddə Azərbaycan teatrının fəaliyyətini bərpa etməsi həm peşəkar sənətçilər və incəsənətə dəyər verənlər, həm də zəngin mədəni rəngarəngliyə malik Dağıstanın bütün əhalisi üçün böyük, çoxdan gözlənilən bayramdır.

Azərbaycan və Dağıstan xalqlarını əsrlər boyu sıx dostluq əlaqələri, mehriban qonşuluq və qarşılıqlı dəstək birləşdirib. Bu ənənəvi əlaqələr Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərdə xüsusi rola malikdir.

Humanitar əməkdaşlığın inkişafı öz növbəsində Azərbaycan-Rusiya dövlətlərarası münasibətlərinin mühüm amilidir. Əminəm ki, Azərbaycan ilə Dağıstan arasında sıx əməkdaşlıq, o cümlədən mədəni-humanitar əlaqələr gələcəkdə də ardıcıl inkişaf edəcək və Azərbaycan-Rusiya müttəfiqlik qarşılıqlı münasibətləri məcrasında genişlənəcəkdir.

Dərbənddəki Azərbaycan Dövlət Musiqili Dram Teatrının bütün kollektivini bu əlamətdar hadisə münasibətilə bir daha təbrik edirəm.

Teatra yeni yaradıcılıq uğurları arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 mart 2026-cı il**

## “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 351-VIIQD nömrəli Qanununun tətbiqi və “Patent haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 755 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 351-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. “Patent haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin birinci hissəsinin doqquzuncu abzasında, 5-ci maddəsinin 2-ci hissəsində (ikinci halda), 6-cı maddəsinin 2-ci hissəsində, 8-ci maddəsinin 3-cü hissəsinin üçüncü abzasında, 10-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində, 13-cü maddəsinin 8-ci hissəsində, 17-ci maddəsinin 2-ci hissəsində, 18-ci maddəsinin birinci cümləsində, 20-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında, 25-ci maddəsində, 27-ci maddəsinin 6-cı hissəsində və 7-ci hissəsinin birinci abzasının üçüncü cümləsində, 27-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində, 3-cü hissəsində, 4-cü hissəsinin ikinci cümləsində, 5-ci (hər iki halda) və 6-cı hissələrində, 7-ci hissəsinin birinci abzasında, ikinci abzasının ikinci cümləsində, “a” bəndində və 8-ci hissəsində, 27-2-ci maddəsinin birinci cümləsində, 28-ci maddəsinin 4-cü hissəsinin birinci və üçüncü abzaslarında və 9-cu hissəsinin birinci cümləsində, 28-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “a” və “b” bəndlərində, 28-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “a” bəndinin birinci və ikinci abzaslarında, 2-ci hissəsinin birinci abzasında, “a”, “b” və “c” bəndlərində, 28-3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 29-cu maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin üçüncü abzasında, 3-cü və 9-cu hissələrinin birinci abzaslarında və 10-cu hissəsinin birinci abzasında, ikinci abzasının birinci cümləsində və üçüncü–beşinci abzaslarında, 30-cu maddəsinin 1-ci hissəsinin birinci cümləsində, 3-cü hissəsinin birinci və ikinci abzaslarında, 5-ci hissəsinin ikinci abzasında və 7-ci hissəsinin birinci abzasının ikinci cümləsində, 32-ci maddəsinin 1-ci hissəsinin birinci və ikinci abzaslarında, 33-cü maddəsinin 1-ci hissəsinin ikinci və üçüncü abzaslarında, 37-1-ci maddəsinin 1-ci hissəsinin “a” bəndində və 3-cü hissəsinin birinci cümləsində, 37-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “b” bəndində, 3-cü hissəsinin birinci cümləsində və 39.2-ci maddəsində (üçüncü halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 5-ci maddəsinin 2-ci hissəsində (ikinci halda), 6-cı maddəsinin 2-ci hissəsində, 10-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində, 17-ci maddəsinin 2-ci hissəsində, 18-ci maddəsinin birinci cümləsində, 20-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında, 25-ci maddəsində, 27-ci maddəsinin 6-cı hissəsində, 29-cu maddəsinin 10-cu hissəsinin beşinci abzasında, 30-cu maddəsinin 5-ci hissəsinin ikinci abzasında və 7-ci hissəsinin birinci abzasının ikinci cümləsində, 32-ci maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 39.2-ci maddəsində (üçüncü halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 13-cü maddəsinin 8-ci hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti və müvafiq sahə (sahələrarası) mərkəzi icra hakimiyyəti orqanları nəzərdə tutulur;

1.4. həmin Qanunun 1-ci maddəsinin birinci hissəsinin beşinci və doqquzuncu abzaslarında, 7-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasında və 5-ci hissəsinin birinci cümləsində, 8-ci maddəsinin 3-cü hissəsinin üçüncü abzasında və 4-cü hissəsinin birinci cümləsində, 9-cu maddəsinin 4-cü hissəsinin birinci cümləsində, 10-cu maddəsinin 2-ci hissəsinin birinci abzasında, 12-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında, 15-ci maddəsinin 3-cü hissəsinin birinci abzasının üçüncü cümləsində, 16-cı maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində və ikinci abzasında, 17-ci maddəsinin 3-cü hissəsində, 19-cu maddəsinin 1-ci hissəsinin ikinci abzasının və 2-ci hissəsinin üçüncü abzasının ikinci cümlələrində, 4-cü hissəsində (hər iki halda), 20-ci maddəsinin 2-ci hissəsinin 2.7-ci bəndinin ikinci abzasında və 2.10-cu bəndinin ikinci abzasının ikinci cümləsində, 26-cı maddəsinin 3-cü hissəsində, 27-ci maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) abzaslarında, 7-ci hissəsinin birinci abzasının üçüncü cümləsində və 8-ci hissəsinin ikinci abzasında, 27-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində, 3-cü hissəsində, 4-cü hissəsinin ikinci cümləsində, 5-ci (hər iki halda) və 6-cı hissələrində, 7-ci hissəsinin birinci abzasında, ikinci abzasının ikinci cümləsində, “a” bəndində və 8-ci hissəsində, 27-2-ci maddəsinin birinci cümləsində, 28-ci maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində, 3-cü hissəsində (hər iki halda), 4-cü hissəsinin birinci və üçüncü abzaslarında, 9-cu hissəsinin birinci cümləsində, 10-cu hissəsinin birinci və ikinci cümlələrində, 28-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “a” və “b” bəndlərində, 28-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “a” bəndinin birinci və ikinci abzaslarında, 2-ci hissəsinin birinci abzasında, “a”, “b” və “c” bəndlərində, 28-3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 29-cu maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin üçüncü abzasında, 3-cü hissəsinin birinci və altıncı abzaslarında, 5-ci hissəsinin ikinci abzasının birinci cümləsində və dördüncü abzasının ikinci cümləsində, 9-cu hissəsinin birinci abzasında və 10-cu hissəsinin birinci abzasında, ikinci abzasının birinci cümləsində, üçüncü və dördüncü abzaslarında, 30-cu maddəsinin 1-ci hissəsinin birinci cümləsində, 2-ci hissəsində, 3-cü hissəsinin birinci və ikinci abzaslarında, 5-ci hissəsinin birinci abzasında, 7-ci hissəsinin birinci və ikinci abzaslarının birinci cümlələrində, 32-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında və 3-cü hissəsində, 33-cü maddəsinin 1-ci hissəsinin birinci–üçüncü abzaslarında, 35-ci maddəsinin 1-ci hissəsində və 2-ci hissəsinin birinci və ikinci abzaslarında, 36-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 2-ci hissəsində, 37-1-ci maddəsinin 1-ci hissəsinin “a” bəndində və 3-cü hissəsinin birinci cümləsində, 37-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “b” bəndində və 3-cü hissəsinin birinci cümləsində, 39.2-ci maddəsində (birinci halda) və 41-ci maddəsinin birinci–üçüncü hissələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Patent haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 1-ci hissəsinin birinci abzası nəzərə alınmaqla, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin əqli mülkiyyət mübahisələri üzrə Apellyasiya şurasının sədri vəzifəsinin Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu”nda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 351-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3** “Patent haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 755 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 505 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.1. “Patent haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin birinci hissəsinin beşinci və doqquzuncu abzaslarında, 5-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında və 2-ci hissəsində (hər iki halda), 6-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 2-ci hissəsində, 7-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasında və 5-ci hissəsinin birinci cümləsində, 8-ci maddəsinin 3-cü hissəsinin üçüncü abzasında və 4-cü hissəsinin birinci cümləsində, 9-cu maddəsinin 4-cü hissəsinin birinci cümləsində, 10-cu maddəsinin 2-ci hissəsinin birinci abzasında, 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində, 12-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında, 13-cü maddəsinin 8-ci hissəsində, 15-ci maddəsinin 3-cü hissəsinin birinci abzasının üçüncü cümləsində, 16-cı maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində və ikinci abzasında, 17-ci maddəsinin 2-ci və 3-cü hissələrində, 18-ci maddəsinin birinci cümləsində, 19-cu maddəsinin 1-ci hissəsinin ikinci abzasının və 2-ci hissəsinin üçüncü abzasının ikinci cümlələrində və 4-cü hissəsində (hər iki halda), 20-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında, 2-ci hissəsinin 2.7-ci bəndinin ikinci abzasında, 2.10-cu bəndinin ikinci abzasının ikinci cümləsində, 25-ci maddəsində, 26-cı maddəsinin 3-cü hissəsində, 27-ci maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) abzaslarında, 6-cı hissəsində, 7-ci hissəsinin birinci abzasının üçüncü cümləsində və 8-ci hissəsinin ikinci abzasında, 27-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində, 3-cü hissəsində, 4-cü hissəsinin ikinci cümləsində, 5-ci (hər iki halda) və 6-cı hissələrində, 7-ci hissəsinin birinci abzasında, ikinci abzasının ikinci cümləsində, “a” bəndində və 8-ci hissəsində, 27-2-ci maddəsinin birinci cümləsində, 28-ci maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində, 3-cü hissəsində (hər iki halda), 4-cü hissəsinin birinci və üçüncü abzaslarında, 9-cu hissəsinin birinci cümləsində və 10-cu hissəsinin birinci və ikinci cümlələrində, 28-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “a” və “b” bəndlərində, 28-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “a” bəndinin birinci və ikinci abzaslarında, 2-ci hissəsinin birinci abzasında, “a”, “b” və “c” bəndlərində, 28-3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 29-cu maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin üçüncü abzasında, 3-cü hissəsinin birinci və altıncı abzaslarında, 5-ci hissəsinin ikinci abzasının birinci cümləsində və dördüncü abzasının ikinci cümləsində, 6-cı hissəsində, 9-cu hissəsinin birinci abzasında və 10-cu hissəsinin birinci abzasında, ikinci abzasının birinci cümləsində və üçüncü–beşinci abzaslarında, 30-cu maddəsinin 1-ci hissəsinin birinci cümləsində, 2-ci hissəsində, 3-cü hissəsinin birinci və ikinci abzaslarında, 5-ci hissəsinin birinci və ikinci abzaslarında, 7-ci hissəsinin birinci abzasının birinci və ikinci cümlələrində və ikinci abzasının birinci cümləsində, 32-ci maddəsinin 1-ci hissəsinin birinci və ikinci abzaslarında və 3-cü hissəsində, 33-cü maddəsinin 1-ci hissəsinin birinci–üçüncü abzaslarında, 35-ci maddəsinin 1-ci hissəsində, 2-ci hissəsinin birinci və ikinci abzaslarında, 36-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 2-ci hissəsində, 37-1-ci maddəsinin 1-ci hissəsinin “a” bəndində və 3-cü hissəsinin birinci cümləsində, 37-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “b” bəndində və 3-cü hissəsinin birinci cümləsində, 38-ci maddəsinin 1-ci hissəsində, 39.2-ci maddəsində (hər üç halda) və 41-ci maddəsinin birinci–üçüncü hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”;

3.2. 2.1-1-ci bənd ləğv edilsin;

3.3. 2.2–2.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“2.2. həmin Qanunun 5-ci maddəsinin 2-ci hissəsində (ikinci halda), 6-cı maddəsinin 2-ci hissəsində, 10-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində, 17-ci maddəsinin 2-ci hissəsində, 18-ci maddəsinin birinci cümləsində, 20-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında, 25-ci maddəsində, 27-ci maddəsinin 6-cı hissəsində, 29-cu maddəsinin 10-cu hissəsinin beşinci abzasında, 30-cu maddəsinin 5-ci hissəsinin ikinci abzasında və 7-ci hissəsinin birinci abzasının ikinci cümləsində, 32-ci maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 39.2-ci maddəsində (ikinci və üçüncü hallarda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.3. həmin Qanunun 13-cü maddəsinin 8-ci hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti və müvafiq sahə (sahələrarası) mərkəzi icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.4. həmin Qanunun 1-ci maddəsinin birinci hissəsinin beşinci və doqquzuncu abzaslarında, 5-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında və 2-ci hissəsində (birinci halda), 6-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında, 7-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasında və 5-ci hissəsinin birinci cümləsində, 8-ci maddəsinin 3-cü hissəsinin üçüncü abzasında və 4-cü hissəsinin birinci cümləsində, 9-cu maddəsinin 4-cü hissəsinin birinci cümləsində, 10-cu maddəsinin 2-ci hissəsinin birinci abzasında, 12-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında, 15-ci maddəsinin 3-cü hissəsinin birinci abzasının üçüncü cümləsində, 16-cı maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində və ikinci abzasında, 17-ci maddəsinin 3-cü hissəsində, 19-cu maddəsinin 1-ci hissəsinin ikinci abzasının və 2-ci hissəsinin üçüncü abzasının ikinci cümlələrində, 4-cü hissəsində (hər iki halda), 20-ci maddəsinin 2-ci hissəsinin 2.7-ci bəndinin ikinci abzasında və 2.10-cu bəndinin ikinci abzasının ikinci cümləsində, 26-cı maddəsinin 3-cü hissəsində, 27-ci maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) abzaslarında, 7-ci hissəsinin birinci abzasının üçüncü cümləsində və 8-ci hissəsinin ikinci abzasında, 27-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində, 3-cü hissəsində, 4-cü hissəsinin ikinci cümləsində, 5-ci (hər iki halda) və 6-cı hissələrində, 7-ci hissəsinin birinci abzasında, ikinci abzasının ikinci cümləsində, “a” bəndində və 8-ci hissəsində, 27-2-ci maddəsinin birinci cümləsində, 28-ci maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində, 3-cü hissəsində (hər iki halda), 4-cü hissəsinin birinci və üçüncü abzaslarında, 9-cu hissəsinin birinci cümləsində, 10-cu hissəsinin birinci və ikinci cümlələrində, 28-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “a” və “b” bəndlərində, 28-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “a” bəndinin birinci və ikinci abzaslarında, 2-ci hissəsinin birinci abzasında, “a”, “b” və “c” bəndlərində, 28-3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 29-cu maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin üçüncü abzasında, 3-cü hissəsinin birinci və altıncı abzaslarında, 5-ci hissəsinin ikinci abzasının birinci cümləsində və dördüncü abzasının ikinci cümləsində, 6-cı hissəsində, 9-cu hissəsinin birinci abzasında və 10-cu hissəsinin birinci abzasında, ikinci abzasının birinci cümləsində, üçüncü və dördüncü abzaslarında, 30-cu maddəsinin 1-ci hissəsinin birinci cümləsində, 2-ci hissəsində, 3-cü hissəsinin birinci və ikinci abzaslarında, 5-ci hissəsinin birinci abzasında, 7-ci hissəsinin birinci və ikinci abzaslarının birinci cümlələrində, 32-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında və 3-cü hissəsində, 33-cü maddəsinin 1-ci hissəsinin birinci–üçüncü abzaslarında, 35-ci maddəsinin 1-ci hissəsində və 2-ci hissəsinin birinci və ikinci abzaslarında, 36-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 2-ci hissəsində, 37-1-ci maddəsinin 1-ci hissəsinin “a” bəndində və 3-cü hissəsinin birinci cümləsində, 37-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, “b” bəndində və 3-cü hissəsinin birinci cümləsində, 38-ci maddəsinin 1-ci hissəsində, 39.2-ci maddəsində (birinci halda) və 41-ci maddəsinin birinci–üçüncü hissələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 mart 2026-cı il**

---

## “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Mərakeş Krallığının Ali Təhsil, Elmi Tədqiqat və İnnovasiya Nazirliyi arasında elm və ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2026-cı il fevralın 16-da Rabat şəhərində imzalanmış “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Mərakeş Krallığının Ali Təhsil, Elmi Tədqiqat və İnnovasiya Nazirliyi arasında elm və ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Mərakeş Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 mart 2026-cı il**

---

## “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında Suriya Ərəb Respublikasında təhsil infrastrukturunun bərpası üzrə strateji tərəfdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2026-cı il fevralın 17-də Rabat şəhərində imzalanmış “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında Suriya Ərəb Respublikasında təhsil infrastrukturunun bərpası üzrə strateji tərəfdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Suriya Ərəb Respublikası Hökumətinə və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 mart 2026-cı il**

---

## C.Ə.Əliyevin “İstiqlal” ordeni ilə təltif edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında tibb elminin və səhiyyənin inkişafında xüsusi xidmətlərinə görə Cəmil Əziz oğlu Əliyev “İstiqlal” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 mart 2026-cı il**

---

## Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”da dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 10, maddə 1147) ilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”nın 9-cu hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 9.1.2.1-ci, 9.1.3.3-cü və 9.3.5.5-ci abzasların “Əsas icraçılar (fəaliyyət istiqamətlərinə uyğun olaraq)” sütununda “ETSN” akronimi “ADSEA” akronimi ilə, “Digər icraçılar” sütununda “ADSEA” akronimi “ETSN” akronimi ilə əvəz edilsin.

**2.** 9.1.3.2-ci abzasın “Tədbirin adı” sütununda “su mənbələri ehtiyatlarının iqlim amilləri ilə uzlaşdırılması” sözləri “iqlim amilləri nəzərə alınmaqla su ehtiyatlarının qiymətləndirilməsi” sözləri ilə, “Əsas icraçılar (fəaliyyət istiqamətlərinə uyğun olaraq)” sütununda “ETSN” akronimi “ADSEA” akronimi ilə və “Digər icraçılar” sütununda “ADSEA” akronimi “ETSN” akronimi ilə əvəz edilsin.

**3.** 9.2.3.4-cü, 9.2.3.5-ci, 9.3.1.2-ci, 9.3.1.3-cü və 9.3.3.6-cı abzasların “Digər icraçılar” sütunundan “ETSN,” akronimi çıxarılsın.

**4.** 9.4.1.1-ci və 9.4.1.2-ci abzasların “Əsas icraçılar (fəaliyyət istiqamətlərinə uyğun olaraq)” sütunundan “ETSN,” akronimi çıxarılsın və “Digər icraçılar” sütununa “XİN,” akronimindən sonra “ETSN,” akronimi əlavə edilsin.

**5.** 9.4.5.1-ci abzasın “Əsas icraçılar (fəaliyyət istiqamətlərinə uyğun olaraq)” sütununa “ETSN” akronimindən sonra “, “ADSEA” akronimi əlavə edilsin və “Digər icraçılar” sütunundan “ADSEA,” akronimi çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 mart 2026-cı il**

# Bölgələrdə müasir təhsil modeli

## Azərbaycanın insan kapitalına əsaslanan inkişaf strategiyası



**XXI əsrdə dövlətlərin rəqabəti gələcək nəsillərin dünyagörüşünün formalaşdığı mühitdə baş verir. Hər ölkənin təhsil siyasəti birbaşa strateji təhlükəsizlik və milli inkişaf məsələsinə çevrilib. Məhz bu kontekstdə Prezident İlham Əliyevin Şamaxıda Avropa liseyinin yeni binasının açılışında iştirakı geniş siyasi və inkişaf konsepsiyasının tərkib hissəsi kimi oxunmalıdır.**

Azərbaycanın inkişaf modelində mərkəzlə regionlar arasında fərqlərin azaldılması artıq strateji xətt kimi formalaşıb. Ənənəvi olaraq bir çox ölkələrdə paytaxtın iqtisadi, sosial və intellektual baxımdan dominant mövqeyi regionları periferiya vəziyyətində saxlayır, nəticədə isə daxili miqrasiya artır, sosial bərabərsizlik dərinləşir və uzunmüddətli inkişaf potensialı məhdudlaşır. Azərbaycan isə klassik "paytaxt mərkəzçiliyi" modelindən uzaqlaşaraq daha balanslı coğrafi inkişaf konsepsiyasını önə çəkir.

Belə bir yanaşma imkanların, keyfiyyətin və perspektivlərin regionlara daşınmasını nəzərdə tutur. Şamaxı şəhərində müasir standartlara cavab verən Avropa liseyinin inşası da məhz bu siyasətin dərin mahiyyətini əks etdirir. Siyasi-analitik baxımdan bu cür layihələr dövlətin sosial müqavilə modelinin mühüm komponentidir. Yəni dövlət vətəndaşa yalnız inzibati idarəetmə deyil, eyni zamanda bərabər imkanlar təqdim edir. Təhsil kimi həssas və strateji sahədə bu balansın qorunması isə cəmiyyət daxilində sosial ədalət hissini gücləndirir və siyasi sabitliyi möhkəmləndirir. Regionlarda paytaxt səviyyəli təhsil imkanlarının yaradılması, əslində, mərkəzlə periferiya arasında psixoloji və sosial məsafəni də azaldır.

Digər tərəfdən, bu siyasət uzunmüddətli perspektivdə daxili miqrasiya dinamikasına da təsir göstərir. Əgər regionlarda keyfiyyətli təhsil, müasir infrastruktur və inkişaf perspektivləri formalaşırsa, bu, gənc ailələrin paytaxta axınının qarşısını qismən alır və ölkə daxilində daha balanslı demoqrafik və iqtisadi strukturun yaranmasına şərait yaradır.

Eyni zamanda, Avropa liseyi kimi layihələr Azərbaycanın təhsil siyasətində standartlaşdırma və keyfiyyət vahidliyinə doğru hərəkəti də göstərir. Yəni harada yaşamasından asılı olmayaraq, hər bir vətəndaşın oxşar keyfiyyətli təhsilalma imkanı əldə etməsi dövlətin əsas prioritetlərindən birinə çevrilir. Prezidentin təhsil sahəsinə yanaşmasını daha geniş siyasi və iqtisadi kontekstdə qiymətləndirdikdə burada əsas xəttin insan kapitalının formalaşdırılması strategiyası ilə bağlı olduğu aydın görünür. Qlobal iqtisadiyyat sürətlə bilik, texnologiya, innovasiya və rəqəmsal iqtisadiyyat üzərində qurulan yeni mərhələyə daxil olur. Belə bir şəraitdə isə ən böyük resurs yaxşı təhsil almış, texnoloji biliklərə malik və çevik düşünə bilən insan kapitalıdır.

Məhz bu baxımdan müasir məktəblərdə yaradılan laboratoriyalar, STEAM mərkəzləri, informatika otaqları və rəqəmsal tədris infrastrukturu ölkənin gələcək iqtisadi modelinin sosial bazasını formalaşdırır. Yəni bu gün məktəblərdə yaradılan texnoloji mühit sabah innovasiya iqtisadiyyatında çalışacaq mütəxəssislərin yetişməsi deməkdir. Başqa sözlə desək, təhsil sahəsinə qoyulan investisiyalar strateji iqtisadi investisiyalar kimi qiymətləndirilməlidir. Çünki bu investisiyaların nəticəsi illər sonra iqtisadi artım, texnoloji inkişaf, yeni sənaye sahələrinin yaranması və ölkənin intellektual potensialının güclənməsi şəklində ortaya çıxır. Məhz bu baxımdan təhsil siyasəti ilə iqtisadi inkişaf strategiyası arasında birbaşa əlaqə mövcuddur və bu əlaqə müasir dövlət idarəçiliyinin əsas elementlərindən birinə çevrilib.

Mövcud prosesdə Heydər Əliyev Fondunun rolu siyasi və institusional baxımdan diqqət çəkir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində yüzlərlə məktəbin tikilməsi göstərir ki, təhsil siyasəti daha geniş institusional mexanizm vasitəsilə reallaşdırılır. Belə bir modelin üstünlüyü ondan ibarətdir ki, sosial və təhsil layihələri daha operativ həyata keçirilir, regionları daha geniş əhatə edir və uzunmüddətli proqram xarakteri alır. Eyni zamanda, bu, sosial siyasətin institusional əsaslarının gücləndiyini göstərir. Yəni təhsil sahəsində aparılan islahatlar və infrastruktur layihələri sistemli və davamlı siyasət kimi həyata keçirilir.

Əslində, regionlarda sosial infrastrukturun – məktəblərin, xəstəxanaların, mədəniyyət və idman obyektlərinin qurulması dövlət siyasətinin mühüm legitimlik və sabitlik mexanizmlərindən hesab olunur. Müasir siyasi nəzəriyyələrdə dövlətin dayanıqlığı vətəndaşların dövlətin qayğısını real həyatlarında hiss etməsi ilə də ölçülür. Bu baxımdan da regionlarda müasir təhsil müəssisələrinin yaradılması dövlət-vətəndaş münasibətlərində etimadın institusional əsaslarını gücləndirir.

Xüsusilə təhsil sahəsi digər sosial sahələrdən fərqli olaraq uzunmüddətli siyasi təsirə malikdir. Çünki təhsilə qoyulan investisiya insan kapitalı vasitəsilə onilliklər boyu təsir göstərir. Təhsil səviyyəsinin yüksəlməsi, savadlı və peşəkar kadrların yetişməsi, sosial mobilliyin artması nəticə etibarilə cəmiyyətin sabitliyinə, orta təbəqənin formalaşmasına və dövlət institutlarına etimadın güclənməsinə gətirib çıxarır. Digər tərəfdən, "Avropa liseyi" konsepti Azərbaycanın təhsil modelinin beynəlxalq standartlara inteqrasiya prinsipi əsasında qurulduğunu göstərir. Yəni məqsəd qlobal bilik və əmək bazarında rəqabət aparmaq qabiliyyətinə malik yeni nəsil yetişdirməkdir. Regionlarda belə liseylərin yaradılması isə xüsusi əhəmiyyət daşıyır.



Son olaraq qeyd edək ki, Prezident İlham Əliyevin Şamaxıda Avropa liseyinin açılışında iştirakı Azərbaycanın inkişaf modelinin əsas istiqamətlərini göstərən simvolik və strateji addım kimi qiymətləndirilə bilər. Azərbaycanın inkişaf strategiyasında təhsil uzunmüddətli dövlət quruculuğunun, iqtisadi modernləşmənin və sosial sabitliyin əsas dayaqlarından biri kimi formalaşır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Hörmüz boğazında "neft tıxacı"

## *Tankerlər lövbər salıb, bazar yanacaq gözləyir*

**Fevral ayının sonlarında ABŞ və İsrailin İrana qarşı hərbi əməliyyatlara başlaması ilə Yaxın Şərqdə qarşıdurma yeni və daha geniş miqyas alıb. Bu qarşıdurmanın mərkəzi isə dünyanın ən strateji enerji keçid nöqtələrindən biri olan Hörmüz boğazı olub. Qlobal neft ticarətinin təxminən beşdə birinin keçdiyi bu dar su yolu qısa zamanda həm hərbi, həm də iqtisadi gərginliyin əsas meydanına çevrilib.**



Münaqişənin başlanğıcında İranın İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) böhran vəziyyətini elan edərək boğazdan tranzitin SEPAH nəzarəti olmadan mümkün olmayacağını bildirib və gəmilərə radio vasitəsilə keçidə icazə verilməyəcəyini xəbər verib. Yeri gəlmişkən, bu xəbərdən sonra beynəlxalq tanker şirkətləri bölgədən uzaqlaşmağa məcbur olub. Gəmi hərəkəti qısa müddətdə demək olar ki, dayanma səviyyəsinə çatıb, onlarla neft tankeri və yük gəmisi boğazdan kənarda gözləməyə məcbur olub, bir çox şirkət isə marşrutlarını tamamilə dəyişdirmək məcburiyyətində qalıb.

Mart ayına doğru vəziyyət daha da gərginləşib. İranın müxtəlif bayraqlar altında üzən ticarət gəmilərinə qarşı hücumları intensivləşib və bir neçə gəmi ciddi zərər görüb. Bununla bərabər, ABŞ hərbi-dəniz qüvvələri regionda aktiv əməliyyatlara başlayıb. Məqsəd boğazın yenidən açılması və beynəlxalq ticarət axınının bərpası olub, lakin bu addımlar effektli nəticə verməyib.

Hörmüz boğazında baş verənlər qlobal iqtisadiyyata dərhal təsir göstərib. Neft qiymətləri kəskin artaraq son illərin ən yüksək səviyyələrinə çatıb. Enerji idxalından asılı olan ölkələr, xüsusilə Asiya bazarları ciddi təzyiqlərlə üzləşib. Bir sıra dövlətlər strateji ehtiyatlarını istifadəyə verib, bəzi ölkələrdə isə yanacaq məhdudiyyətləri tətbiq olunub. Qlobal tədarük zəncirlərində yaranan problemlər sənaye istehsalına da mənfi təsir göstərib. İran bildirir ki, "düşmən olmayan gəmilər" yalnız Tehranla birbaşa koordinasiya etdikləri təqdirdə bu mühüm ticarət marşrutundan keçə bilərlər. Praktikada isə bu, o deməkdir ki, adətən dünya neft tədarükünün təxminən 20 faizinin daşındığı bu keçiddən hazırda cəmi bir neçə gəmi istifadə edə bilir.

Bu arada dünyanın mayeləşdirilmiş neft qazı (LPG) üzrə ikinci ən böyük idxalçısı olan Hindistan Hörmüz boğazında qalan yüklərinin çıxarılması üçün İranla danışıqları davam etdirir. Rəsmi Dehlinin məlumatına görə, cümə gününə olan vəziyyətdə ən azı 20 Hindistan bayraqlı gəmi, o cümlədən 5 LPG tankeri Fars körfəzi ərazisində hələ də hərəkətsiz vəziyyətdə qalır. Hazırda Hindistan son onilliklərin ən ciddi qaz böhranı ilə üz-üzədir. Hökumət məişət istehlakçılarını qorumaq məqsədilə sənaye müəssisələrinə qaz təchizatını məhdudlaşdırmağa məcbur olub. 1,4 milyarddan çox əhalisi olan Hindistan ötən il 33,15 milyon ton LPG istehlak edib və idxal etdiyi bu qazın 90 faizi Yaxın Şərq ölkələrinin payına düşüb.

Hörmüz boğazının bağlanması Asiya ölkələrinə xüsusilə ağır təsir göstərib. Filippin ötən həftə neft emalı zavodlarının Rusiya nefti almağa yönəlməsi fonunda milli enerji fövqəladə vəziyyəti elan edib. Rəsmilərin xəbərdarlığına görə, Vyetnam, Tayland və Sinqapur kimi ölkələrdə də yanacaq ehtiyatları kritik həddə enə bilər.

Hörmüz boğazının bağlanması və bunun fonunda qlobal neft qiymətlərinin kəskin bahalaşması enerji bazarlarında yeni mərhələnin başladığını göstərib. Hazırda alternativ enerji və nəqliyyat layihələri beynəlxalq siyasi gündəmin əsas mövzularından birinə çevrilib. Bununla bərabər, İsrailin Baş naziri Benyamin Netanyahu tərəfindən irəli sürülən təşəbbüs diqqət çəkib.

Təklifə əsasən, Yaxın Şərqin əsas neft ixracatçıları — Səudiyyə Ərəbistanı, Qətər, Küveyt və İraqdan çıxarılan neft yeni boru kəməri vasitəsilə İsrail ərazisindən keçərək Qırmızı dəniz sahillərinə çatdırıla bilər. Bu layihənin həyata keçirilməsi üçün həm kəmərin tikintisi, həm də sahil terminallarının yaradılması məqsədilə böyük həcmdə investisiya tələb olunub.

Hazırkı mərhələdə isə dünya bazarlarında neftin qiymət artımı davam edir. Bu tendensiya Azərbaycan neftinə də birbaşa təsir göstərir. Martın 31-nə olan məlumata görə, "Azeri Light" markalı xam neftin bir barelinin qiyməti 3,81 ABŞ dolları və ya 3,07 faiz artaraq 128,05 ABŞ dollarına yüksəlib. Yeri gəlmişkən, ölkənin cari il üzrə dövlət büdcəsində neftin orta qiyməti 65 ABŞ dolları səviyyəsində nəzərdə tutulub.

Bununla bərabər, Hörmüz boğazının daha 1 ay müddətinə faktiki blokadaya alınması Brent markalı neftin qiymətlərini bir barel üçün 150 dollara qədər yüksəldə bilər. Bu fikri Amerikanın "JP Morgan" bankının baş iqtisadçısı Bryus Kasman "The Times" qəzetinə bildirib. Martın 30-da Londonun ICE birjasında 2026-cı ilin iyun ayında çatdırılma üçün Brent markalı xam neftin fyuçerslərinin qiyməti 19 martdan bəri ilk dəfə bir barel üçün 115 dolları keçib, daha sonra bir barel üçün 112,78 dollara düşüb.

Qeyd edək ki, neftin bahalaşması və geosiyasi qarşıdurmaların mərkəzində dayanması alternativ enerji mənbələrinə marağı da artırıb. Elektrik mühərrikli nəqliyyat vasitələrinin istehsalı sürətlənib. Xüsusilə Çin bu sahədə önəmli addım atıb. Belə ki, rəsmi Pekin elektrik mühərrikli yük gəmiləri üzrə layihələri inkişaf etdirib.

***Musa BAĞIRLI***
***XQ***

# Azərbaycan – Belçika diplomatik məsləhətləşməsi

**Martın 31-də Belçikanın Baş nazirinin müavini, xarici işlər, Avropa işləri və inkişaf sahəsində əməkdaşlıq naziri Maksim Prevo Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.**




Telefon danışığı zamanı Yaxın Şərqdə cari təhlükəsizlik vəziyyəti, Azərbaycan və Belçika arasında ikitərəfli münasibətlər, habelə Avropa İttifaqı çərçivəsində əməkdaşlıq perspektivləri müzakirə olunub.

Nazirlər Yaxın Şərqdə mövcud hərbi eskalasiyadan dərin narahatlıqlarını ifadə edib, münaqişənin diplomatik yolla həllinin vacibliyini vurğulayıblar. Belçika naziri bununla yanaşı, İran ərazisindən Naxçıvan istiqamətinə dron hücumu ilə əlaqədar ölkəmizlə həmrəyliyini ifadə edib. Eyni zamanda, Belçika vətəndaşlarının İrandan təxliyəsinin təmin olunmasına yaradılmış şəraitə görə ölkəmizə təşəkkür bildirilib. Nazirlər, o cümlədən Azərbaycan və Ermənistan arasında normallaşma prosesi ətrafında fikir mübadiləsi aparıblar. Nazir Ceyhun Bayramov qarşı tərəfi bölgədə davamlı sülh və sabitliyin təmin edilməsi istiqamətində görülən tədbirlər barədə məlumatlandırıb.

Tərəflər Azərbaycanla Belçika arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün konstruktiv dialoqun və siyasi məsləhətləşmələr kimi mövcud mexanizmlərin, qarşılıqlı səfərlərin və yüksəksəviyyəli təmasların əhəmiyyətini vurğulayıblar.

***XQ***

# Azərbaycan – Çin birgə investisiya fondu müzakirəsi



**Azərbaycan İnvestisiya Holdinqi və Çinin İpək Yolu Fondu arasında birgə investisiya fondunun yaradılması imkanları nəzərdən keçirilib. Bu barədə Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" hesabında paylaşım edib.**

Müzakirə azərbaycanlı nazirin Çinin İpək Yolu Fondunun baş icraçı direktorunun müavini, İnvestisiya Komitəsinin üzvü Si Xinbo ilə görüşündə aparılıb.

Paylaşımda qeyd edilib: "Azərbaycan İnvestisiya Holdinqi və İpək Yolu Fondu arasında birgə investisiya fondunun yaradılması, potensial investisiya layihələrinin həyata keçirilməsi və maliyyələşmə mexanizmlərinin genişləndirilməsi imkanlarını nəzərdən keçirdik".

Qeyd edək ki, Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, 2025-ci ildə Azərbaycanın Çinə birbaşa investisiyalarının həcmi 9,957 milyon ABŞ dolları təşkil edib. Bu, 2024-cü illə müqayisədə 7,2 milyon dollar və ya 3,6 dəfə çoxdur.

Hesabat ilində Azərbaycandan birbaşa xarici investisiyaların ümumi həcmində Çinə reallaşan investisiyaların payı 0,4 faiz təşkil edib.

Çin isə öz növbəsində 2025-ci il ərzində Azərbaycan iqtisadiyyatına 26,895 milyon dollar sərmayə qoyub ki, bu, əvvəlki ildəki göstərici ilə müqayisədə 9,3 milyon dollar və ya 1,5 dəfə çoxdur.

Birbaşa xarici investisiyaların ümumi həcmində Çindən Azərbaycana yatırılan investisiyaların xüsusi çəkisi 0,4 faiz təşkil edib.

2024-cü il ərzində Çindən Azərbaycana birbaşa investisiyaların ümumi həcmi 17,6 milyon dollar, əks istiqamətdə isə 2,8 milyon dollara bərabər olub.

***XQ***

# Xalq artisti Rasim Balayev əbədiyyətə qovuşdu





**Yaratdığı bənzərsiz obrazlarla tamaşaçıların yaddaşına əbədi həkk olunan, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Dövlət mükafatı laureatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli Xalq artisti Rasim Balayevlə martın 30-da Dövlət Akademik Milli Dram Teatrında vida mərasimi keçirilib.**

Vida mərasimində Baş nazir Əli Əsədov, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, tanınmış elm və mədəniyyət xadimləri iştirak ediblər.

Mərhumun cənazəsi Akademik Milli Dram Teatrının matəmsayağı bəzədilən səhnəsində postament üzərinə qoyulub.

Postamentin ətrafına Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, dövlət və hökumət təşkilatları adından əklil düzülüb.

Xalq artisti Rasim Balayevin həmkarları, dostları, tanınmış mədəniyyət və incəsənət xadimləri, mərhumun sənətini sevənlər teatrın binasına gələrək, unudulmaz aktyora son borclarını veriblər.

Vida mərasimində əvvəlcə Rasim Balayevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova mədəniyyət naziri Adil Kərimlinin adından başsağlığı verib.

O, Rasim Balayevin vəfatının Azərbaycan mədəniyyəti və milli kinosu üçün ağır itki olduğunu qeyd edib: "Parlaq siması ilə hər kəsin qəlbində silinməz iz buraxan Rasim Balayevin vəfatı hamımızı dərindən sarsıdıb. O, çəkildiyi filmlərlə Azərbaycan kinosunun nüfuzunu daim uca tutub və



yaradıcılığı 200-ə yaxın filmi əhatə edir. Sənətkarın çoxillik fəaliyyəti daim dövlətin diqqət mərkəzində olub, ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev onun yaradıcılığına xüsusi qayğı göstəriblər. Rasim Balayevin yaradıcılığı gənc aktyorlar üçün bir məktəbdir".

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar bildirib ki, Rasim Balayev Azərbaycan kino sənətinin parlaq ulduzlarından və ən böyük ifaçılarından biri olub. O, sənətkarın canlandırdığı obrazlara əbədi həyat verdiyini qeyd edib və əlavə edib ki, onun insani keyfiyyətləri və bənzərsiz obrazları hər zaman yaddaşlarda yaşayacaq.

Xalq artisti Şəfiqə Məmmədova Rasim Balayevin vəfatının onu dərindən sarsıtdığını diqqətə çatdırıb. "Bu itki Azərbaycan kinosu üçün çox böyük və ağırdır. Sənətkar haqqında keçmiş zamanda danışmaq çətindir, Rasim Balayev şərəfli bir ömür yaşayıb, dostluqda isə son dərəcə sadiq və vəfalı insan olub", – deyə o əlavə edib.

Xalq artisti Oqtay Mirqasımov vurğulayıb ki, onlar bir neçə filmdə birlikdə çalışıblar. "O, doğrudan da böyük aktyor, yaxşı dost idi. Onunla işləmək insana zövq verirdi".

Ailə üzvləri adından çıxış edən Ülvi Balayev atasının sənətinə hər zaman böyük diqqətlə yanaşan ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Xalq artisti Rasim Balayevin cənazəsi teatrın binasından qaldırılaraq Fəxri xiyabana gətirilib. Burada mərhumun ruhuna dualar oxunub. Görkəmli sənətkarın cənazəsi torpağa tapşırılıb. Məzarı üzərinə əklillər, gül dəstələri düzülüb.

Rasim Balayevin sənət irsi və xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

## Rasim Əhməd oğlu Balayev



Azərbaycan mədəni ictimaiyyətinə ağır itki üz vermişdir. Milli kino sənətinin görkəmli nümayəndəsi, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatı laureatı, Xalq artisti Rasim Əhməd oğlu Balayev 2026-cı il martın 29-da ömrünün 78-ci ilində vəfat etmişdir.

Rasim Balayev 1948-ci il avqustun 8-də Ağsu şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1965–1969-cu illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsində təhsil almış, 1969–1972-ci illərdə həmin institutun Tədris Teatrında aktyor kimi fəaliyyət göstərmişdir.

Rasim Balayev 1972-ci ildən etibarən "Azərbaycanfilm" kinostudiyasının aktyoru olmuş, eyni zamanda 1990-cı ildən Azərbaycan Kinematoqrafçılar İttifaqı idarə heyətinin birinci katibi vəzifəsini tutmuş, 2022-ci ildə isə İttifaqın sədri seçilmişdir.

"Azərbaycanfilm" kinostudiyasına gəldiyi ilk vaxtlardan istedadlı aktyor kimi tanınan Rasim Balayev özünəməxsus ifa tərzi və yüksək səhnə mədəniyyəti sayəsində qısa müddət ərzində kino həvəskarlarının qəlbinə yol tapmışdır. Onun ekran həyatı verdiyi, böyük təsir gücünə malik yaddaqalan obrazlar geniş tamaşaçı kütləsi tərəfindən hər zaman rəğbətlə qarşılanmışdır.

Azərbaycan kino sənətinin parlaq ənənələrindən ustalıqla faydalanan sənətkar olaraq Rasim Balayevin keçdiyi yaradıcılıq yolu milli kino mədəniyyəti tarixində xüsusi bir mərhələ təşkil edir. Onun baş rollarda çəkildiyi filmlər Azərbaycan kinosunun qızıl fonduna daxildir. Sənətkarın obrazın mənəvi aləminə dərindən nüfuz etməklə canlandırdığı rəngarəng surətlər kino salnaməmizin unudulmaz səhifələrindəndir. Fitri istedadla yaradılan bu bənzərsiz xarakterlər daim özünəməxsusluğu ilə seçilmiş və diqqət mərkəzində dayanmışdır.

Ustad sənətkar qəhrəmanlıq dolu tarixi keçmişimizin və eləcə də müasirlərimizin obrazlarına ekran həyatı verərkən dövrün mənzərəsini yaratmağa müvəffəq olmuşdur. Xalqımızın milli-mənəvi sərvətlərinin təbliğində və yetişməkdə olan gənc nəslin vətənə sədaqət ruhunda tərbiyə olunmasında Rasim Balayevin oynadığı bütün bu rollar mühüm əhəmiyyət kəsb edir. Sənətkarın ifasında əfsanəvi Babək və Nəsimi obrazları Azərbaycan kinematoqrafiyasının xüsusilə böyük uğurlarından hesab edilir.

Rasim Balayev Azərbaycanın hüdudlarından kənarda da ekranlaşdırılmış filmlərdə yaddaqalan obrazlar yaradaraq bir daha özünün sənətkarlıq məharətini nümayiş etdirmişdir.

Cəmiyyət həyatında baş verən proseslərə dərin vətəndaşlıq duyğusu ilə yanaşan Rasim Balayev həmçinin ictimai xadim kimi tanınırdı. O, milli-mənəvi dəyərlərimizin qorunub yaşadılması üçün qüvvə və bacarığını əsirgəmirdi.

Rasim Balayevin milli kino mədəniyyətinin inkişafı sahəsindəki xidmətləri layiqincə qiymətləndirilmişdir. O, müxtəlif illərdə yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görülmüş, müstəqil Azərbaycanın ali mükafatlarından olan "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri ilə təltif edilmişdir.

Görkəmli sənətkar, qayğıkeş və təvazökar insan Rasim Balayevin işıqlı xatirəsi xalqımızın qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham ƏLİYEV,**
**Mehriban ƏLİYEVA,**
**Əli ƏSƏDOV, Sahibə QAFAROVA,**
**Samir NURİYEV, Eldar ƏZİZOV,**
**Fərəh ƏLİYEVA, Adil KƏRİMLİ,**
**Polad BÜLBÜLOĞLU,**
**Anar RZAYEV, Hacı İSMAYILOV,**
**Şəfiqə MƏMMƏDOVA,**
**Oqtay MİRQASIMOV,**
**Fəxrəddin MANAFOV**

***Vida sözü***

# Milli kinomuzun qazancı və itkisi

**Görkəmli kino aktyoru, bədii filmlərimizdə rəngarəng obrazlar, monumental xarakterlər yaratmış sənətkar, milli kinematoqrafiyamızın inkişafına və zənginləşməsinə dəyərli töhfələr vermiş incəsənət xadimi Rasim Balayevin əbədiyyətə qovuşması Azərbaycan mədəniyyətinin növbəti ağır itkisi kimi xalqımızı dərindən kədərləndirdi. O, sənətdə ölməzliyi çoxdan qazanmışdı. Biz isə kino sənətimizin taleyini həyat amalına çevirmiş bir insanı itirməklə onun verə biləcəyi növbəti töhfələri itirdik.**

Tariximizin şöhrət və öyünc ünvanları olmuş Babəkə, Beyrəyə, Nəsimiyə, Fətəliyə, Cavidə sənət ömrü qazandırmış istedadlı aktyor özü də bu ucalıqda qalmaq üçün onlara bənzəməyə çalışmış, bununla xalqın sevgisini qazanmış, ürəklərdə yuva qurmuşdu. Bu qazanc bizimlə qaldı, bizə daim mənəvi zənginlik gətirəcək.

Martın 30-da sənətsevərlərin qəlbində "canlı əfsanə"yə çevrilmiş Xalq artist, Rasim Balayevi dərin hüznlə son mənzilə – əbədiyyətə yola salanların gur izdihamı, sanki, bir rekvyemə çevrilib deyirdi: "Sən hələ sağlığında sənətdə özünə heykəl qoymuşan. Haqq dünyasında isə obrazlarını yaratdığın dahilərimizlə, qəhrəmanlarımızla bir yerdə olacaqsan. Bu ləyaqət və salahiyyəti sən öz sənətinlə, zəhmətinlə qazanmısan. Ulu Yaradanın dərgahında da mərtəbən uca, ruhun şad olacaq. Bu gün bu hüzn ümmanı ümumi bir duaya dönüb sənə rəhmət diləyir, sevimli sənətkara cənnətməkan olmağı arzulayır".

Milli kinomuzun inkişafında müstəsna xidmətlər göstərmiş Xalq artisti, "İstiqlal" ordenli Rasim Balayev ilk dəfə Bakı kinostudiyasında "Ulduzlar sönmür" filmində kiçik bir rol alıb. Ardınca "Bu şirin söz, azadlıq", "Sənin birinci saatın", "Xoşbəxtlik səhnəsi", "Mən hələ qayıdacağam", "Birisigün gecəyarısı" filmlərində epizodik rolları canlandırıb.

Lakin fitri istedadı, zəhməti, inadkarlığı onu daha geniş üfüqlərə çəkib aparıb. Beləliklə, Rasim Balayev uzaq meridianlara belə səs salan "Babək", "Nəsimi", "Dədə Qorqud" kimi filmlərdə baş rollara çəkilib. Görkəmli sənətkar "Özbəkfilm", "Mosfilm" və başqa studiyaların da diqqətini çəkib, ona dünya kinosuna layiq rolları canlandırmağı həvalə ediblər.

Rasim müəllim gözəl ailə başçısı, səmimi dost, yaradıcı kollektivdə həssas və qayğıkeş rəhbər idi. O, hər kəslə öz dilində danışmağı bacarırdı. Əməkdaşları dinləməyi, istəklərini qədərincə cavablandırmağı həyat tərzinə çevirmişdi. Həyatda və yaradıcılıqda son dərcə ciddi olan Rasim Balayev ünsiyyətdə yumoru, zarafatı, isti münasibəti üstün tuturdu, insanlara ürəyindəkiləri dilə gətirməyə imkan verirdi. Yubileylərdə, bayramlarda düzənlənən məclislər doğmalıq ocağına dönürdü. Bütün bunlar unudulmaz, xoş xatirələrə çevrilib.



**Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi, Xalq artisti Şəfiqə xanım Məmmədova:**

– Rasim İstanbula müayinəyə getmişdi. Tez-tez xəbər tuturduq. Onun sağ-salamat qayıtmağını gözləyirdik. Elə bil, yuxu görürük. İllərin dostu idik, eyni filmlərə çəkilmişdik. Sədaqətli, əxlaqi dəyərləri hər şeydən üstün tutan insan idi. Belə adamlar əsrdə bir dəfə doğulur, ya doğulmur. Kinomuza ağır itki oldu. Heyif səndən, Rasim, yerin behişt olsun!

**Azərbaycan Kinematoqrafçılar İttifaqının icraçı katibi Əli İsa Cabbarov:**

– Rasim müəllim əsl dost, saf ürəkli, bacarıqlı rəhbər idi. O, bizə inanır, hamını ətrafında toplaya bilirdi. Biz də həmişə onun başını uca etməyə çalışırdıq. Qayğılarımızla, çətinliklərimizlə maraqlanırdı. Kinematoqrafçılar İttifaqının fəaliyyətini canlandırmağa çalışırdı. Yaşlı kino xadimlərinin hər diləyinə əlac edirdi.

Azərbaycan kinosunun gələcəyi də onu dərindən düşündürürdü. Yaxşı ideyaları var idi, əcəl imkan vermədi. Allah rəhmət eləsin, qəbri nurla dolsun!

Doğrudan da, Rasim müəllim gecə-gündüz kinomuzun taleyi ilə maraqlanır, gerilikdən çıxış yolları axtarırdı. C.Cabbarlı adına Kinostudiyanın dirçəldilməsi, yeni nəsil rejissorların yetişdirilməsi, ssenarist hazırlığı və digər məsələlər onu ciddi narahat edirdi. Bütün bunların gerçəkləşdirilməsi onun xarirəsinə töhfə olardı.

Milli kinomuzun Rasim Balayev əfsanəsi əbədiyyətə yön almaqla ölməzliyə qovuşdu.

**Allah rəhmət eləsin!**

***Akif CABBARLI,***
***Azərbaycan Kinematoqrafçılar İttifaqının redaktoru***

# Tanrı, yaxşıları qoru



**Sən adilsən, Yaradansan. İstədiyini istədiyin qədər yaradarsan. Sən biz olmazsan, biz Sən ola bilmərik. İstəyəndə Səni özündə təcəlli edənləri yaratmaqla lütf edirsən bizlərə. Barı onları bizə çox görmə. Deyirlər, yaxşıları aparırsan dərgahına. Niyə? Nəyinə gərəkdir bu qədər yaxşı? Axı, Sən onları alanda biz yaxşısız qalırıq, cılızlaşıb-cırlaşırıq, yoxsullaşıb, yetimləşirik. Pislərin çoxluğundan dünya kirlənir, pisləşir, harınlaşır, xəbisləşir. Yaxşıları aparanda göz dağını bizə verirsən, meydanı da üç yüz illik qarğalara.**

Necə xitab etməli Sənə? Tanrımmı, Allahımmı, Yaradanımmı? Kainatın məhvərini fırladanmı? Hər kəsi məsum, günahsız gətirirsən bu dünyaya. Amma çox azları günaha bulaşmadan ömür sürə bilir bu dünyada. Ömür deyə onlara ayırdığın zaman kəsiyini biri yelə verir, biri selə, biri zəlzələdən gedir, biri vəlvələdən.

Sənə qarşı gəlmək asilikdir, əstəğfürüllah, ağıl vermək dəlilikdir. Bir yolu var Səninlə mükalimənin. Göylərə məhəbbətlə uzanan əllərlə, dilimizdəki dualarla Sənin mərhəmətinə bel bağlamaq, şükür etmək.

Yenə aldın yaxşımızı. Dədə Qorquddan bu günə qədər tariximizi cəmi 77 yaşına sığdıran, qollarını kəsdirən, dərisini soyduran, varlığıyla milyonların könlündə taxt quran, güldürən, düşündürən Rasimimizi apardın yanına. Bu nahaq dünyada qalmasına qıymadınmı, götürdün haqq dünyasına? Bəs onun nuruyla işıqlanan, olmasıyla qürurlanan bizləri niyə onsuz qoydun?

Bəzən yaratdıqlarına gərəyindən çox bel bağlayırıq. Ətdən-qandan yoğrulduğunu unudur, Səndən umduğumuzu ondan istəyirik. Ona güvəndiyimizdən özümüzün etmədiyimizi, edə bilmədiyimizi ondan umur, olmayanda qəzəblə damğalayırıq idealımızı.

Sadəydi, əlçatandı Rasim. Amma Nəsimi, Babək, Beyrək deyildi, bizlərdən biriydi bu fani həyatda. Göydən ulduz qoparmazdı. İstedadı tükənməz, səmimiyyəti təbii idi. Bir vücudda 170-dən çox adamı tanıtdı bizə. Bizsə "Sən özün niyə onlar deyilsən" deyə üzünə durduq bəzən. Bu mümkün deyil axı. Sənətdə gözəl ifa olunmuş rollar bəzən sahibinə şan-şöhrət yerinə bədbəxtlik gətirir. Azərbaycan kino sənətinin unudulmaz simalarından biri İsmayıl Osmanlı çox dəyərli yaradıcılıq nümunələri yaratsa da, "Yeddi oğul istərəm" filmində məharətlə ifa etdiyi Kələntər rolu ilə yaddaşlarda gənc qatili kimi iz buraxmışdı.

Rasim Balayevin ölüm xəbərindən çox sarsıldım. Ən yaxınımı, doğmamı itirmiş kimi oldum. Halbuki real həyatda bir dəfə də olsa görüşməmişdik. Dəyərli sənətkarımız Alim Qasımovla ekspromt duetinə hamı kimi mən də yüzlərlə dəfə baxmışam, "Ötən günlər"dəki benefisi az qala əzbərimdədir.

Azərbaycan kinosunun "Rasim Balayev" adlı ən sanballı fəsli sona çatdı. Əfsus, min əfsus ki, Azərbaycan kinosunun özü də ixtiyarlaşıb, qoltuqlarının əlil ağacı, gözlərindəki qalın şüşəli eynək sındı sınacaq, düşdü düşəcək. Dirçəlməsi üçün çox böyük loğmana ehtiyacı var.

İlahi! Dərgahına gələn Rasimin günahlarını əfv et, yerini cənnətməkan. Nə qədər yaxşı olsa da, o, bizlərdən biriydi. Bizlərsə günahlardan xali deyilik. Rəhmətini əsirgəmə!

***Cəfər SADIQ***

**Moskva**

**Son 200 ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr və soyqırımları, müsibətlərlə dolu səhifələr də yazılıb. Bu dəhşətli hadisələrdən biri 1918-ci ilin mart-aprel aylarında yaşanmışdı. Sovet hakimiyyəti dövründə 70 il xalqın qan yaddaşını silməyə aramsız cəhdlər göstərilsə də, bu, mümkün olmadı və nəhayət, həqiqət anı yetişdi.**

# Qarabağ Zəfəri Azərbaycana qarşı soyqırımı siyasətinə son qoydu



Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. İndi uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılır. Ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən erməni cəlladları uşaq, qoca, qadın demədən dinc əhalini kütləvi surətdə qətlə yetirdilər. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və mədəni abidələri dağıtdılar. Bakının böyük bir hissəsini xarabalığa çevirdilər.

Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirildi. Britaniya briqada generalı R.Qortonun Londona göndərdiyi 1918-ci il 8 dekabr tarixli sənəddə 20 min, Fövqəladə İstintaq Komissiyasının sənədlərində 30 min, Azərbaycan Respublikası Milli Məclisinin nəşr etdiyi kitabda isə 50 mindən çox müsəlmanın soyqırımına məruz qaldığı göstərilir. Yəqin ki, bu da son rəqəmlər deyil.

Erməni daşnakların və bolşeviklərin soyqırımı törətməkdə başlıca məqsədi Azərbaycanın muxtariyyətinin və müstəqilliyinin elan edilməsinə yol verməmək, Bakı neftinə, Xəzər dənizinə yiyələnmək, Orta Asiyaya gedən yola nəzarət etmək, Cənubi Qafqazı əldən buraxmamaq idi. Lakin onlar istəklərinə nail ola, Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Bu hadisələr Azərbaycan xalqının müstəqilliyinin elan edilməsini ləngitsə də, istiqlal mübarizəsini dayandıra bilmədi.

Mayın 28-də Azərbaycan xalqı bütün müsəlman Şərqində ilk dəfə olaraq respublika idarə üsulunu qurdu. Respublika məfkurəsini müsəlman Şərqinə məhz Azərbaycan xalqı gətirdi, müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmaq yolunu, nümunəsini göstərdi, onların yoluna çıraq tutdu. Bakı sentyabrın 15-də azad edildi. Azərbaycan hökuməti tarixi şəhərimiz olan Bakıya köçdü. Azərbaycan nefti yadelli qüvvələrin əlindən alındı. Azərbaycan xalqı taleyinin və torpağının sahibi oldu.

Cümhuriyyət hökuməti bu hadisələrin təhqiqi məqsədilə 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiyada çalışanlar əsasən ruslar, yəhudilər və digər millətlərin nümayəndələri Mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı və vəsait ayrıldı.

31 Mart tarixi iki dəfə – 1919 və 1920-ci illərdə Cümhuriyyət hökuməti tərəfindən ümummilli matəm günü kimi qeyd edildi. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Cümhuriyyətin süqutu bu işin başa çatdırılmasına imkan vermədi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

Cümhuriyyət hökuməti soyqırımı qurbanlarının dəfn edildiyi Çəmbərəkənd qəbiristanlığında onların xatirəsinə abidə qoymağı planlaşdırsa da, bolşevik işğalı bu niyyətin gerçəkləşdirilməsinə mane olmuşdu. Ulu öndər Heydər Əliyev Bakı şəhərində Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksinin ucaldılması haqqında 1998-ci il avqustun 5-də Sərəncam verdi, həmin il oktyabrın 9-da kompleksin açılışı oldu. 2007-ci ildə Prezident İlham Əliyevin Sərəncamına əsasən Şəhidlər xiyabanı yenidən qurularkən "Əbədi məşəl" abidəsinin sütunları hündürləşdirildi və digər işlər görüldü.

Rus imperiyasına güvənən erməni şovinizmi 74 il sonra yenidən öz xislətini təkrarladı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində ermənilərin zaman-zaman törətdikləri qanlı qırğınların davamı olan daha bir dəhşətli soyqırımı baş verdi. Hücum zamanı şəhərdəki 3 min nəfərdən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürüldü, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralandı, 1275 nəfər girov götürüldü və insanı alçaldan işgəncələrə məruz qaldı. Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır.

Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işində xüsusi mərhələ təşkil edir. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılır, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olur.

Xocalı faciəsini soyqırımı kimi tanıyan dövlətlərin, beynəlxalq təşkilatların sayı getdikcə artır. Azərbaycanlılara qarşı törədilmiş soyqırımları haqqında tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük işlər Prezident İlham Əliyevin "hücum diplomatiyası" xəttini elan etməsindən sonra görüldü. Soyqırımı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Heydər Əliyev Fondunun fəaliyyəti müstəsna əhəmiyyət daşıyır.

Müasir gəncliyin əsas vəzifəsi güclü dövlət naminə obyektiv tariximizə etinasızlıq göstərməmək, tariximizi dəqiq öyrənmək və qonşularımızın kimlər olduğunu heç vaxt yaddan çıxarmamaqdır. Bu qiymətli tarixi sənədlər erməni xəyanətini, onların insanlığa, bəşəri dəyərlərə qarşı çevrilmiş eybəcərliklərini bütün dünya qarşısında ifşa etməyə imkan yaratmışdır. Beləliklə, azərbaycanlılara qarşı genosidin tarixi mərhələlərini təhlil edərkən XX əsrdə Azərbaycan xalqının məruz qaldığı soyqırımı siyasəti bizə yaşadığımız acı tarixdən ibrət alaraq, hadisələrə tarixi, siyasi və hüquqi qiymət verilməsi üçün mübarizə aparmaq və gələcəyi bu gündən düşünməyə vadar edir.

Vətən müharibəsinin taleyini müəyyənləşdirən başda Ali Baş Komandanımız olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdı.

Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Prezident İlham Əliyev bu barədə bildirib: "Azərbaycan 44 gündə yazdığı tarixlə haqqı-ədaləti, beynəlxalq hüququ bərpa etdi, işğala son qoydu, "Dağlıq Qarabağ münaqişəsi" ifadəsi artıq yoxdur". Prezident İlham Əliyevin liderliyi ilə 44 günlük müddətdə Azərbaycan dillərə dastan olan bir qələbəyə imza atdı.



Aylar, illər ötəcək, bu müharibə dillərdən düşməyəcək. Kitablar, dərsliklər yazılacaq, bu müharibədə iştirak etmiş hər bir azərbaycanlı qəhrəman olaraq anılacaq. Azərbaycanın hərbi-siyasi tarixinin növbəti şanlı səhifəsi yazıldı. Tarixi bir missiya başa çatdı və Qarabağ problemi beynəlxalq hüququn tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edildi. Bizə bu Qələbəni yaşadan Müzəffər Ali Baş Komandanımıza, rəşadətli Azərbaycan Ordusuna, Vətən torpaqları uğrunda canlarından keçən igid oğullarımıza minnətdarıq. Azərbaycan bir daha həm ön cəbhədə, həm də informasiya müharibəsində apardığı cəsur mübarizəsi ilə birliyinin sarsılmaz və əbədi olduğunu sübut etdi.

Azərbaycan xalqı və hökuməti hər zaman soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edir, dünya ictimaiyyətini bu tarixi hadisələrdən dərs almağa, erməni faşizminin əsl mahiyyətini ifşa etməyə çağırır.

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı***

*Təbiət idraka çağırır bizi*



# Bir də belə yağma, yağış!

## *Ötən günlərdə Bakı yenə "göl şəhər"ə çevrildi*

### Axarlar niyə axmaz olur?

**Son günlər Bakıda müşahidə olunan fasiləsiz yağışlar paytaxtın uzun illərdir həllini gözləyən ən ağrılı problemlərindən birini – kanalizasiya və yağış sularının idarə olunması sistemindəki çətinlikləri yenidən gündəmə gətirdi. Yağan leysan nəticəsində şəhərin müxtəlif ərazilərində, xüsusilə də kənar qəsəbələrdə geniş gölməçələr yarandı, küçə və prospektlərdə nəqliyyat iflic vəziyyətə düşdü, binaların zirzəmilərini su basdı, piyadalar üçün hərəkət təhlükəli hala gəldi.**

Bu mənzərə cəmiyyətin yaddaşında artıq "adi hadisə" kimi formalaşır. Çünki Bakı hər güclü yağışdan sonra eyni çətinliklərlə üzləşir. Bu isə əhalidə haqlı suallar doğurur: bu istiqamətdə çox sayda Dövlət proqramları qəbul olunduğu halda, paytaxtda kanalizasiya problemi niyə aradan qaldırılmır? Layihələr niyə ya gecikir, ya da yarımçıq saxlanılır? Ən əsası isə dünyanın böyük şəhərlərində bu problem necə həll edilir?

Müstəqillik dövründə su təchizatı və kanalizasiya sistemlərinin yenilənməsi istiqamətində mühüm Dövlət proqramları həyata keçirilib. Regionlarda kanalizasiya xətləri çəkilib, təmizləyici qurğular inşa edilib, şəhərlərin su infrastrukturu müasir tələblərə uyğunlaşdırılıb. Ümumilikdə, rayonların 70-80 faizi kanalizasiya sistemi ilə təmin olunub.

Bakıda isə bu məsələ tamamilə fərqliliyi ilə diqqət çəkir. Əvvəla, burada əhali sıxlığı çox yüksəkdir, ikincisi, köhnə kommunikasiyalar torpaq altında, necə deyərlər, bir-birinə qarışıb, yeni tikililər plansız şəkildə artıb. Nəhayət, yağış suyu və kanalizasiya sistemləri bir çox hallarda bir-birinə inteqrasiya olunmayıb, mövcud xətlər köhnə normativlər əsasında tikilib və bugünkü yükü daşımır. Bu səbəbdən paytaxtın kanalizasiya problemi, sadəcə, "boru dəyişmək" məsələsi deyil. Bu, bütöv bir şəhər infrastrukturunun yenidən qurulması deməkdir.

Yeri gəlmişkən, bu il yanvarın 12-də Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı ölkə rəhbərinə təqdim edilib. Təqdimat mərasimində Bakı buxtasının, ümumilikdə, Abşeron yarımadasının su və kanalizasiya problemlərinin həlli üçün böyük layihənin hazırlandığı bildirilib. Eyni zamanda, ümumi konsepsiyanın və master planın olduğu, onun detalları üzərində iş aparıldığı qeyd edilib. Bütün bunlar müsbət addım sayılsa da, ictimaiyyət üçün əsas sual dəyişməz qalıb: sözügedən planın icra mexanizmi hansı formada nəzərdə tutulub?

Sual təsadüfi xarakter daşımır, çünki Azərbaycanda bir çox strateji layihələr çox vaxt kağız üzərində qalsa da, icra mərhələsində bürokratiya, maliyyə fasilələri və idarəetmə uyğunsuzluğu səbəbindən ya uzanır, ya da tam nəticə vermir. Mütəxəssislərin vurğuladığı əsas məsələ də, Bakının kanalizasiya sistemindəki böhranın daha çox layihələrin yarımçıq qalması ilə bağlıdır. Yəni layihə hazırlanır, razılaşdırılır, vəsaitin bir hissəsi ayrılır, ilkin mərhələdə planlaşdırılan işlər görülür, lakin sonra maliyyələşmə azalır və proses dayanır. Nəticədə sistem yenilənmir, mövcud problemlər isə daha da ağırlaşır. Ən təhlükəlisi isə budur ki, yarımçıq işlər həm resurs israfına səbəb olur, həm də gələcək layihələrin daha da bahalaşmasına gətirib çıxarır. Çünki tamamlanmamış obyekt zamanla sıradan çıxır, yenidən təmir tələb edir.

Bakının mühüm problemlərindən biri də yağış suları ilə kanalizasiya sularının bir çox ərazilərdə eyni sistemdə toplanmasıdır. Bu, texniki cəhətdən ciddi təhlükə doğurur. Çünki kanalizasiya suyu bioloji və kimyəvi çirkləndiricilərlə doludur və mütləq təmizləyici qurğudan keçməlidir, yağış suyu isə nisbətən təmiz olur və duruldulma prosesindən sonra təkrar istifadə edilə bilər. Bu iki su qarışdırıldıqda isə təmizləyici qurğularda bioloji proseslər pozulur, təmizlənmənin səmərəsi azalır, çirkli su tam təmizlənmədən dənizə axıdılır və nəticədə ekoloji fəsadlar yaranır. Bu səbəbdən də inkişaf etmiş ölkələrdə kanalizasiya və yağış suları üçün ayrı xətlər, başqa sözlə, ayrı kollektorlar tətbiq olunur.

### Ümid böyük kollektorlara qalıb

Dövlət Proqramına uyğun olaraq 2025-ci ilin ortalarından başlayaraq Bakıda, eləcə də ətraf ərazilərdə iri kollektorların tikintisinə başlanılıb və inşaat işlərinin Bilgəh–Nardaran–Pirşağı, Əl Oyunları Sarayı – Nobel prospekti – Zığ təmizləyici qurğu istiqamətlərində aparılması planlaşdırılıb. Bundan başqa, Dərnəgül – Bakıxanov – Zığ, Ceyranbatan – Müşfiq kollektor xətlərinin tikintisinin reallaşdırılması da qarşıya mühüm vəzifə kimi qoyulub.

Eyni zamanda, Müşfiq qəsəbəsində 150 min kubmetr həcmində təmizləyici qurğunun inşası planlaşdırılır, hazırda onun 75 min kubmetrlik hissəsi tikilir. Lökbatanda isə sutkada 100 min kubmetr həcmində təmizləyici qurğu tikilir və gələcəkdə 300 min kubmetrə qədər artırılması nəzərdə tutulur. Layihələrin ümumi dəyərinin 900 milyon manat olduğu bildirilir. 2025-ci ildə bu işlər üçün 300 milyon manat ayrılıb və növbəti illərdə də ciddi vəsaitlərin ayrılacağı gözlənilir.

Lakin problem ondadır ki, bu məbləğin əsas hissəsi kanalizasiya sularının ötürülməsinə yönəldilib, yağış suyu kollektorları üzrə ayrıca investisiya proqramlarının olmaması isə qeyd olunur. Bu, bir tərəfdən texniki baxımdan əsaslandırıla bilər – kanalizasiya sistemi sanitariya təhlükəsizliyi üçün prioritetdir. Amma digər tərəfdən təhlükəlidir, çünki Bakının ən kəskin və sosial narazılıq yaradan problemi məhz yağış sularıdır.

Mütəxəssislər bildirirlər ki, 1980-ci illərin ortalarından etibarən Bakının kanalizasiya sisteminə ciddi investisiya qoyulmayıb. 1985-ci ildən sonra isə investisiyalar rəmzi xarakter daşıyıb və daha çox içməli su problemini həll etməyə yönəldilib. Oğuz–Qəbələ xətti, Kürdən gələn yeni xətt, Samur – Abşeron kanalının genişləndirilməsi, Taxtakörpü Su Anbarı kimi layihələr Abşeronun içməli suya tələbatını ödəmək məqsədi daşıyıb. Bu layihələr mühüm önəm daşısa da, paralel olaraq kanalizasiya və yağış suyu infrastrukturu yenilənmədiyindən sistem tədricən sıradan çıxıb.

Bəs, paytaxt ətrafı qəsəbələr niyə daha çox su altında qalır? Son yağışlar zamanı ən böyük problemlər də məhz Bakı və ətraf qəsəbələrdə müşahidə edildi. Bunun iki əsas səbəbi var. Birincisi, həmin yaşayış məntəqələrinin bir qismi keçmişdə göl və bataqlıq sahələri olub. Zamanla bu ərazilər torpaq tökülərək qurudulub və yaşayış üçün istifadəyə verilib. Lakin geoloji struktur dəyişmədiyindən intensiv yağış zamanı su yenidən həmin ərazilərdə toplanıb. İkincisi, bir çox qəsəbələrdə kanalizasiya sistemi yaradılmayıb. Sürətli urbanizasiya nəticəsində fərdi evlər tikilib, lakin infrastruktur nəzərə alınmayıb. Bu da o deməkdir ki, yağış suyu gedəcək yol tapmır və yaşayış məntəqələri qısa müddətdə subasmalara məruz qalır.

Mütəxəssislərin fikrincə, bütün bu faktlar onu göstərir ki, Bakının kanalizasiya probleminin həlli mümkündür, lakin bunun üçün bir neçə şərt mütləq yerinə yetirilməlidir. Əvvəla, layihələr yarımçıq saxlanılmamalı, maliyyələşmə davamlı olmalıdır. Kanalizasiya infrastrukturu uzunmüddətli prosesdir və burada "bir il ayırdıq, iki il gözlədik" yanaşması işləmir. İkincisi, yağış suları üçün ayrıca sistem qurulmalıdır. Kanalizasiya və yağış sularının qarışdırılması həm ekoloji risk yaradır, həm də texniki olaraq təmizləmə sistemlərini sıradan çıxarır. Üçüncüsü, Bakı ətrafı qəsəbələrdə infrastruktursuz yaşayış massivləri ilə bağlı ciddi planlaşdırma aparılmalıdır. Qəsəbə və kəndlərdə kanalizasiya şəbəkəsi qurulmadan yeni tikintilərə icazə verilməsi problemin daha da böyüməsinə səbəb olur. Nəhayət, yağış sularının təkrar istifadəsi mexanizmləri qurulmalıdır. İnkişaf etmiş ölkələrdə olduğu kimi, bu sular parkların, yaşıllıqların suvarılmasına yönəldilə bilər. Bu, həm su ehtiyatlarını qoruyar, həm də şəhərdə ekoloji balansı gücləndirər.

### Yağış yenə yağacaq, biz isə...

Son günlər yağan leysan bir daha sübut etdi ki, Bakının kanalizasiya sistemi sadəcə kommunal problem deyil. Bu məsələ şəhərin təhlükəsizliyi, əhalinin sağlamlığı, ekoloji tarazlıq və iqtisadi fəaliyyət üçün ciddi təhlükə amilidir. Başqa sözlə, küçələrin su altında qalması təkcə nəqliyyatın dayanması anlamına gəlmir. Bu, həm də binaların təməl konstruksiyalarının zədələnməsi, yol örtüyünün sıradan çıxması, sanitar-gigiyenik risklərin artması, çirkab suların ətrafa yayılması və nəticədə xəstəlik risklərinin yüksəlməsi deməkdir.

Bakının inkişaf edən metropol olması üçün kanalizasiya və yağış sularının idarə edilməsi sisteminin müasir standartlara uyğun qurulması zəruridir. Bu istiqamətdə görülən işlər ümidverici görünsə də, nəticənin isə yalnız bir halda – layihələr ardıcıl və şəffaf şəkildə icra olunduğu təqdirdə mümkündür. Əgər maliyyə davamlı şəkildə ayrılarsa, mütəxəssis potensialı səfərbər edilərsə və şəhərsalma qaydaları ciddi tətbiq olunarsa, Bakı "hər yağışda gölə dönən şəhər" obrazından xilas ola bilər. Əks halda isə hər leysan yeni su basmaları, yeni narazılıqlar və yeni suallar doğurmaqda davam edəcək.

***V.BİNYATOĞLU***
***XQ***

# “Dəmir yumruğ”un baş məşqi

## *Aprel döyüşlərində qələbə Qarabağ Zəfərinin qaranquşu idi*

**Bu gün çağdaş tariximizin ən şərəfli və qürurverici səhifələrindən sayılan qəhrəmanlıq dastanının 10-cu ildönümünü qeyd edirik. 2016-cı il aprel ayının 1-dən 5-dək davam edən toqquşmalar hərb salnaməmizə qızıl hərflərlə əbədi həkk olunub. Hadisələrin inkişaf dinamikası təsdiqlədi ki, tətbiq edilən asimmetrik hərbi strategiya düşmənin müdafiə xəttini darmadağın etməklə yanaşı, eyni zamanda, erməni cəmiyyətində kök salmış “məğlubedilməzlik” mifini tarixin zibilliyinə atdı. Rəşadətli ordumuzun qazandığı uğurlar həm diplomatik masada, həm də döyüş meydanında yaranmış durğunluğu birdəfəlik məhv etdi.**



***ARAYIŞ:** Azərbaycan Müdafiə Nazirliyi tərəfindən açıqlanan rəsmi məlumatlara əsasən, 2016-cı ilin Aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələri ciddi itkilərə məruz qalıb. Döyüşlər nəticəsində 300-dən artıq erməni hərbçi məhv edilib, 500-dən çoxu isə yaralanıb. Eyni zamanda, düşmənin xeyli sayda hərbi texnikası sıradan çıxarılıb. Məlumata görə, 30-dan çox tank və digər zirehli texnika, 25-dən artıq artilleriya qurğusu, o cümlədən 6 ədəd “D-30” haubitsası və 1 ədəd “BM-21 Qrad” yaylım atəş sistemi məhv edilib. Bundan əlavə, müxtəlif sayda minaatanlar, hərbi avtomobillər və mühəndis-istehkam vasitələri sıradan çıxarılıb.*

Geosiyasi konyunkturanı araşdıran mütəxəssislər yaxşı bilirlər ki, qeyd olunan dövrədək mövcud siyasi mənzərə fərqli idi. 90-cı illərin əvvəllərində beynəlxalq hüququn təməl prinsiplərini kobudcasına tapdalayan, qonşu dövlətin suveren ərazilərinə qarşı hərbi təcavüz həyata keçirən işğalçı rejim cəzasızlıq mühitindən arxayınlaşmışdı. Dünya dövlətlərinin, beynəlxalq qurumların qətiyyətsizliyi, nümayiş etdirilən ikili standartlar təcavüzkar qüvvələri daha da azğınlaşdırırdı. Danışıqlar masasında nümayiş etdirilən destruktiv mövqe, paralel olaraq cəbhə xəttində törədilən ardıcıl təxribatlar düşmənin sülh istəmədiyini açıq formada isbatlayırdı. Lakin dövlətimiz qeyd edilən illər ərzində vaxtını əbəs yerə sərf etmirdi. Ölkə daxilində nəhəng iqtisadi layihələr icra edilir, ordu quruculuğuna milyonlarla vəsait ayrılırdı. Müasir silahların alınması, peşəkar hərbi kadrların NATO standartlarına uyğun hazırlanması istiqamətində misilsiz işlər görülürdü. Bütün sadalanan mürəkkəb strateji addımlar yeganə ali məqsədə xidmət edirdi: işğal altındakı torpaqların şərtsiz, qəti şəkildə azad edilməsi.

*

2016-cı ilin yaz aylarında düşmən tərəfinin daxili siyasi xaosdan diqqəti yayındırmaq, korrupsiya bataqlığında boğulan rejimi xilas etmək niyyəti növbəti hərbi cinayətlərin törədilməsinə rəvac verdi. Digər tərəfdən, qəhrəman ordumuzun cəbhə xəttində qurduğu üstün mövqelər Ermənistan rəhbərliyini daim təşviş içərisində saxlayırdı. Aprelin əvvəllərində Füzuli, Ağdam, Tərtər istiqamətlərində dinc əhalinin sıx məskunlaşdığı kəndlər ağır artilleriya atəşinə məruz qaldı. Xain düşmən yenə ənənəvi taktikasını tətbiq edərək məktəbləri, xəstəxanaları, mülki vətəndaşların yaşadıqları evləri hədəf seçirdi. Vətəndaşların təhlükəsizliyini təmin etmək, düşmən qüvvələrinə sarsıdıcı zərbə endirərək atəş nöqtələrini susdurmaq zərurəti yarandı. Ali Baş Komandanın qəti tapşırığı əsasında ordu bölmələrimiz ildırımsürətli əks-hücum əməliyyatına başladılar. Taktiki cəhətdən olduqca mürəkkəb coğrafi relyefdə həyata keçirilən xüsusi əməliyyat 4 gün ərzində işğalçının illərlə formalaşdırdığı "keçilməz sədd" mifini darmadağın etdi. Yüksək dəqiqliyə malik silah sistemlərinin tətbiqi, xüsusi təyinatlı dəstələrin şücaəti sayəsində işğalçılar nəyə uğradıqlarını anlaya bilmədilər. Düşmən cəbhəsində yaranmış xaos, komandanlıqla əlaqələrin kəsilməsi, fərariliyin kütləvi xarakter alması qarşı tərəfin daxildən necə çürüdüyünü nümayiş etdirirdi. Cəbhənin şimal və cənub istiqamətlərində qazanılan taktiki qələbələr strateji üstünlüyə çevrildi. Cənub cəbhəsində, Füzuli rayonu istiqamətində yerləşən Lələtəpə yüksəkliyi hərbi baxımdan müstəsna əhəmiyyət daşıyırdı. Həmin coğrafi mövqe uzun illər boyunca işğalçı qüvvələrə Arazboyu əraziləri, xüsusən Horadiz şəhərini daim təhlükə altında saxlamaq imkanı verirdi. Təcavüzkar tərəf Lələtəpədən istifadə edərək mülki infrastrukturu mütəmadi olaraq artilleriya atəşinə tutur, dinc insanların həyatını kabusa çevirirdi. Qəhrəman xüsusi təyinatlılarımızın həyata keçirdiyi əməliyyat nəticəsində həmin strateji yüksəklik ələ keçirildi. Düşmənin canlı qüvvəsi, eyni zamanda, ağır texnikası ərazidə tamamilə məhv edildi. Cəbhənin şimal istiqamətində, Tərtər rayonunun Talış kəndi ətrafında yerləşən dominant yüksəkliklər də azad edildi. Talış dağlarının nəzarətə götürülməsi Naftalan, Goranboy, eyni zamanda, Tərtər rayonlarının təhlükəsizliyinin təmin olunması baxımından həyati önəm kəsb edirdi. Düşmənin komanda idarəetmə məntəqələri, raket sistemləri böyük məharətlə darmadağın edildi. Uğurlu gedişat göstərdi ki, ordumuz tamamilə yeni müharibə strategiyasına, yüksək innovativ idarəetmə üsullarına yiyələnib. Artilleriya birləşmələri ilə hava kəşfiyyatının sinxron fəaliyyəti, kəşfiyyat-zərbə dronlarının fəal tətbiqi müasir hərb sənətində nadir rast gəlinən dəqiqlik nümayiş etdirdi.



Hadisələrin cəmiyyətdə yaratdığı rezonansa xüsusi diqqət ayırmaq zəruridir. Şəhərlərdə, kəndlərdə minlərlə gənc könüllü şəkildə hərbi komissarlıqlara axışır, cəbhəyə getmək istədiklərini bəyan edirdilər. Dövlət, ordu, vətəndaş həmrəyliyi ən yüksək zirvəyə çatmışdı. İnsanlarımız gecə-gündüz televiziya ekranları qarşısında zəfər sədalarını gözləyirdilər. Cəmiyyətdə qətiyyən qorxu, təşviş əlaməti yox idi. Əksinə, yaranmış coşqu, milli qürur hissi qəlblərə hakim kəsilmişdi. Xalq sübut etdi ki, ötən illər ərzində işğal faktı ilə əsla barışmayıb, doğma torpaqların nisgili həmişə ürəklərdə daşınıb. Uzaqdan gələn top səsləri işğaldan qurtuluşun müjdəsi idi. Tarixi təcrübə isbatlayır ki, arxasında yenilməz xalq iradəsi dayanan ordu istənilən düşməni diz çökdürməyə qadirdir.

Torpaqların işğaldan azad olunmasına gedən yolda Lələtəpə, eləcə də Talış ətrafındakı uğurlar mühüm qayıdışın başlanğıcı hesab edilir. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi bu qayıdışın canlı simvoluna çevrildi. Strateji yüksəkliklərin işğalçılardan təmizlənməsi sözügedən kənddə insanların təhlükəsiz yaşamasını tam təmin etdi. Qısa müddət ərzində dövlət tərəfindən həyata keçirilən bərpa-quruculuq işləri Böyük Qayıdış fəlsəfəsinin reallaşmış pilot layihəsi idi. Bütün dünya gördü ki, Azərbaycan xalqı viran qalmış əraziləri qısa zamanda cənnətə çevirməyə, qurub-yaratmağa tam qadirdir. Cocuq Mərcanlıya dönən hər sakin, əslində, gələcəkdə Şuşaya, Laçına, Kəlbəcərə, Ağdama qayıdacaq insanların elçisi idi.

*

Əldə edilmiş nailiyyətlərin siyasi mənasını ən mükəmməl şəkildə izah edən vacib məqam dövlət başçısının həmin hadisələrə verdiyi yüksək qiymətdir. Prezident İlham Əliyevin müvafiq məsələ barədə dediklərindən qısa sitat gətirmək kifayətdir: “Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir”. Aydın görünür ki, cəbhə xəttində düşmənə vurulan ağır zərbə yalnız taktiki gediş hesab edilmir, bütövlükdə dövlət mexanizminin, ictimai şüurun, hərbi potensialın sıx vəhdətinin nümayişi kimi dəyərləndirilir. Sözügedən tarixi zəfər, eyni zamanda, beynəlxalq müstəvidə yaranmış psixoloji bariyerlərin tamamilə aradan qalxması demək idi. İllər boyu ədalətsizliyin hökm sürdüyü diplomatik koridorlarda Azərbaycanın haqlı mövqeyi artıq dəstəklənirdi.

Aprel zəfərinin onuncu ildönümünün qeyd edilməsi müasir dünyada dövlətimizin artan nüfuzunu, qlobal çəkisini göstərir. Arxaya baxarkən, bu gün qürurla deyirik: yürüdülən uzaqgörən dövlət siyasəti, diplomatik həmlələr, iqtisadi müstəqillik qüsursuz nəticələrə səbəb oldu. 44 günlük Vətən müharibəsindən sonrakı 24 saatlıq antiterror əməliyyatları ilə tam bərpa edilmiş dövlət suverenliyimiz məhz 2016-cı ilin yazında atılmış cəsarətli addımların davamı oldu. Biz indi bütöv, vahid dövlət kimi inkişaf edir, regionda sülhün, sabitliyin mütləq qarantına çevrilmişik. İşğalçı, revanşist ideologiya daşıyıcıları dərk etməlidirlər ki, hər hansı hərbi təxribat “dəmir yumruğ”un növbəti sarsıdıcı zərbəsi ilə nəticələnəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

## 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür

**Dünən 31 Mart Azərbaycanlıların Soyqırımı Günü idi. Bu günlə bağlı indiyədək çox fikirlər səslənib, müxtəlif səpkili elmi əsərlər və məqalələr qələmə alınıb. Deyilənləri və yazılanları təkrarlamaq niyyətindən uzağıq, hərçənd, tarixə qısa ekskurs etməyi vacib sayırıq. Nəzərə alaq ki, “31 Mart” reallığı tariximizin bir parçası, acı və üzüntü dolu yaşantısıdır.**

Azərbaycan xalqının yaddaşında silinməz iz buraxmış faciələrdən olan 1918-ci ilin mart soyqırımı hər il dərin hüzn və ehtiramla yad edilir. Bu, sadəcə anım günü deyil, həm də milli yaddaşın, tarixi ədalətin və həqiqətin qorunmasının simvoludur. Axı həqiqətin gözünün içinə düz baxılmalıdır. Düz baxılmalı və uca səslə bəyan edilməlidir ki, 108 il əvvəlin bu günlərində Azərbaycan torpaqlarında görünməmiş vəhşiliklər törədilib.

# 31 Mart – qisas və ibrət

## *Qarabağın işğalına gələn yol*

108 il əvvəlin bu günlərində Bakı, Şamaxı, Quba və digər bölgələrimizdə minlərlə günahsız azərbaycanlı bolşevik-daşnak qruplaşmalarının amansızlığı ilə üzləşmiş, yaşayış məntəqələrimiz yerlə-yeksan edilmişdi. Tarixi mənbələr və araşdırmalar həmin qorxunc hadisələrin, mülki əhaliyə qarşı genişmiqyaslı zorakılıq əməllərinin məqsədli şəkildə həyata keçirildiyini təsdiqləyir. Ən böyük təsdiq isə Qubadakı kütləvi məzarlıqdır. Orada aşkarlanmış insan qalıqları həmin dövrdə törədilmiş qətliamların miqyasını və dəhşətini göz önünə sərir.

Ümumən, 1918-ci ilin mart-aprel aylarında 30 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 10 minlərlə insan öz torpağından qovulmuşdur. Amma uzun illər yaşananlara lazımi siyasi qiymət verilməmiş, həqiqətlər gizli saxlanılmışdır. Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci ildə imzalanmış fərmanla “31 Mart”ın Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması isə tarixi ədalətin bərpası istiqamətində mühüm addım olmuşdur.

Bu qanlı hadisələri törədənlər 1920-ci ildə Azərbaycanı işğal etdilər, ölkəmizin XX əsrdə əldə etdiyi dövlət müstəqilliyinə son qoydular və...

1920-ci ildən sonra yaşananlar “31 Mart”ın dolayı yollarla davamı sayıla bilər. Azərbaycanlıların Ermənistan ərazisindən deportasiya faktları bu baxımdan xüsusi vurğulanmalıdır. Üstəlik, həmin dövrdə, belə demək mümkünsə, işğal içində işğal yaşadıq. Keçmiş SSRİ rəhbərliyi Azərbaycan torpaqları hesabına Ermənistan SSR-in ərazisini genişləndirmək kursu seçdilər. Ermənilərə verilmiş hər torpaq hədiyyəsi faciəmiz oldu. Hədiyyələr isə ulu öndər Heydər Əliyevin respublikamızda idarəçiliyə gəlməsinədək davam etdi.

Heydər Əliyev şəxsiyyəti ermənilərin Azərbaycan torpaqlarına olan iddialarının qarşısını aldı. Nəinki qarşısını aldı, eyni zamanda, hay varlığının göz dikdiyi ərazilərimizə milli ahəng və ruh qazandırdı. Ulu öndər Azərbaycanın içinə yerləşdirilmiş saat mexanizmli bomba olan Dağlıq Qarabağ Muxtar Vilayətinin respublikamıza bağlılığını artıran çoxsaylı tədbirlər reallaşdırdı. Reallaşdırdı ki, erməni millətçilərinin, loru dildə desək, ağızları yumulsun. Amma...

“Əmması” Heydər Əliyevin 1987-ci ildə SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılmasından dərhal sonra yaşandı. Uzun illər məkrli planlarının qarşısına sədd çəkilmiş hayların Azərbaycan torpaqlarına iddiaları yenidən baş qaldırdı. Sonra baş verənlər isə hamımıza yaxşı məlumdur. Belə ki, Ermənistanın Qarabağ avantürası torpaqlarımızın 20 faizinin işğalı, 1 milyondan çox vətəndaşımızın öz doğma yurd-yuvasından didərgin düşməsi reallığını doğurdu. Acı reallığın Xocalı vəhşəti də yaşandı ki, bu, 1918-ci ilin mart soyqırımının təkrarlanması idi. Ümumən, 1989-1993-cü illərdə yaşanan məşəqqətlər, eyni zamanda, soyqırımı yaddaşımızın acı ibrət səhnələri oldu.



Prezident İlham Əliyev Ermənistanın törətdiyi bütün cinayətlərə görə üzr istəməli olduğunu vurğulayıb. Hesab edirik ki, nəinki Ermənistan, eləcə də bütövlükdə erməni varlığının təmsilçiləri “31 Mart” dəhşətinə görə də azərbaycanlılardan üzr istəməlidirlər. Çünki bu varlığın 108 il əvvəl törətdiyi faciə bəşəri cinayətdir və ona dünya birliyi də layiqli qiymətini verməlidir.

Tam əminliklə deyə bilərik ki, “31 Mart” 1918-ci ilə qədərki və ondan sonrakı dövrdə Cənubi Qafqaz coğrafiyasından türk-müsəlman izinin silinməsinə yönəlmiş planın tərkib hissəsi idi. Söhbət məkrli erməni planından gedir. O plan ki, əsası 1830-cu ildə hayların regiona köçürülmələri ilə qoyuldu. O plan ki, ermənilərin hesabına Cənubi Qafqazda xristian çoxluq formalaşdırmağa yönəlmişdi. Nəhayət, o plan ki, imperialist güclərin erməni amilinə söykənərək bütövlükdə türk dünyasını parçalamaq məramından qaynaqlanmışdı.

Bəli, 1918-ci ildə əzəli Azərbaycan torpaqlarında Ermənistan adlı qurama dövlətin yaradılması da sözügedən planın tərkib hissəsi idi. Bu dövlət mahiyyət etibarilə, torpaqlarımızın işğalından başqa bir şey deyildi. Ondan əvvəl yaşanmış “31 Mart” isə işğalı daha böyük arealda gerçəkləşdirmək məqsədi daşımış, Azərbaycan xalqının dövlət millətinə çevrilməsinin qarşısını almağa hesablanmışdı. Kütləvi qırğınlar məhz bunu hədəfləmişdi.

“31 Mart” ermənilərin azərbaycanlıların, ümumən, türk-müsəlman əhalisinin başına gətirdikləri olmazın faciələrin həm davamı, həm də pik nöqtəsi, daha azğınlaşmış forması idi. Ancaq bu, son olmadı. 1918-ci ildə Bakıda və digər bölgələrimizdə qırğınlar törədənlər...

Xalqı uçurumdan yenə ulu öndər Heydər Əliyev xilas etdi. Dahi şəxsiyyətin yeritdiyi kurs həm dövlətimizi gücləndirdi, həm vətəndaşımızda əminlik hissi yaratdı, həm də faciə tariximizi dindirməklə ədalətsizliklərə son qoymaq əzmimizi formalaşdırdı. Məhz bu əzm insanlarımızda qələbəyə inam yaratdı. O qələbəni ki, onu Zəfər salnaməsi kimi tariximizə əbədi həkk edən Prezident İlham Əliyev oldu. O qələbə ki, yaşadığımız faciələrin qisası idi. Biz qisasımızı döyüş meydanında aldıq, bunu dinc, silahsız ermənilərə zülm və zillət yaşatmadan etdik. Qisasımız ilahi ədalətin təntənəsinə çevrildi. Yaşadığımız dəhşət alovlarının üstünə su səpən Zəfərimiz “31 Mart”ın da qisası oldu.

Bəli, 44 günlük müharibədəki Zəfərimiz nəticəsində torpaqlarımızı düşmən tapdağından qurtarmaqla, həmçinin 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyümüzə qovuşmaqla, “31 Mart” və onun kimi neçə-neçə faciələrimizin bizləri düçar etdiyi işğal yaşantısına “dur” dedik, heç nəyə baxmayaraq dimdik ayaqda olduğumuzu göstərdik. Ayaqda əbədi qalmaq üçün isə keçmişi unutmamalı, onun ibrət dərslərini xatırlamalıyıq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Tunel”də qətliam və yeniyetmə qəhrəman

## *33 il əvvəl ermənilərin Kəlbəcərdə törətdikləri qanlı vəhşiliyin silinməyən izləri*

**Qanlı qətliamın izləri o dəhşəti yaşayan insanların yaddaşına əbədi həkk olunub. Türklərə qarşı sağalmaz kin-küdurət, kor nifrət, xəstə qisasçılıq azarına mübtəla olmuş hayların 30 il işğalda saxladıqları Qarabağın elə bir yeri yoxdur ki, orada vəhşi vandallar soydaşlarımızın qanını axıtmasın. Erməni vandalların törətdikləri dəhşətli cinayətlərdən birinin izi Kəlbəcər rayonunun “Tunel” adlanan ərazisində qalıb. O qanlı qətliam 1993-cü il martın 31-də törədilib.**



Tunel qətliamının şahidlərinin bəziləri həyatdadırlar. Qanlı hadisə zamanı özünü qayadan çaya ataraq sağ qalan, ətraf kəndlərin erməni vəhşiliyindən qaçan sakinlərini onları tuneldə gözləyən təhlükədən xəbərdar edən 14 yaşlı yeniyetmə, bu gün 47 yaşı olan **Ramil Hüseynovla** söhbətləşirik. Onun iştirakçısı və şahidi olduğu o dəhşətli olay barədə danışdıqlarını həyəcansız dinləmək mümkün deyil. Baş verənləri onun öz dilindən eşidək: “Məni atam, anam və həmin vaxt kənddə olan qardaşım Ceyhun yola salırdılar. Maşının banı insanlarla dolu olduğundan öndəki yükün üstündə oturub, ayaqlarımı kabinanın üstünə uzatmalı oldum. Bir yanımda kəndimizin ağsaqqallarından Məhəmməd dayı, digər yanımda qonşumuz Əsgərxan dayı oturmuşdular. Hər ikisini ermənilər əsir götürdülər, indi həyatda yoxdurlar, ruhları şad olsun... Biri sağ qolumdan, digəri sol qolumdan tutmuşdu ki, maşın hərəkətdə olanda yıxılmayım. Təxminən saat 7-yə işləmiş maşın Kilsəli kəndindən çıxdı. Yeddi kilometrlik məsafəni qət edib, Comərd kəndinə çatdıq. Burada yol tunelə girirdi. Onu da deyim ki, dinc vaxtlarda tunelin hər iki başında dayanan gözətçilər yolda gediş-gəlişi tənzimləyirdilər”.

***ARAYIŞ:** Azərbaycanda ən uzun sayılan tunel Tərtər–Kəlbəcər yolunun cənubunda, Laçın-Kəlbəcər yolunun üstündə yerləşir. 35 kəndi rayon mərkəzi ilə birləşdirən, eni yalnız bir avtomobilin hərəkətinə imkan verən, işıqlandırılmayan tunelin uzunluğu 2 kilometrə yaxındır. Hadisə baş verən yerdə 82 nəfər azərbaycanlı olub. Hay nasistləri onların 50-sini olmazın işgəncələr verərək öldürüb, bəzilərini isə diri-diri yandırıblar. 31 nəfər əsir götürülüb. Qətliamın qurbanı olan insanların bəziləri hələ də itkin düşmüş sayılır.*

Ramil Hüseynov deyir ki, martın 31-də səhər tezdən ermənilər Ağdərə istiqamətindən gəlib artıq tunel ərazisinə çatıblarmış: “Rayon mərkəzinə və Ağdərəyə tərəf çıxışdan təxminən 150 metr sonra yol sola burulanda “Tunel dairəsi” deyilən yer var. Erməni silahlıları burda pusqu qurmuşdular və bizim maşını görən kimi atəş açmağa başladılar. Maşını yolun ortasında saxlayıb, yerə düşən sürücü Qoşqarı dərhal vurdular. Onda anladıq ki, bunlar ermənilərdir. Özünü maşından yerə atan Əsgərxan dayını ayağından vurdular. Mən də aşağı tullandım və cəld maşının körpü hissəsi ilə arxa təkəri arasındakı dar bir yerə girib gizləndim. Bir saata yaxın davam edən güllələbarandan sonra maşında yaralanmayan adam qalmamışdı: kimisinə bir, kimisinə dörd-beş güllə dəymişdi. Ağır yaralanan Cəmilə adlı qadının yanında 4 uşağı vardı. Maşının yük yerindən kürəyimə qan damcılayırdı. Yolda insan qanı sel kimi axırdı... Ah-nalə ərşə dirənmişdi. Yaralılar “su” deyib qışqırırdılar...”.

Bu yerdə Ramil susur, danışmağa çətinlik çəkir. Biz də başa düşürük ki, qorxulu yuxuya bənzəyən bu hadisəni birinci dəfə deyil nəql edir. Nəfəsini dərəndən sonra sözünə davam edir: “Bu vaxt tuneldən üstü adamla dolu daha bir yük maşını çıxdı. Sürücüsü vəziyyəti başa düşüb, qəfildən sürəti artırdı. Yəqin məqsədi ermənilərin əlindən qurtulub, “Tunel körpüsü” adlanan yerə çatmaq idi. Əgər oraya çata bilsəydi, bəlkə də adamları ölümdən xilas edə bilərdi. Amma maşın yanımızdan keçəndə gördüm ki, ermənilərin atdığı güllələrdən təkərləri deşilmiş maşın diskin üstündə hərəkət gedir. 10-15 metrdən sonra dayandı və ondan arxadakı, qadın və uşaqların olduğu UAZ markalı maşın da irəliyə gedə bilmədi. İndi hər üç maşın atəş altındaydı, güllə yağış kimi yağırdı. Qabaqdakı yük maşınını ermənilər qumbaratanla vurdular, alov onu bürüdü”.

Sonradan məlum olacaq ki, həmin maşının yük yerində 52 nəfər varmış və onların əksəriyyəti Laçın rayonu işğal olunan zaman Kəlbəcərin Çobangərəhməz kəndinə sığınıblarmış. Aralarında iki hərbçi olduğundan ermənilər maşını qumbaratanla vurmuşdular.

**Ramilin dediklərindən:** “Yanğından xilas ola bilməyən, yaralanan, can verən insanların alovun içində dəhşətlə bağırtılarını eşidirdik. Ermənilər bizim maşında da hərbçilərin olduğunu güman edib, qumbaratanla atəş açmağa hazırlaşanda mən gizləndiyim yerdən çıxdım. Elə bu an qohumumuz Ofeliya xalanın səsini eşitdim: “Ramil, hardasan, mənə kömək elə, düşüm”. O, qolundan yaralanmışdı. Maşından düşməyə kömək etdim, üst-başım qana bulaşdı. Yerdə yaralı vəziyyətdə uzanmış Əsgərxan dayı ermənilərin niyyətini başa düşüb əlindəki papağı yelləyərək qışqırdı: “bizim maşında hərbçi, silah-sursat yoxdur”. Bundan sonra 7-8 erməni bizim maşına yaxınlaşaraq silahlarını üstümüzə tuşlayıb, yanımızda hərbçilərin olub-olmadığını soruşdular. Cavab verdik ki, hamısı yerli kənd camaatıdır. Həmin an mən arxa təkərin yanında durmuşdum. Ermənininin biri ayağını təkərin üstünə qoyub yuxarı qalxdı, maşının banına baxdı və gördü ki, orada yaralılar və ev əşyalarıdır”.

*

Məhz həmin an yeniyetmə Ramil beynində bu cəhənnəmdən qaçmağın planını qurur. Ermənilər onlarla Azərbaycan dilində, öz aralarında isə ermənicə danışırmışlar. Aralarında iki nəfər dəstə başçısı imiş. Birinə “Karo”, digərinə “Avo” (söhbət məşhur terrorçu, sonralar Ağdam rayonu ərazisində öldürülən “Avo” ləqəbli Monte Melkonyandan gedir – red.) deyə müraciət edirmişlər.

Qəhrəmanımız qanlı hekayənin davamını danışır: “Qorxudan yerimdə donub qalmışdım. Kənddə qalan valideynlərimin, qardaşımın, qohum-əqrəbanın, indi də olmasa, sabah gəlib buradan keçəcəklərini düşünəndə az qala havalanırdım. Qumbaratanla vurulan yük maşınının partlayış dalğası yeniyetmə qızla bir oğlanı aşağıdan axan Tutqu çayına atmışdı. Sonradan öyrəndim ki, onlar Yeganə və Müşfiq adlı bacı-qardaşdırlar. O uşaqların ağlaşma ah-naləsi hələ də qulağımdadır... Bunu görəndə əsir düşməmək üçün özümü çaya atmaq qərarına gəldim. Düşündüm ki, sağ qalsam, gedib kəndə xəbər verərəm”.

Beləliklə, Ramil mühasirədən qaçış planının icrasına başlayır. Ermənilər onlara tərəf gələndə, o, yavaş-yavaş maşının arxasına keçir, ordan qaçıb 25-30 metr yüksəklikdəki qayadan özünü çaya atır. Ardını belə nəql edir: “Erməni silahlıları bunu görüb, arxamca qışqırmağa və güllə atmağa başladılar. Tutqu çayı məni, hardasa, 50 metr öz axarı ilə apardı. Sahilə çıxa bilmirdim, çaya yıxılmış bir ağaca ilişib qaldım. Ağacın qol-budağı sahilə qədər uzanırdı. Birtəhər sahilə çıxandan sonra hiss etdim ki, ayağımda dəhşətli ağrı var. Əvvəlcə elə bildim güllə dəyib, amma diz qapağım möhkəm əzilmişdi. Özümə gələndən sonra üzüyuxarı qayıtmağa başladım”.

Özünü atdığı qayaya çatanda ermənilərin onu görmədiklərinə əmin olan Ramil tunellə geriyə – kəndlərinə sarı qaçmağa başlayır. Çayın qırağı ilə gedərkən Comərd kəndi tərəfdən adamlarla dolu bir neçə maşının gəldiyini görür. Onlara qışqırır ki, getməyin, tunelin çıxışını ermənilər tutublar. Ramil o maşınlardan birinə minib Comərdə qayıdır: “Camaata şahidi olduğum hadisəni danışdım və orada qalmayıb, pay-piyada kəndimizə yollandım. Yeddi kilometr yolu dayanmadan gedib, axşamtərəfi kəndimizə çatdım. İlk ev sürücü Qoşqargilinki idi. Onun anası Əfruz xala məni görüb: “Ramil, səni səhər yola salmışdıq, niyə qayıtdın?” – deyə qışqırdı. Dedim ki, “ermənilər bizi tutdular, təkcə mən qaça bildim”. Əfruz xalanın qızı, oğlu o maşında idilər. Qadının qışqırtısına kənd sakinləri axışıb gəldilər. Atam elə bilib ki, maşın qəzaya düşüb, mən ölmüşəm... “Kənddə camaat başıma yığışmışdı. Əhvalatı danışanda elə bir müsibət qopdu ki!” Ramilin xəbərdarlığından sonra hamı kəndi tərk etməyə başlayır. Martın 31-də yola çıxan kənd sakinləri 4 günə dağlarla Xanlar (indiki Göygöl - red.) rayonunun Toğanalı kəndinə gəlib çıxa bilirlər.

...Onu dinlədikcə əmin oluruq ki, bir qərinə əvvəl şahidi olduğu o qanlı olay Ramilin yaddaşına xırdalıqlarına kimi həkk olunub. O zaman, o şəraitdə 14 yaşlı yeniyetmənin hərəkətini yalnız qəhrəmanlıq kimi qiymətləndirə bilərik. Oxucuların diqqətinə onu da çatdıraq ki, hazırda 47 yaşlı Ramil iki övlad atasıdır. 20 yaşlı Rəvan Bakı Dövlət Universitetində 3-cü kursda, 18 yaşlı Tuncay isə ADA Universitetində 1-ci kursda təhsil alırlar.

*

İndi işğaldan azad edilmiş torpaqlarda erməni faşistlərinin əməllərinin izləri silinməklə yanaşı, aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində Azərbaycanın dilbər guşəsi Kəlbəcərdə ikinci həyat başlayıb. Doğma yurdlarına qayıdanların isti nəfəsi ilə torpaq yenidən dirçəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti, diplomatik hünəri sayəsində Kəlbəcər bir güllə atılmadan işğaldan azad edildi. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun



olaraq, Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın ötən əsrin 90-cı illərindən etibarən Azərbaycan vətəndaşlarına qarşı sülh və insanlıq əleyhinə törətdiyi cinayətlərin araşdırılması və təqsirkar şəxslərin müəyyənləşdirilərək yerli və beynəlxalq məhkəmələrdə məsuliyyətə cəlb olunması istiqamətində fəaliyyəti davam etdirir. Tunel qətliamında əli olanların Femida qarşısına çıxarılacağı gün uzaqda deyil.

2025-ci il avqustun 21-də Prezidentin Kəlbəcər rayonuna səfəri Azərbaycanın Qarabağ bölgəsində apardığı bərpa-quruculuq işlərinin yeni mərhələsinin əlaməti olmaqla yanaşı, həm də dövlətimizin bölgədə davamlı sülhə və sabitliyə verdiyi önəmin göstəricisi idi. Kəlbəcər rayonunda ekoturizm, kənd təsərrüfatı və digər sahələrdə böyük potensial mövcuddur. Dövlətin məqsədi bu potensialı reallaşdırmaq, bölgənin iqtisadiyyatını şaxələndirməkdir. Bu isə yeni iş yerlərinin yaradılması, gənclərin və ailələrin burada qalmasını təmin etmək deməkdir. Prezident İlham Əliyev, həmçinin qeyd edib ki, milli həmrəylik və vətənpərvərlik bu gün Azərbaycanın güc mənbəyidir: “Kəlbəcərin bərpası bütün bölgədə sülhün və əmin-amanlığın möhkəmlənməsi üçün vacib addımdır. Azərbaycan dövləti bölgədə davamlı inkişafı təmin etmək üçün hərtərəfli tədbirlər həyata keçirir və bu işlər davam etdiriləcək”.

Qalib xalqımız, qüdrətli dövlətimiz və onun qətiyyətli rəhbəri tunel qətliamının da tezliklə hüquqi qiymət almasına və bunu törədən erməni quldurların cəzalandırılmasına nail olacaq. Yəqin həyatın yenidən canlanmağa başladığı Kəlbəcərdə 33 il əvvəl erməni vəhşiliyinin qurbanı olmuş şəxslərin xatirəsini əbədiləşdirmək üçün həmin tunelin yaxınlığında memorial-abidənin ucaldılması barədə də düşünəcəklər. Bizdən ötrü bu, erməni faşizminin cinayətlərini heç vaxt unutmamağımız, onlar üçün isə tarixdən ibrət götürmələri üçün lazımdır.

***İ.HƏSƏNQALA***
***XQ***

# Oliqarxın revanş cəhdi

## *Paşinyanın namizədliyi fonunda Karapetyanın süni güc nümayişi*



**Ermənistanın Baş naziri Nikol Paşinyan bildirib ki, hakim “Mülki müqavilə” partiyası onu iyunun 7-də keçiriləcək parlament seçkilərində hökumət başçısı postuna namizəd kimi irəli sürüb. O, “Facebook” hesabında yerləşdirilən bəyanatında qeyd edib ki, partiya daxilində keçirilən 2 mərhələli praymeriz başa çatıb və nəticələr yekunlaşdırılıb.**

Səsvermə nəticələrinə etiraz etmək üçün müəyyən edilmiş müddət ərzində heç bir müraciət daxil olmadığını bildirən Paşinyan: “Hesablama komissiyasının sədri, parlament sədrinin müavini Akop Arşakyanın rəhbərliyi altında qapalı – gizli səsvermənin iki mərhələsinin yüksək səviyyədə və demək olar ki, qüsursuz təşkilinə görə komissiyanın bütün üzvlərinə təşəkkür edirəm. Partiya yoldaşlarıma mənə yenidən etimad göstərdikləri, “Mülki müqavilə” partiyasının seçki siyahısına rəhbərlik etməyi həvalə etdikləri və Ermənistan Respublikasının baş nazirliyinə namizəd kimi irəli sürmək şərəfinə layiq gördükləri üçün minnətdaram” – deyə vurğulayıb.

Səsvermənin ilkin nəticələrinə görə, Paşinyan 933 səs toplayıb. Xarici işlər naziri Ararat Mirzoyan 853, müdafiə naziri Suren Papikyan 842, iqtisadiyyat naziri Gevork Papoyan – 806, parlament sədrinin müavini Ruben Rubinyan 782 səs alıb. İlk onluqdakı sonrakı yerlərdə səhiyyə naziri Anait Avanesyan (780 səs), deputat Vaaqn Aleksanyan (777 səs), hökumət aparatının rəhbəri Raki Arutyunyan (766 səs), parlamentdəki “Mülki müqavilə” fraksiyasının rəhbəri Ayk Koncoryan (747 səs) və əmək və sosial məsələlər naziri Arsen Torosyan (745 səs) qərarlaşıb. Əlavə edək ki, partiyanın seçkiqabağı proporsional siyahısı səsvermənin yekunları əsasında formalaşdırılmalıdır, lakin bu zaman siyahıdakı hər 4 yerdən ən azı biri qadın olmalıdır.

Ancaq hakim partiya daxilində keçirilən ilkin seçkilər ictimai-siyasi fəaliyyətlə məşğul olan şəxslər tərəfindən birmənalı qarşılanmayıb. Məsələn, siyasi texnoloq Armen Badalyan praymerizin saxta olduğunu və N. Paşinyanın maraqlarına xidmət etdiyini bildirib. O, “Sputnik Ermənistan” agentliyinə açıqlamasında bildirib ki, proses Paşinyana öz mövqelərini möhkəmləndirməsi üçün lazım idi: “Bu prosesin sözün əsl mənasında praymerizlə heç bir əlaqəsi yoxdur, çünki burada real rəqabət və ideoloji mübarizə mövcud deyildi: “Əks təqdirdə biz Nikol Paşinyanın, Ararat Mirzoyanın və ya digər siyasi fiqurların debatlarını görərdik. Səsvermənin mövcud nəticələri isə partiyanın strukturundan irəli gəlir. “Mülki müqavilə” klassik lider partiyasıdır, orada qərarları bir nəfər qəbul edir. Bu cür sistemdə nəinki rəqabət stimullaşdırılmır, həm də lider üçün təhlükəli sayılır, çünki alternativ mərkəzlərin peyda olmasına gətirib çıxara bilər”.

A.Badalyan hesab edir ki, bu tip partiyalarda vəzifələrin bölgüsü də səsvermə ilə deyil, rəhbərin subyektiv qərarı ilə müəyyən olunur: “İndiki situsiyada da ilk onluğa Paşinyana sədaqət meyarı ilə seçilmiş şəxslər daxil ediliblər. Siyahı baş nazirin istəyinə uyğun şəkildə formalaşdırılıb; o belə istəyib. Avtoritar sistemdə rəqabət olmur. Partiyada baş verənləri ölkədəki ümumi siyasi atmosferdən kənar qiymətləndirmək mümkün deyil. Əgər ölkədə mərkəzləşdirilmiş idarəetmə sistemi formalaşırsa, eyni məntiq partiya daxilində də işləyir. Ermənistanda hakimiyyət avtoritar idarəetməyə doğru gedir, deməli, hakim partiyada demokratiya ola bilməz”. O, həmçinin Ermənistanda seçkilərin rəqabətli olmasına şübhə ilə yanaşdığını bildirib və qeyd edib ki, ölkədə seçki nəticələri çox vaxt digər amillərlə müəyyən olunub. Onun sözlərinə görə, son onilliklərdə keçirilən demək olar ki, bütün seçkilərdə hakim partiyanın real rəqabət qabiliyyətindən asılı olmayaraq, qalibiyyət rəsmən həmişə mövcud hakimiyyətlərin adına yazılıb.

*

Əlbəttə, hakim partiyanın Paşinyanı növbəti dəfə baş nazirliyə namizəd irəli sürməsi siyasi sistemin davamlılığı və sabitliyi baxımından mühüm addımdır. İkimərhələli praymerizin keçirilməsi həm partiyadaxili prosedurların rəsmiləşdirilməsi, həm də qərarların şəffaf mexanizm üzərindən qəbul edilməsi istiqamətində irəliyə doğru addım kimi dəyərləndirilə bilər. Səsvermənin nəticələrinə etirazın olmaması, prosesin qapalı-gizli formatda, texniki qüsursuzluq şəraitində təşkil edilməsi hakim komandanın idarəçilik mədəniyyətinin formalaşdığını göstərir. Lakin bu prosesə kölgə salmağa çalışan bəzi siyasi fiqurlar, xüsusilə Armen Badalyan, praymerizi “saxta” adlandırmaqla subyektiv yanaşma sərgiləyir. Badalyanın iddiaları faktlara deyil, şəxsi fərziyyələrə əsaslanır. O, nə real sübut gətirir, nə də səsvermədə iştirak edən minlərlə partiya üzvünün iradəsini nəzərə alır. Paşinyanın mövqeyinin güclü olması rəqabətin olmaması deyil, ermənilərin onun liderliyinə duyduqları etimadın göstəricisidir. Badalyanın Ermənistanın avtoritarizmə getdiyi barədə ittihamları isə siyasi reallıqdan uzaqdır. Ölkədə müxtəlif siyasi qüvvələr seçkilərdə iştirak edir, geniş koalisiya imkanları mövcuddur və bu, səsvermənin rəqabətli xarakter daşıdığını sübut edir. Reallıq odur ki, Paşinyanın namizədliyi həm partiya daxilində, həm də cəmiyyətdə geniş legitimlik qazanıb və seçkiyə idarəetmə sabitliyi fonunda gedən əsas siyasi fiqur olaraq qalır.

*

Bu arada oliqarx Samvel Karapetyanın “Güclü Ermənistan” partiyasının iki partiya – “Birləşmiş ermənilər” (fəxri sədr Nairi Sarkisyan) və “Yeni dövr” partiyası (lideri Arutyun Arutyunyan) ilə blok yaratdığı açıqlanıb. İmzalanma mərasimi martın 31-də Karapetyanın partiya qərargahında baş tutub. Memorandum imzalayan partiyalar bildirib ki, onlar “Güclü Ermənistan”ın siyasi gündəminin və seçkiqabağı proqramının ətrafında birləşir və “dövlətçiliyin möhkəmləndirilməsi, milli və dini dəyərlərin qorunması, hüquqi və sosial ədalətin təmin edilməsi” istiqamətində fəaliyyət göstərəcəklər. Onlar əvvəlcədən elan edildiyi kimi, “Samvel Karapetyanla güclü Ermənistan” adlı vahid blokla seçkilərdə iştirak edəcəklər.

“Güclü Ermənistan”ın şura üzvü, S.Karapetyanın qardaşı oğlu Narek jurnalistlərə açıqlamasında blokun qələbəsinə əmin olduğunu bildirib. O, bunu təkcə sorğulara deyil, həm də ictimai əhval-ruhiyyə ilə əsaslandırır: “Cəmiyyətin müxtəlif təbəqələri ilə ünsiyyətdə olduğumuz zaman bu qənaətə gələ bilərik. Ermənistanda dəyişikliklər yalnız Karapetyan qüvvəsi şəklində ola bilər. Hazırda yeganə alternativ də elə budur”, – deyə Karapetyan vurğulayıb. Rusiyaya bağlı oliqarxın “Güclü Ermənistan” adı altında yaratdığı blok, əslində, siyasi proqramdan çox, şəxsi maraqların seçki paketinə çevrilmiş forması təsiri bağışlayır. “Dövlətçiliyin möhkəmləndirilməsi” kimi pafoslu ifadələr isə Karapetyanın uzun illər Ermənistan siyasətinə kölgədən təsir göstərən iqtisadi gücünü legitimləşdirmək cəhdindən başqa bir şey deyil. Karapetyan bloku seçki prosesinə Ermənistan siyasətinin illərdir tənqid olunan köhnə oliqarx modelinin təkrar istehsalından başqa heç nə vəd etmir.

Onu da bildirək ki, artıq bir sıra siyasi qüvvələr iyunun 7-də keçiriləcək parlament seçkilərində iştirak etmək niyyətlərini açıqlayıblar. Bura hakim “Mülki müqavilə” partiyası, ikinci prezident Robert Koçaryanın “Hayastan” bloku, oliqarx S.Karapetyanın “Güclü Ermənistan” partiyası daxildir. Oliqarx Qaqik Çarukyan “Ermənistan üçün təkliflər” təşəbbüsünü irəli sürərək seçkilərdə iştirakını bəyan edib. Seçkilərdə həmçinin keçmiş ombudsman Arman Tatoyanın “Birlik qanadları” təşəbbüsü və birinci prezident Levon Ter-Petrosyanın rəhbərlik etdiyi Ermənistan Milli Konqresi də iştirak edəcək. Erməni Milli Konqresi baş nazirliyə Levon Zurabyanın, “Yeni qüvvə” partiyası isə İrəvanın sabiq meri Ayk Marutyanın namizədliyini irəli sürüb.

***Səxavət HƏMİD***
***XQ***

*Cəmil ƏLİYEV – 80*

# Görkəmli onkoloq, nüfuzlu səhiyyə xadimi

**Bugünlərdə dünya şöhrətli onkoloq, milli səhiyyə xadimi, akademik Cəmil Əliyevin anadan olmasının 80 illiyi tamam oldu. Prezident İlham Əliyev yubiley münasibətilə görkəmli təbibi "İstiqlal" ordeni ilə təltif etdi.**

Təbabətin onkologiya sahəsi ilə məşğul olan alimlərimizin əldə etdiyi naliyyətlərin təməli ölkəmizdə əsasən XX əsrin ikinci yarısından təşəkkül tapmışdır. Son dərəcə yeni, həyati vacib sahəyə böyük sevgi, tükənməz enerjisi ilə gələn gənc elm fədailərinin əzmkarlığı sayəsində çox qısa zamanda bu sahə inkişaf yoluna qədəm qoyaraq dünya standartları səviyyəsinə yüksəlmişdir.

Ötən əsrin 70-80-ci illərində Azərbaycanda onkologiya elmini bu səviyyəyə yetirən, onun inkişafında xidmətləri danılmaz olan həmin gənc alimlər nəslinin görkəmli nümayəndələrindən biri də Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin baş direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, Azərbaycan Onkoloqlar və Radioloqlar Cəmiyyətinin sədri, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Cəmil Əziz oğlu Əliyevdir.

Cəmil Əziz oğlu Əliyev 1946-cı il martın 30-da Bakı şəhərində tanınmış alim və görkəmli dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya gəlib. 1968-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. 1973-cü ildə Bakı şəhərində "onkologiya" ixtisası üzrə "Alt dodağın dərisinin və ağız boşluğunun selikli qişasının xərçənginin diaqnostikası və müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

1978-ci ildə Moskvada SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzində "onkologiya" ixtisası üzrə "Dərinin melanoması və xərçəngi zamanı plastik cərrahiyyə əməliyyatı" mövzusunda doktorluq dissertasiyası müdafiə edən alim tibb elmləri doktoru elmi dərəcəsi qazanıb. 1987-ci ildə elmi kadrların hazırlanması sahəsində səmərəli fəaliyyətinə görə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə onkologiya ixtisası üzrə professor elmi adı alıb.

1994-cü ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun onkologiya kafedrasına rəhbərlik edən, süd vəzi, başın yumşaq toxumaları və boyun şişlərinin diaqnostikası sahəsində görkəmli aparıcı mütəxəssislərdən biri olan Cəmil Əliyev Azərbaycanda müasir klinik onkologiyanın və süd vəzi xərçənginin diaqnostikası və müalicəsi üzrə alimlər məktəbinin banilərindən biri olmaqla yanaşı, həm də uzun illərdir təməlini qoyduğu Azərbaycan Onkologiya Elmi Məktəbinə rəhbərlik edir. 1000-ə yaxın elmi məqalənin, 15-dən çox ixtiranın, 20-dən çox monoqrafiya və dərs vəsaitinin müəllifi olan akademik Cəmil Əliyevin rəhbərliyi altında 14 tibb elmləri doktorluğu və 52 tibb üzrə fəlsəfə doktorluğu dissertasiyaları müdafiə edilib.

Dünya şöhrətli soydaşımız Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Elmlər Akademiyasının əcnəbi üzvü, Avropa Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü, Amerika Birləşmiş Ştatları M.D.Anderson Xərçəng Mərkəzinin fəxri professoru, Hammersmit Kral Universiteti Hospitalının fəxri doktorudur.

Bir çox beynəlxalq elmi qurumun və ictimai təşkilatın üzvü seçilən akademik Cəmil Əliyev 1980-ci ildə "Dərinin melanoması və xərçəngi zamanı plastik cərrahiyyə əməliyyatı" monoqrafiyasına görə SSRİ Tibb Elmləri Akademiyasının akademik N.N.Petrov adına mükafatına layiq görülüb. Görkəmli alimin adı 1996-cı ildə İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Mərkəzinin dünya intellektualları arasında "Kim kimdir?" bioqrafik toplusuna daxil edilib.

Azərbaycan Milli Elmlər Akademiyasının "Bilik" Maarifçilik Cəmiyyətinin Y.Məmmədəliyev adına mükafatına layiq görülən akademik Cəmil Əliyevə 2000-ci ildə Əməkdar elm xadimi fəxri adı verilib. O, 2006-cı ildə "Şöhrət", 2016-cı ildə "Şərəf" ordenləri ilə təltif edilib.

2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilən alim 2003-cü ildə akademik Mustafa bəy Topçubaşov adına mükafata, 2011-ci ildə Dağıstan Respublikasının Əməkdar elm xadimi, 2015-ci ildə isə "Türk dünyasına xidmət Böyük Qızıl medalı"na layiq görülüb. Cəmil Əziz oğluna 2015-ci ildə Avropa Təbiət Elmləri Akademiyasının N.Piroqov ordeni, "Avropanın fəxri alimi" adı və V.Leybnits medalı, Azərbaycan Milli Elmlər Akademiyasının M.Mirqasımov adına mükafatı verilib. Soydaşımız 2018-ci ildə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Mükafatlar Şurasının qərarı ilə "Elm və Sülh elçisi" fəxri adına layiq görülüb.



Keçmiş SSRİ-də barmaqla sayılacaq, ölkəmizdə isə onkologiya sahəsində nadir alim, ciddi mütəxəssis olan Cəmil Əliyev 1990-cı ilin qan-qadası içərisində Milli Onkologiya Mərkəzinə Baş direktor təyin edilib. 36 ildir ki, bu çətin və məsuliyyətli vəzifəni yüksək peşəkarlıq, şərəf və ləyaqətlə yerinə yetirən akademik Cəmil Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 2006–2012-ci illərdə Milli Onkologiya Mərkəzi tamamilə yenidən qurularaq modernləşdirilmişdir.

Bu səhiyyə müəssisəsinin müasir dünya standartlarına uyğunlaşdırılmasında, ölkəmizdə onkoloji xəstəliklərə qarşı mübarizənin təşkilində Cəmil Əliyevin xidmətləri müstəsnadır. Onun gərgin əməyi sayəsində bu gün Milli Onkologiya Mərkəzi təkcə Azərbaycanda deyil, Cənubi Qafqazda bədxassəli şişlərin etiopatogenezi, diaqnostikası, müalicəsi və profilaktikası problemlərini tədqiq edən, mükəmməl maddi-texniki, kliniki bazaya malik ixtisaslaşmış elmi-tədqiqat müəssisəsidir.

Hazırda mərkəzdə 2 min nəfərə yaxın işçi çalışır. Ölkəmizdəki onkoloji xəstələrin böyük hissəsi Milli Onkologiya Mərkəzində müalicə olunur. İl ərzində burada yüz otuz minə yaxın pasiyent müayinə edilir, otuz mindən çox insan stasionar müalicə kursu keçir. Akademik Cəmil Əliyevin rəhbərliyi ilə Azərbaycanda ilk dəfə Uşaq Onkologiya İnstitutu binasının inşa etdirilməsi və fəaliyyətə başlaması, kadr potensialının möhkəmləndirilməsi, ən müasir tələblərə cavab verən cərrahiyyə bölümünün, həmçinin ambulator xidmətini təmin edən binanın yüksək səviyyədə təşkili, müasir avadanlıqla təchiz olunması xüsusilə əhəmiyyətlidir.

Milli Onkologiya Mərkəzinin nəzdində yaradılan Onkoreqistr 2015-ci ildə Beynəlxalq Onkoloji Xəstəliklər Assosiasiyasına üzv qəbul edilib. Həmin il mərkəzlə ABŞ-ın M.D.Anderson Xərçəng Mərkəzi arasında ikitərəfli əməkdaşlıq haqqında memorandum imzalanıb. 2018-ci ildə isə İngiltərənin Liverpul Universiteti Hospitalı, Avstriya Tibb Universiteti, Türkiyənin Hacettepe Universiteti, həmçinin Xərçənglə Mübarizə üzrə Beynəlxalq Elmi-Tədqiqat İnstitutu ilə də Milli Onkologiya Mərkəzi arasında memorandumlar imzalanıb. 2014-cü ildə Milli Onkologiya Mərkəzinə Beynəlxalq Məsləhət və Tədris Mərkəzi statusu verilib.

Akademik Cəmil Əliyevin beynəlxalq səviyyədəki elmi nüfuzu, əlaqələri, mərkəzi dünyanın aparıcı elmi qurumlarından birinə çevirib.

2006-cı ildə Milli Məclisin qəbul etdiyi və Azərbaycan Respublikası Prezidentinin imzaladığı "Onkoloji yardım haqqında" Qanun, onun icrası ilə əlaqədar "Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı" və sonradan qəbul olunan yeni dövlət proqramları, onkoloji xidmətin maddi-texniki bazasının gücləndirilməsi, Milli Onkologiya Mərkəzin cərrahiyyə, uşaq onkologiyası, yeni müalicə korpuslarının, Nüvə Təbabəti Mərkəzinin, müasir səviyyəli laboratoriyalarının açılması, tibb ocağının ən müasir tibbi texnika ilə, o cümlədən mobil diaqnostik komplekslə təchiz olunması məhz Prezident İlham Əliyevin bu sahəyə diqqət və qayğısının təzahürüdür.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkə səhiyyəsinə, o cümlədən onkologiya sahəsinə daim diqqət yetirməsi, onkoloji xəstələri, xüsusən də şiş xəstəliklərindən əziyyət çəkən uşaqları qayğı ilə əhatə etməsi, onun təşəbbüsü və himayəsi ilə Milli Onkologiya Mərkəzinin nəzdində yaradılan Uşaq Onkoloji Klinikasının regionda ilk belə ixtisaslaşdırılmış tibb müəssisəsinə çevrilməsi ilə nəticələndi.

Bu taleyüklü, ölkə və beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsində uzun illərdən bəri Milli Onkologiya Mərkəzinə, onkologiya sahəsinə Səhiyyə Nazirliyinin Baş onkoloqu kimi rəhbərlik edən akademik Cəmil Əliyevin xüsusi xidmətləri vardır. Milli Onkologiya Mərkəzində bu elm və səhiyyə müəssisəsinin ənənələrini yaşadan layiqli gənc nəslin formalaşmasına nəzarət edən akademik Cəmil Əliyevin rəhbərliyi ilə Mərkəzdə onkoloji xəstəliklərin profilaktikası, aşkarlanması və müalicəsi üzrə işlər uğurla həyata keçirilir.



Onkoloji xidmətin effektivliyinin artırılması istiqamətində mühüm layihələr gerçəkləşir. Ölüm hökmü kimi qəbul edilən xəstəliyə münasibət başqa biçimdə təqdim edilir. Onkoloji diaqnoz artıq ölüm hökmü kimi qəbul olunmur. Ölkəmizdə şiş xəstəliklərinin müalicəsi və diaqnozu insanlarda inam hissi yaradır. 80 illik ənənəsi olan quruma güvəni artırır.

Bədxassəli şiş problemləri ilə məşğul olan ilk ixtisaslaşdırılmış elmi-tibbi müəssisənin – Azərbaycan Dövlət Elmi-Tədqiqat Rentgenologiya və Radiologiya İnstitutunun səhiyyəmizdə rolu danılmazdır. İnstituta müxtəlif illərdə rəhbərlik edən İsaak Ginzburq, Mustafa Əlikişibəyov, Rəhim Rəhimov kimi tanınmış alimlər Azərbaycanda onkoloji xidmətin inkişafına çox böyük töhfələr veriblər. Bu məşhur alimlər həm də öz məktəblərini yaradıblar. Bu gün akademik Cəmil Əliyev məktəbi onların ən mükəmməlidir. Bunun başlıca səbəblərindən biri Cəmil Əliyevin qüdrətli alim, müəllim, onkoloq cərrah olmaqla yanaşı, həm də təşkilatçı rəhbər kimi ölkəmizdə və dünyada qəbul edilməsidir.

Xərçəngin hər növünün özünəməxsus xüsusiyyətlərinə uyğun olaraq, onkoloji xəstələrin müalicəsi 3 istiqamətdə – cərrahi, kimya-terapevtik və şüa müalicəsi şəklində aparılır. Zəngin maddi-texniki bazaya və güclü kadr potensialına malik olan Milli Onkologiya Mərkəzini dünyanın aparıcı onkoloji mərkəzləri ilə bir sıraya qoymaq olar. Mərkəzin əməkdaşları onkoloji xəstələrə yüksəkkeyfiyyətli xidmətlər göstərir, bədxassəli şişlərin erkən diaqnostikasını, belə xəstələrin müasir cərrahi üsullarla, şüa terapiyası və dərmanlarla müalicəsini həyata keçirir, mövcud müalicə metodlarının daha da təkmilləşdirilməsi məqsədilə genişmiqyaslı elmi araşdırmalar aparırlar.

Burada bütün müayinə-müalicə üsulları dünya standartlarına, Avropa, Amerika protokollarına uyğun həyata keçirilir. Bu səbəbdən də dünyanın nüfuzlu onkoloji mərkəzlərinin aparıcı mütəxəsisləri İngiltərənin Oksford Universitetinin professoru Devid Kerr, ABŞ-ın Vaşinqton Universitetinin professoru, Amerika Kliniki Onkologiya Cəmiyyətinin icraçı vitse-prezidenti, professor Culi Qralou, Türkiyənin Hacettepe Universitetinin professoru Şuayib Yalçın Azərbaycan onkoloqlarını peşəkar kadr, qüdrətli onkoloq cərrah olaraq qəbul edirlər.

Amerika Birləşmiş Ştatlarının Vaşinqton və Qərbi Virciniya universitetlərinin, Filadelfiyanın Fox Chase Xərçəng Mərkəzinin, Veill Cornell Tibb Universitetinin, Böyük Britaniyanın Oksford Universitetinin, İtaliyanın Genuya Universitetinin, Türkiyənin Hacettepe Universitetinin professor və aparıcı mütəxəssislərinin bu qənaəti təsdiq etməsi ölkə onkologiyası ilə yanaşı, akademik Cəmil Əliyevin irsinə və şəxsiyyətinə verilən dəyərdir.

Kolorektal xərçəng problemləri ilə bağlı Amerika Kliniki Onkologiya Cəmiyyəti ilə birgə keçirilən dinləmələr professor Devid Kerrin "Kolorektal xərçəngdə biomarkerlərin yolu", professor Şuayib Yalçının "Erkən mərhələdə kolorektal xərçəngin dərman müalicəsi", ABŞ-ın Fox Chase Xərçəng Mərkəzinin professoru Elin Siqurdsonun "Kolorektal xərçəngin cərrahi müalicəsi", Qərbi Virciniya Universiteti Xərçəng İnstitutunun professoru Riçard Qoldberqin "Metastatik kolorektal xərçəngin müalicəsi" mövzularında alim və mütəxəssislərin ortaq qənaətləri ümumbəşəri problem olan bu xəstəliklərin aradan qaldırılması yollarını müəyyənləşdirməyə kömək olmaqla yanaşı, alimlərin bir araya gəlməsi üçün beynəlxalq konsfrans və simpoziumların təşkilatçısı kimi tarix yaradan akademik Cəmil Əliyevin mənəvi əzəmətinin, alim, cərrah, müəllim, təşkilatçı rəhbər kimi nüfuzunun göstəricisidir.

Akademik Cəmil Əliyev öz elmi məktəbini yaratmağa nail olan dünya şöhrətli alimlərdəndir. Onun elmi məktəbinin yetirmələri təkcə Azərbaycanda deyil, xarici ölkələrdə də onkologiyanın kliniki, eksperimental və nəzəri sahələri üzrə çalışır, elmi axtarışlarını davam etdirirlər.

Akademik Cəmil Əliyevin dünyanın müxtəlif elm mərkəzləri ilə işgüzar əlaqələri, şəxsi nüfuzu sayəsində azərbaycanlı gənclər vaxtaşırı həmin mərkəzlərdə elmi-tədqiqat işlərində iştirak edir, bilik və təcrübələrini artırırlar. Rusya Tibb Elmləri Onkologiya Mərkəzinin keçmiş baş direktoru, mərhum akademik N.N.Trapeznikovun bir neçə dəfə Bakıya gəlməsi, ulu öndər Heydər Əliyevlə görüşməsi, Azərbaycanda onkologiya elminin vəziyyəti ilə tanış olması və gələcək inkişaf perspektivləri ilə bağlı təkliflər verməsi də bu səfərləri, görüşləri təşkil edən akademik Cəmil Əliyevin işgüzar əlaqələrinin, alim nüfuzunun, ən əsası isə onkologiya ilə bağlı məsələləri ən yüksək səviyyələrə qaldıraraq cəmiyyətə fayda vermək istəyinin daha bir göstəricisidir.

Azərbaycanda daha çox rast gəlinən bədxassəli şişlərdən süd vəzisi, dəri, qırtlaq və digər orqanların xərçəngi üzrə Cəmil Əliyevin rəhbərliyi altında və bilavasitə iştirakı ilə silsilə elmi-tədqiqat işləri həyata keçirilib. Süd vəzisi şişləri zamanı yerinə yetirilən operativ müdaxilələrdə, xüsusilə də süd vəzisinin cərrahi əməliyyatlarında Cəmil Əliyev müxtəlif modifikasiyalar təklif edib və onların cərrahlıq praktikasında həyata keçirilməsində mühüm rol oynayıb. Bu elmi istiqamət müasir dövrün innovasiyalarının yaratdığı imkanlardan faydalanaraq indi də uğurla davam etdirilir.

Alim əməliyyatqabağı müalicənin aparılmasında bir sıra yeni metodlar işləyib hazırlayıb. Bu metodların səhiyyə praktikasında geniş tətbiqi travmatik əməliyyatlara göstərişləri məhdudlaşdırmağa imkan verib. Orqansaxlayıcı əməliyyatlarda istifadə imkanlarını xeyli genişləndirib. Süd vəzisi xərçəngi hallarında xüsusi işlənib hazırlanmış reabilitasiya-bərpa müalicə kompleksi və orqansaxlayıcı əməliyyatlarda istifadə edilən orijinal aparatların yaradılması belə xəstələrin əksəriyyətinin tam dəyərli həyata və ictimai-faydalı əməyə qayıtmalarına imkan yaradır.

Akademik Cəmil Əliyevin bilavasitə rəhbərliyi ilə bu kompleksin praktikaya tətbiqi sayəsində son illər əlil xəstələrin sayında xeyli azalma baş verib. Görkəmli alimin süd vəzisi xərçəngi xəstəliyinin inkişaf mərhələlərinin Beynəlxalq Təsnifatına etdiyi düzəliş dünya miqyasında qəbul edilərək xəstələrin müalicə taktikasının yenidən qurulmasına şərait yaradıb.

Görkəmli onkoloqun elmi komandasının ən mühüm tədqiqat sahələrindən biri də süd vəzisinin bədxassəli və xoşxassəli şişləri olan xəstələrdə hepatit B və C viruslarının yayılması ilə bağlıdır. Həmin tədqiqatların nəticələri 1996-cı ildə çapdan çıxan "Süd vəzisi xərçəngi və qaraciyərin funksional vəziyyəti" və 2006-cı ildə işıq üzü görən "Onkoloji xəstələrdə qaraciyərin subklinik patologiyası" adlı monoqrafiyalarda ümumiləşdirilərək, elmi ictimaiyyətə təqdim olunub. Bu araşdırmalar nəticəsində ilk dəfə olaraq bütün dünyada sübuta yetirilib ki, gizli keçən hepatit B süd vəzisi xərçəngi olan xəstələrin müalicəsinin nəticələrinə mənfi təsir göstərir.

Ömrünün böyük bir mərhələsini akademik Cəmil Əliyevlə dostluq münasibətlərində keçirən, Bakıdan, Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutundan başlayan isti münasibətləri Moskvada doktorantura illərində və ondan sonra da uğurla davam etdirən, akademik Əhliman Əmiraslanov bildirir: "Bakıdakı ilk tanışlıqdan sonra Cəmil müəllimlə biz yenidən Moskvada bir araya gəldik. Onda mən də artıq Ümumittifaq Onkoloji Elmi Mərkəzinin aspiranturasına daxil olmuşdum və həmin mərkəzdə çalışırdım.

1974-cü ildən 1978-ci ilə qədər bərabər çalışdığımız bu illər hər ikimizə xoş oldu. Deyərdim ki, o illər ömrün ən unudulmaz çağlarıdır. Çətinliklər, maneələr Cəmil müəllimi əsla qorxutmurdu. Qarşıya çıxan əngəllərə dərhal optimal həll tapa bilirdi".

Akademik Cəmil Əliyev çoxsaylı elmi işlərin, kitab və monoqrafiyaların, metodiki göstərişlərin, ixtiralar üzrə müəlliflik şəhadətnamələrinin, patentlərin müəllifidir. Monoqrafiyalarından biri 1990-cı ildə "Treatment of Breast Tumours" adı altında ingilis dilində çap olunub. O, həmmüəlliflərlə birgə yazdığı "Dərinin bədxassəli şişlərində plastik operasiyalar" adlı monoqrafiyasına görə 1980-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının akademik N.N.Petrov adına mükafatına layiq görülüb. Rusiyada, Almaniyada, ABŞ-da, İngiltərədə, Fransada, Yaponiyada, Avstriyada, Türkiyədə, Özbəkistanda və digər xarici ölkələrdə keçirilən beynəlxalq qurultay, simpozium və konfranslarda elmi məruzələrlə çıxış edib, bu məruzələr böyük maraqla qarşılanıb.

Akademik Cəmil Əliyev genişmiqyaslı fəaliyyəti ilə yanaşı, həm də "Onkologiya" jurnalının baş redaktoru, "Biomedisina" jurnalının redaksiya şurasının üzvüdür. Respublika Səhiyyə Nazirliyinin onkologiya üzrə Attestasiya Komissiyasının, Respublika Elmi-Tibbi Onkoloqlar Cəmiyyətinin, onkologiya üzrə doktorluq və namizədlik dissertasiyalarının Müdafiə Şurasının sədridir. O, həmçinin "Dünya həkimləri nüvə müharibəsinə qarşı" Beynəlxalq Təşkilatının Azərbaycan Komitəsinə rəhbərlik edir.

Bütün bunlar onun alim, müəllim, onkoloq-cərrah, təşkilatçı rəhbər kimi bacarıq və nüfuzunun nümayişidir.

Tanrının seçilən bəndələrindən olan Cəmil Əliyevin daha bir böyük nailiyyəti ailəsi, övladlarıdır. O, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti, Əməkdar müəllim Dilşad Hüseyn qızı Əliyevanın ömür-gün yoldaşı, Seçenov adına birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialinin rektoru, professor oğul Əziz Əliyevin və Azərbaycan Tibb Unuversiteti daxili xəstəliklər kafedrasının dosenti İradə Əliyevanın atasıdır. Cəmil Əliyevin özü isə görkəmli ictimai-siyasi xadim və səhiyyə qurucusu, Təbrizə, Dərbəndə, Borçalıya, İrəvana, Zəngəzura bölünən Azərbaycanı tərcümeyi-halında birləşdirən, Dağıstanın lideri kimi tarix yaradan Vətən oğlu Əziz Məmmədkərim oğlu Əliyevin oğludur.

***Şərəf CƏLİLLİ,***
***yazıçı-publisist***

# 1918-ci ilin Mart soyqırımı: erməni millətçilərinin



## “Xalq qəzeti” redaksiyasında “dəyirmi masa”

**XX əsrin əvvəlləri Cənubi Qafqaz üçün son dərəcə mürəkkəb və ziddiyyətli bir dövr idi. İmperiyaların süqutu, yeni siyasi qüvvələrin formalaşması və regionda milli dövlətlərin yaranması prosesləri ciddi siyasi qarşıdurmalarla müşayiət olunurdu. Bu mürəkkəb geosiyasi şəraitdə Azərbaycan xalqı təkcə dövlətçilik ideallarını müdafiə etməklə kifayətlənməyərək, eyni zamanda, fiziki mövcudluğunu da qorumaq uğrunda ağır sınaqlarla üz-üzə qalmışdı.**

**Xalqımızın tarixində heç vaxt unudulmayacaq bu faciəli hadisə ilə bağlı “Xalq qəzeti” redaksiyasında “31 Mart – Azərbaycanlıların soyqırımı: Tarixin qanlı səhifəsi və milli yaddaşın dərsi” mövzusunda “dəyirmi masa”da qonaqlarımız AMEA A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru Kamran İsmayılov, həmin institutun əməkdaşları, tarix üzrə fəlsəfə doktorları Aygün Əzimova və Mübariz Ağalarlı idilər.**



**“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov** “dəyirmi masa”da bu faciənin XX əsrin əvvəllərində Azərbaycan əhalisinə qarşı həyata keçirilmiş planlı və sistemli qırğınların kulminasiya nöqtəsi olduğunu vurğuladı, həmin hadisələr nəticəsində yüzlərlə yaşayış məntəqəsinin dağıdıldığını, minlərlə günahsız insanın qətlə yetirildiyini və mülki əhaliyə qarşı amansız zorakılıqların törədildiyini bildirdi.

Əflatun Amaşov daha sonra 1918-ci ilin mart-aprel aylarında Bakıda və Azərbaycanın müxtəlif bölgələrində baş verən qanlı hadisələrin tarixə Azərbaycanlıların soyqırımı kimi yazıldığını, hər il martın 31-də qeyd edilən Azərbaycanlıların Soyqırımı Gününün həmin faciə qurbanlarının xatirəsinin anılması və tarixi ədalətin unudulmaması baxımından mühüm önəm daşıdığını diqqətə çatdırdı.

**Kamran İSMAYILOV:**



– 1918-ci ilin yazında bolşevik-daşnak alyansı tərəfindən əvvəlcə Bakıda, sonra isə Azərbaycanın digər bölgələrində dinc türk-müsəlman əhaliyə qarşı törədilmiş vəhşiliklər bəşər tarixinin ən utancverici hadisələrindən biridir. Müasir beynəlxalq hüquqa görə soyqırımı milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən məhv etmək məqsədilə törədilən kütləvi qətl hadisəsi, ağır cinayətdir. Bizim şərti olaraq “Mart soyqırımları” adlandırdığımız hadisələr də mahiyyət və miqyasına görə xalqımızın məhvinə yönəldilmiş soyqırımı hadisəsi idi.

Sovet dövründə bu hadisələr haqqında həqiqətlər xalqdan gizlədilmiş, rəsmi sovet ideologiyası və tarixşünaslığı həmin qətliamları guya Müsavat partiyasının başçılığı ilə Azərbaycanın “burjua-mülkədar” qüvvələrinin Bakıda hakimiyyəti ələ keçirmək üçün gerçəkləşdirmək istədikləri “əksinqilabi çevriliş” cəhdi, “vətəndaş müharibəsi” faktı kimi qələmə vermişdir. Yalnız Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra o dövrlə bağlı həqiqətləri üzə çıxarmaq və ictimaiyyətə çatdırmaq mümkün olmuşdur. Bu baxımdan ümummilli lider Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli Fərmanının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır.

Təqribən son 40 il ərzində həmin hadisələrin səbəbləri və mahiyyəti haqında xeyli kitablar, əsərlər, məqalələr yazılmış, dəhşətli soyqırımı ilə bağlı əsas məsələlərə geniş aydınlıq gətirilmişdir. Bununla yanaşı, artıq üstündən 108 il keçməsinə baxmayaraq, 1918-ci ilin mart soyqırımı ilə bağlı bir çox suallar hələ də öz cavabını gözləyir.

Əslində, bu hadisələrin kökləri XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya tərəfindən işğalına, çarizmin Cənubi Qafqazda öz etnik-dini dayaqlarını yaratmaq məqsədilə erməniləri kütləvi şəkildə Azərbaycanın müxtəlif bölgələrində yerləşdirməsinə gedib çıxır. Nəticədə, sonrakı dövrlərdə bütün Cənubi Qafqazın etnik mənzərəsi ermənilərin xeyrinə dəyişmiş, çar hakimiyyətinin himayədarlığından istifadə edən ermənilər regionun iqtisadi həyatının aparıcı elementinə çevrilmişdilər. Bu proseslər, xüsusilə, Bakının həm demoqrafik strukturunda, həm də neft sənayesində özünü daha qabarıq göstərmişdir.

Ümumiyyətlə, Mart qətliamları məhdud ərazidə baş vermiş lokal hadisə deyildir, onun əsas səbəbləri o dövrdə həm dünyada, həm də keçmiş Rusiya imperiyasında və Cənubi Qafqazda cərəyan edən hadisələrlə sıx bağlı idi.

**Aygün ƏZİMOVA:**



– Mart qətliamlarının bəzi məqamlarının tam aydınlaşdırılmaması səbəbindən tarixşünaslığın “soyqırımı niyə baş verdi” sualına cavab tarixi reallığı tamamilə əks etdirmir. Bunun başlıca səbəbi hadisələrin təhlilində faciə amilinin daha çox önə çəkilməsi ilə bağlıdır. Halbuki bu faciə 1917-1918-ci illərdə Azərbaycanda gedən gərgin siyasi mübarizənin doğurduğu acı nəticə idi.

Məlumdur ki, xalqın öz tarixini öyrənməsi zəruri bir məsələ olaraq keçmişin təhlilini aparmaqla bu gün və gələcək üçün dərslər almağa və səhvlərə yol verməməyə xidmət edir. Bu, daha çox yaşanan faciələrə diqqət çəkən bir yanaşmadır. Çünki məhz xalqların öz tarixlərindəki faciələrə münasibəti etnopsixikanın formalaşmasına, onların tarixi talelərinin müəyyənləşməsinə birbaşa təsir göstərir.

Yaşadığı ardıcıl faciələr xalqda “qurban psixologiyası”nın meydana gəlməsinə səbəb ola bilər ki, bu da milli inkişaf yolunda, bir növ, psixoloji maneədir. Bu maneəni aşa bilmədikdə etnopsixoloji səviyyədə aqressivlik artaraq millətin digər xalqlarla konstruktiv münasibətlər qurmasını da əngəlləyir. Mart soyqırımı tarixinə münasibət ilə bağlı da bu cür təhlükə mövcuddur. “Soyqırımı nə səbəbdən baş verdi” sualının tarixşünaslıqda geniş araşdırılması isə tarixi həqiqətlərin üzə çıxarılmasına imkan verir.

Mart soyqırımı tarixi ilə bağlı mühüm məqamlardan biri də budur ki, həmin dövrdə Azərbaycanda baş verən hadisələrin ümum-Qafqaz və ümum-Rusiya, hətta dünya səviyyəsində gedən proseslərlə əlaqəli olması daim diqqətdə saxlanılmalıdır. Bu baxımdan 1917-ci ildə Rusiyada baş verən Fevral inqilabının Azərbaycanda yaşanan ictimai-siyasi proseslərə təsirində diqqətçəkən cəhətlər hansılar idi? Xatırladım ki, Fevral inqilabı çarizm üsul-idarəsinə son qoyaraq Rusiyada yeni proseslərə təkan vermişdi. Çoxmillətli, Rusiyada təbii ki, bu, milli azadlıq hərəkatının başlanılmasında, xalqların öz milli müqəddəratlarını təyin etmək arzularının baş qaldırmasında özünü göstərməli idi. Azərbaycan xalqı üçün də bu, belə olmuşdu. İnqilab xəbəri burada da alqışlanmış, milli və siyasi təşkilatlanmaya start verilmişdi.

Tezliklə Azərbaycan milli hərəkatında milli demokratik, islamçı və sosialist təmayüllərin müstəqil şəkildə inkişafı başlanmışdı. Artıq 1917-ci ilin yayından etibarən milli demokratik hərəkatda Müsavat partiyası avanqarda çevrilməkdə idi. Azərbaycanlılar arasında sosialist təşkilatlar yaransa da, onların sosial bazası zəif idi.

Həmin dövrdə Azərbaycandakı proseslərin hansı istiqamətdə inkişaf edəcəyi Bakı şəhərində baş verənlərdən asılı idi. Şəhərin fəhlə kontingentinin əksəriyyətini müsəlmanlar təşkil etsə də, onların siyasi cəhətdən daha yetkin və fəal hissəsi qeyri-müsəlmanlardan ibarət idi. Onlar da ümum-Rusiya sosialist partiyalarının (eser, menşevik və bolşevik) yerli təşkilatlarına dəstək verirdilər. Öz aralarında ziddiyyətlərə baxmayaraq, bolşeviklər, menşeviklər və eserlər beynəlmiləlçi inqilabi ideologiyanın daşıyıcıları kimi sosialist düşərgəsində yer almışdılar. Bakıda sosialistlərin əsas siyasi mərkəzi isə Bakı Fəhlə və Əsgər Deputatları Soveti (Bakı Soveti) idi.

**Mübariz AĞALARLI:**



– Uzun illər çar Rusiyası və onun siyasi varisi olan bolşevik Rusiyasının işğal etdiyi türk bölgələrində türk dövlətçilik sisteminə, etnosiyasi təsisatlarına, sosial-mədəni həyatına qarşı soyqırımı siyasəti həyata keçirilmişdir. İstər çar Rusiyası dövründə, istərsə də sovet Rusiyasının hakimiyyəti illərində türk xalqları yüz minlərlə insan itkisinə məruz qalmış, türk etnosunun mənəvi və mədəni həyatı yox olmaq təhlükəsi ilə üzləşmişdir.

Xüsusilə də XX əsrin əvvəllərində Rusiya imperiyasında baş verən siyasi, inqilabi dəyişikliklər imperiya tərkibində yaşayan türk xalqlarının da milli oyanışına səbəb olmuş, bu oyanış çar üsul-idarəsinə qarşı milli azadlıq hərəkatına çevrilmişdir. Çar Rusiyası və bu imperiyanın siyasi varisi olan bolşevik Rusiyası türk xalqlarının milli azadlıq hərəkatını yatırmaq üçün ənənəvi metodlarından məharətlə istifadə edərək riyakar imperiya xislətini bütün gücü ilə ortaya qoymuşdur. O, bir tərəfdən özünün hərbi-siyasi gücündən istifadə edərək bu hərəkatı yatırmağa təşəbbüs göstərməklə bərabər, digər tərəfdən türk xalqlarına qarşı digər xalqlardan etnik münaqişə vasitəsi kimi istifadə etmişdir.

XIX əsrdən etibarən Cənubi Qafqaza – Azərbaycana, həmçinin Türküstan bölgəsinə köçürülən, yerləşdirilən və türk xalqlarına qarşı hərbi-siyasi alət kimi istifadə olunan ermənilər bu imkandan yararlanaraq mifoloji mahiyyət daşıyan və gerçək tarixdən tamamilə uzaq olan sərsəm “böyük Ermənistan” ideyasını gerçəkləşdirməyə cəhd etmişlər.

1914-cü ildən başlayaraq Şərqi Anadoluda Osmanlı dövlətinə xəyanət yolu tutaraq Rusiya və digər dövlətlərlə əməkdaşlıq edən ermənilər kütləvi şəkildə cinayətlər törətmişlər. Türk-müsəlman əhaliyə qarşı ermənilərin həyata keçirdiyi soyqırımları sübut edən çox sayda qiymətli sənədlər bu gün Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində qorunub saxlanılır. Arxivdən əldə olunan sənədlərdəki materiallar sübut edir ki, təkcə 1918-1920-ci illərdə ermənilər Şərqi Anadoluda on minlərlə dinc, silahsız türk-müsəlman əhalini, o cümlədən uşaqları, qadınları məhz türk olduğuna görə amansızlıqla qətlə yetirmişlər.

Ermənilər havadarlarının maddi və hərbi-siyasi dəstəyi ilə XX əsrdə Cənubi Qafqazda azərbaycanlılara qarşı da kütləvi qırğınlar və soyqırımı törətmiş, deportasiyalar həyata keçirmişlər. Həmin soyqırımlarının ilk mərhələsi 1905-1906-cı illəri əhatə edir. Tarixə ilk olaraq “erməni-müsəlman qırğınları” kimi düşən bu qanlı faciələri hüquqi-siyasi baxımdan azərbaycanlılara qarşı soyqırımı adlandırmaq onun mahiyyətinə tam uyğun gəlir. Dövrün qaynaqları bu qətliamlar nəticəsində Cənubi Qafqazın 7 şəhərinin böyük dağıntılara məruz qaldığını, 12 qəzada 252 kəndin yandırıldığını və viran qoyulduğunu, 100 min ailənin qəzalardan, bir neçə min nəfərin şəhərlərdəki ev-eşiklərindən didərgin düşdüyünü, 10 min nəfərin məhv edildiyini göstərir.

**Kamran İSMAYILOV:**

– I Dünya müharibəsinin sonlarında Rusiya imperiyasının çöküşü ilə Cənubi Qafqaz, xüsusilə neftlə zəngin Bakı dünya dövlətlərinin (Böyük Britaniya, Fransa, ABŞ, Almaniya, Sovet Rusiyası və Osmanlı imperiyası) rəqabət obyektinə çevrilmişdi. Cənubi Qafqaz müxtəlif güclər üçün təkcə yanacaq bazası deyil, həm də mühüm geosiyasi önəm daşıyan region idi. Bu baxımdan Bakı və Cənubi Qafqaz uğrunda mübarizə 1918-ci ilin əvvəllərindən başlayaraq, təqribən, 1921-ci ilin əvvəllərinə, Cənubi Qafqazın tam sovetləşməsinə qədər davam etmişdir. Təsadüfi deyildir ki, regionda həm 1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində Cənubi Qafqaz dövlət qurumlarının yaradılmasında, həm də 1918-ci ilin mayında 3 respublikanın (Azərbaycan, Ermənistan və Gürcüstan) təşəkkül tapmasında müxtəlif dövlətlər bu və ya digər şəkildə iştirak etmişlər.

Lakin müxtəlif məqsədlər güdmələrinə baxmayaraq, həm Qərb dövlətlərini, o cümlədən müttəfiqi olduğu Almaniyanı, həm də Sovet Rusiyasını nəyin bahasına olursa olsun Türkiyəni (Osmanlı imperiyasını) Cənubi Qafqaza, Bakı neftinə buraxmamaq kimi ümumi maraq birləşdirirdi. Nəticədə o zaman bir-biri ilə müharibə aparan ölkələrin – İngiltərə, Almaniya və sovet Rusiyasının maraqları bir növ üst-üstə düşürdü.

Özünün mövcudluğu üçün fövqəladə önəm daşıyan Bakı neftinə nəzarəti yenidən ələ keçirmək üçün bolşevik Rusiyası bütün vasitələrdən, şəhərdə fəaliyyət göstərən bolşevik və digər rusiyapərəst qüvvələrdən istifadə etməyə çalışırdı. Bakının əldən verilməsinin qarşısını almaq üçün sovet Rusiyası özünün barışmaz rəqibləri daşnaklardan tutmuş, menşeviklərə, eserlərə, hətta monarxistlərə qədər hamı ilə sövdələşməyə hazır idi. Bu baxımdan 1918-ci ilin mart-aprel ayları ərzində Bakı şəhərində və eyni adlı quberniyada baş vermiş qanlı cinayətlər təkcə erməni silahlı qüvvələrinin əməli deyil, həm də bolşevik Rusiyasının regionda möhkəmlənmək üçün həyata keçirdiyi siyasətin məntiqi nəticəsi idi. Ermənilər isə onların milli maraqlarına uyğun gəldiyinə əmin olduqlarına görə bu siyasətin həyata keçirilməsində fəal iştirak etmiş, Bakıda bolşevik-daşnak alyansı təşəkkül tapmışdı.

Beləliklə, Birinci Dünya müharibəsinin gedişatından, 1917-ci ildə və 1918-ci ilin əvvəllərində Rusiyada və Cənubi Qafqazda gedən proseslərdən ruhlanan ermənilər “Böyük Ermənistan” xülyasını həyata keçirmək üçün 1918-ci ilin martında bolşevizm hərəkatından məharətlə istifadə edərək Bakıda və digər bölgələrdə azərbaycanlılara qarşı dəhşətli soyqırımı törətdilər. Bu hadisələr nəticəsində təkcə Bakı şəhərində 3 gün ərzində (30, 31 mart, 1 aprel 1918-ci il) müxtəlif mənbələrə görə, 10 mindən 15 minə qədər günahsız insan məhv edildi.

**Mübariz AĞALARLI:**

– Yeri gəlmişkən, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının və mühacir ziyalıların 31 Mart soyqırımına münasibəti və bu hadisəyə verdikləri siyasi-hüquqi qiymət daha çox diqqət çəkir. Məsələn, Cümhuriyyətin qurucusu, görkəmli ictimai-siyasi xadim M.Ə.Rəsulzadə bu faciəni birmənalı şəkildə qətliam adlandırır və qeyd edirdi ki, “iştə mart faciəsi hürriyyət və muxtariyyət əvəzinə bizə xərabəlik vermək istəyənlərin cinayəti idi. Onun üçün martda kəsilən minlərlə qurbanlar, fəda edilən şəhidlər Azərbaycan fikri – hürriyyət və istiqlalının qurban və şəhidləridir”.

M.Ə.Rəsulzadə 1919-cu ildə “Azərbaycan” qəzetində dərc olunmuş “Unudulmaz faciə!” adlı məqaləsində bu cinayəti “Kərbala faciəsi” ilə müqayisə edərək yazırdı: “Martın 31-i bizə Azərbaycan tarixi-siyasətində unudulmaz iki günü xatırladır. Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz. 31 mart ikinci günlərdən idi. Bu gün tarixin qeyd edə bildigi “Aşura!”, “Varfolomeyski noç – 1572-ci il” kimi xainanə bir surətdə hazırlanmış siyasi faciələrdən birisi idi... Bizə deyə bilərlər ki, hərbi-ümumi səfəhati arasında mart hadisəyi-əliməsini dəfələrlə ötən çoxlu sayda hadisələr vaqe olmuşdur.

Bunun üçün dəxi mart günlərində Bakı sokaklarında icra olunan məzalim və qitalı Ərəbistanın qızğın çöllərində və yaxud Firəngistanın inqilabla qaynar şəhərlərində hadis olan uzaq misalları ilə müqayisə etməyə nə hacət!.. Martda söylədiklərimizdən və söyləmədiklərimizdən daha böyük, daha iyrənc bir hadisə vaqe olmuşdu. İctimai bir inqilab adı və pərdəsilə milli bir ədavət icra edilmişdi. Burjuaziyaya elani-hərb edilib fəhlə və kasıb qırılmışdı. Bu nöqteyi-nəzərdən şaumyanların Bakıda çıxardıqları hadisə leninlərin Petroqrad və Moskvadakı hərəkətlərinə qətiyyən bənzəməzdi. Orada sinfi bir hərb, burada isə sinif hərb adı altında milli bir qətl, bir qətliam icra olunuyordu...”.

Azərbaycanın görkəmli ictimai-siyasi xadimlərindən biri, mühacir aydınlarından olan Mirzə Bala Məmmədzadə “Milli Azərbaycan hərəkatı” adlı əsərində yazırdı ki, “Şaumyanın Tiflisdə inqilab təşəbbüsü nəticə verməmiş, gürcü əsgərini Seym əleyhinə qaldıra bilməmişdi. Bundan sonra Şaumyan öz qərargahını Bakıya köçürmüşdü. Burada şərait əlverişli idi. Şəhərdə cəbhələrdən qayıtmış 20-25 minlik silahlı erməni və rus əsgəri vardı. Bundan başqa, Xəzər dənizində rus hərbi donanması, Bakının neft mədənlərində rus və erməni fəhlələri vardı.

Şaumyan bu qüvvələrə arxalanaraq martın 31-də qırğına başladı və üç gecə davam edən, 15 min silahsız və günahsız türkün ölümü ilə nəticələnən bu qırğın zamanı Bakı havadan, dənizdən və qurudan bombardman edildi, məscidlər dağıdıldı, maarif və mədəniyyət müəssisələri, mətbəə, teatr, məktəb, kitabxana və s. od vurularaq yandırıldı”.

Azərbaycanın Cümhuriyyət quruculları bu qətliamın nə qədər ağrılı-acılı olmasına rəğmən, 31 martın böyük bir qəhrəmanlıq dastanı olduğunu da qeyd edirdilər. M.B.Məmmədzadə yazırdı ki, “1918-ci ildə 31 mart faciəsini izləyən, 28 may İstiqlal elanı günü ilə 15 sentyabr zəfərlərinin böyüklüyünü anlamaq və yaşamaq üçün 31 mart faciəsi unudulmamalıdır. Milli oyanışımız, çarlığın süqutundan sonra siyasi zəfərlərimiz, müştərək milli arzumuzun “Azərbaycan istiqlalından” ibarət olduğunun hamı tərəfindən anlaşılması və İstiqlal elanı və istiqlal üçün həyata keçirilən qanlı mübarizə bizə nə kimi qurbanlar bahasına başa gəlmişdi? Bunu anlamaq üçün “31 mart” kimi sadə bir sözün ifadə etdiyi faciəvi mənanı qavramaq lazımdır”.

**Aygün ƏZİMOVA:**

– 1917-ci il martın 6-da təşkil olunan və bolşevik S.Şaumyanın sədr seçildiyi Bakı Sovetində sosialistlərlə yanaşı, erməni fəhlələrin dəstəyini alan millətçi “Daşnaksütyun” partiyası da təmsil olunmuşdu. Lakin çoxminlik müsəlman fəhlələri arasında Bakı Sovetinin üzvü yox idi. Sonradan Müsavat partiyası məhz sovetlərin inqilabi proseslərdə oynayacağı rolu nəzərə alaraq burada təmsil olunmaq üçün mübarizə aparmışdı. Lakin sosialistlərin ümumi mövqeyi bu idi ki, müsəlmanlar siyasi cəhətdən qeyri-yetkindirlər və bu səbəbdən də onlar inqilabi proseslərdə fəal rol oynaya bilməzlər. Məhz bu yanaşma sosialistlərlə milli qüvvələr arasında ziddiyyətlərə yol açmışdı. Hətta 1917-ci il oktyabrın 22-də Bakı Sovetinə seçkilərdə Müsavat partiyası qələbə qazansa da, sosialistlər bu nəticələri qəbul etməyərək, seçkilərin ləğvinə nail olmuşdular.

# bəşəri cinayəti və xalqımızın qan yaddaşı

Sosialistlərin milli amilləri nəzərə almaması ziddiyyətlərin daha da gərginləşməsinə səbəb olurdu. Millətçi Daşnaksütyun partiyası Bakı Sovetində kifayət qədər möhkəm mövqe qazansa da, Müsavat partiyası "əksinqilabçı" və ya "mülkədar, bəy partiyası" adlandırılaraq sosialistlər, xüsusən bolşeviklər tərəfindən hədəfə alınırdı. Müsavat partiyasının Azərbaycanın muxtariyyətinə nail olmaq üçün başladığı siyasi mübarizə isə onları ciddi şəkildə narahat edirdi.

Ümumiyyətlə, Fevral inqilabından sonra Rusiyanın ucqarlarında və eləcə də Bakıda milli və beynəlmiləl ideologiya arasında mübarizə güclənməkdə idi. Mərkəzdən fərqli olaraq ucqarlarda bu mübarizəyə bütün sferalarda milli amillər ciddi təsir etmişdi.

1917-ci il Rusiyada Oktyabr çevrilişindən sonra isə Cənubi Qafqazda və Azərbaycanda ictimai-siyasi vəziyyətin gərginləşməsi siyasi mübarizəni də kəskinləşdirmişdi. Bütün Rusiyanı bürüyən iqtisadi-siyasi böhran bu bölgədə milli ziddiyyətlər səbəbindən daha da artmışdı. Bu zaman Rusiyada Fevral inqilabından sonra Cənubi Qafqazı idarə edən Xüsusi Zaqafqaziya Komitəsi bolşevik çevrilişini tanımayaraq devrilmiş, əvəzində regionda idarəçiliyi öz üzərinə götürən yeni qurum – Zaqafqaziya Komissarlığı yaranmışdı. Gürcü, azərbaycanlı və erməni siyasi qüvvələrinin təmsil olunduğu bu orqan da bolşevik hakimiyyətini tanımırdı. Çevrilişdən sonra bölgədə milli şuraların rolu daha da artmağa başlamış, milli muxtariyyətlərin yaradılmasına ümidlər də artmışdı.

Beləliklə, 1917-ci il noyabrın 9-12-də Zaqafqaziya Müsəlman Milli Komitəsi tərəfindən Bakıda keçirilən müsəlman milli komitələrinin konfransında Rusiya Federasiyasında yeni muxtar siyasi vahid yaratmaq məqsədilə Milli Müəssislər Məclisinin çağırılması barədə qərar verilmişdi. Erməni siyasi qüvvələri də vəziyyətdən istifadə edərək öz siyasi məqsədlərinə çatmağa, erməni muxtariyyətinə nail olmağa çalışırdılar.

**Kamran İSMAYILOV:**

– Bu dövrdə cərəyan edən hadisələrin gedişi ilə bağlı onu demək olar ki, 1918-ci ilin Mart soyqırımı hadisələri bolşeviklər tərəfindən planlaşdırılmış və erməni daşnaklarının fəal dəstəyi ilə həyata keçirilmişdir. Həlak olanların əksəriyyəti küçə döyüşləri zamanı deyil, öz evlərində cinayətkar erməni dəstələrinin əli ilə öldürülmüşdür.

Bakı Sovetinin silahlı birləşmələri azərbaycanlıların yaşadıqları məhəllələri ələ keçirdikdən dərhal sonra 5-10 nəfərdən ibarət bu qruplar həmin ərazilərdə guya "təmizləmə" əməliyyatlarına başlayırdılar. Bu "təmizləmə"lər isə talan, qarət və dinc azərbaycanlıların kütləvi qətli ilə müşayiət olunurdu. Erməni silahlı dəstələri dinc müsəlmanları öldürməzdən əvvəl onları müxtəlif işgəncə və təhqirlərə məruz qoyurdular. Bu haqda Fövqəladə Təhqiqat Komissiyasının materiallarında tükürpədici faktlar mövcuddur. Onları bu gün də həyəcansız oxumaq mümkün deyildir. Məsələn, Bakının məşhur Mayılov teatrı yüzlərlə dinc azərbaycanlının saxlanıldığı, sonra isə kütləvi güllələndiyi qeyri-rəsmi həbsxanaya çevrilmişdi. Qətlə yetirilmiş insanların paltarları və qiymətli əşyaları talan olunmuş, meyitlər üzərində təhqiramiz hərəkətlər edilmişdi.

Azərbaycanlılara qarşı bu vəhşiliklərin törədilməsində əsas məqsəd onların gözünü qorxutmaq, Bakı və Yelizavetpol quberniyalarının ərazilərini onlardan təmizləmək idi. Sovet Rusiyasının əsas məqsədi Cənubi Qafqazı yenidən Rusiyanın tərkibinə qatmaq idi. Hələlik isə bolşeviklər Bakı, Abşeron yarımadası və bütün Xəzəryanı ərazilər üzərində öz hakimiyyətlərini qurmaq əzmində idilər. Təsadüfi deyildir ki, o dövrdə bolşeviklərin Qafqaz siyasətinin əsas fiqurlarından olan İ.Stalin Bakı neft ərazilərinin iqtisadi baxımdan Azərbaycanın qalan hissəsi ilə əlaqəsi olmadığını iddia edirdi. Bu mövqeyi Bakı Sovetinin rəhbəri S.Şaumyan da dəstəkləyirdi. O, öz əməllərinə haqq qazandırmaq üçün Azərbaycan milli hərəkatının qalib gələcəyi təqdirdə Bakının Azərbaycanın paytaxtı elan edəcəyi ilə əsaslandırmağa çalışırdı.

Bakının Azərbaycandan ayrılması ideyası "Daşnaksütyun" partiyasının da maraqlarına uyğun idi, çünki bu, onların gələcək erməni dövləti üçün ərazi iddialarının həyata keçməsini asanlaşdırırdı. Beləliklə, bu proses, faktiki olaraq, Azərbaycanın siyasi xəritədən silinməsi cəhdi idi. Lakin Azərbaycan milli qüvvələrinin fədakarlığı nəticəsində bu planın həyata keçirilməsinin qarşısı alındı.

**Mübariz AĞALARLI:**

– Xalqımızın bu qətliama münasibəti barədə təkcə onu demək olar ki, 1918-ci ilin 31 Mart soyqırımı Azərbaycan türklərinin milli istiqlal mübarizəsində sarsıdıcı faciə olmaqla bərabər, həm də 28 May İstiqlalına aparan yolun siyasi və mənəvi katalizatoru rolunu oynamışdır. Bu qanlı hadisələr xalqın muxtariyyət ideyasından tam müstəqillik idealına keçidini sürətləndirən bir mayak funksiyasını yerinə yetirmişdir.



Eyni zamanda, Mart qırğınları 15 sentyabr Bakının azad olunması ilə nəticələnən hərbi-siyasi hərəkatın tarixi zərurətini doğurmuşdur.

Çağdaş tariximizdə 20 Yanvar hadisələri dövlət müstəqilliyimizin bərpası üçün hansı mənəvi təməli təşkil edirdisə, 1918-ci ilin Mart hadisələri də ilk respublikamızın qurulması yolunda eyni dərəcədə həlledici mərhələ idi. Bir sözlə, 31 Mart xalqımızın əyilməz iradəsinin rəmzinə çevrilərək, bizi "İstiqlal bəyannaməsi"nə qovuşduran ilk böyük and yeridir. Azərbaycan xalqı bu faciəni heç zaman unutmamalı, onu öz qəlbinə əbədi həkk etməlidir. Eyni zamanda, millətimiz bu qətliamı sadəcə bir hüzn günü kimi deyil, ruhumuzun yenilməzliyini təsdiq edən hürriyyət, istiqlal, qəhrəmanlıq zirvəsi kimi ucaltmağı bacarmalıdır.

**Aygün ƏZİMOVA:**

– 1917-ci il noyabrın 9-12-də Bakıda keçirilən Zaqafqaziya Müsəlman Milli Komitəsi Rusiya Federasiyasında yeni muxtar siyasi vahid yaratmaq məqsədilə Milli Müəssislər Məclisinin çağırılması barədə qərar verdiyi və erməni siyasi qüvvələrinin də bu vəziyyətdən istifadə edərək öz siyasi məqsədlərinə çatmağa, erməni muxtariyyətinə nail olmağa çalışdıqları belə bir şəraitdə Qafqaz cəbhəsində Rusiya ilə Türkiyə arasında hərbi əməliyyatlar gedirdi. Bolşeviklər hakimiyyətə gələn kimi dünya müharibəsindən çıxdıqlarını elan etmişdilər. Məhz bu addım Qafqazın taleyinə ciddi təsir etmişdi.

Rusiyanın Almaniya ilə hərbi əməliyyatların dayandırıldığını elan etdikdən qısa müddət sonra, 1917-ci il dekabr ayının 5-də Zaqafqaziya Komissarlığı və Osmanlı hərbi komandanlığı arasında Ərzincanda atəşkəs barədə saziş imzalanmış və Qafqaz cəbhəsində də hərbi əməliyyatlar dayandırılmışdı. Bundan sonra Qafqaz cəbhəsindəki rus ordusunun tərxis olunmasına başlanılmışdı. Geri dönən əsgərlər Tiflis-Bakı dəmir yol marşurutu boyu müsəlman əhaliyə qarşı aqressiya nümayiş etdirirdilər. Rus ordusunun bölgədən çıxması burada anarxiya və özbaşınalığın da artmasına yol açırdı. İqtisadi böhran, xüsusən ərzaq qıtlığı yerlərdə qarətlərə səbəb olurdu.

Bu məqamda belə bir sual da verilə bilər. Qafqaz cəbhəsində hərbi əməliyyatlar dayansa da, burada hərbi təşkilatlanma prosesi nə səbəbdən güclənirdi və baş verənlərə xarici amillər necə təsir edirdi? Ona görə ki, bu zaman rus ordusunun bölgədən çıxması burada Mərkəz blokunun üzvləri olan Türkiyə və Almaniyanın mövqeyini gücləndirə bilərdi və bu da Rusiya kimi müttəfiqini itirən Antantanı ciddi narahat edirdi. Antanta dövlətləri Türkiyə ilə müharibənin davam etdirilməsində maraqlı idilər. Bu səbəbdən də Böyük Britaniya erməni hərbi qüvvələrinin təşkil edilməsi üçün maliyyə yardımı göstərməyə qərar vermişdi.

Bu dövrdə həm Türkiyə, həm də Britaniya kəşfiyyatı öz təsirlərini artırmaq üçün ciddi fəaliyyətə başlamışdılar. Türkiyə burada öz mövqeyini möhkəmləndirmək və gələcək strateji məqsədlərə nail olmaq üçün ittihadi-islam ideyası altında yerli müsəlmanların təşkilatlanmasını təmin etmək üçün fəaliyyətini gücləndirmişdi. Bu məqsədlə "İttihad və Tərəqqi partiyasının Qafqaz Şöbəsi" adlı bir təşkilat yaradılmış və onun rəhbəri kimi Həsən Ruşeni 1917-ci ilin dekabrında gizli yolla Bakıya göndərilmişdi. Britaniyanın Bakıdakı konsulu olan R.Makdonell isə ingilislərin bölgəyə gəlişinə münbit şərait yaratmaqla məşğul idi. Bir sözlə, bolşevik hakimiyyətini tanımayan Cənubi Qafqazın bir tərəfdən Türkiyə, digər tərəfdən Böyük Britaniya təsir dairəsinə keçmək təhlükəsi yaranmışdı.

Belə olan halda Qafqazı, ilk növbədə, neft Bakısını itirmək istəməyən Rusiya Xalq Komissarlığının qərarı ilə 1917-ci il dekabrın 16-da Bakı Sovetinin rəhbəri S.Şaumyan Qafqaz üzrə Müvəqqəti Fövqəladə Komissar təyin edilmiş və Bakı Soveti üzərinə diyarda sovet hakimiyyətini bərqərar etmək vəzifəsi qoyulmuşdu. Lakin Rusiya XKS hakimiyyətini qəbul etməyən Zaqafqaziya Komissarlığı buna razı deyildi.

Dekabrın 29-da Rusiya XKS tərəfindən "Türkiyə Ermənistanı" haqqında 13 saylı dekret elan edilmiş və onun həyata keçirilməsi də Qafqazın fövqəladə komissarı Şaumyana həvalə olunmuşdu. Bolşeviklərin bu dekreti isə onsuz da ağır olan vəziyyəti daha da mürəkkəbləşdirirdi. Dekretin verilməsində Şaumyan xüsusi xidmət göstərmişdi.

**Kamran İSMAYILOV:**

– 1918-ci ilin əvvəllərində Azərbaycanın yaşayış məntəqələrində vəziyyət mürəkkəb olaraq qalırdı. Bakı şəhəri, eləcə də Zəngəzur və İrəvan əraziləri istisna olmaqla Şimali Azərbaycanın əksər bölgələri Azərbaycan milli qüvvələrinin nəzarəti altında idi. Bu isə bütün Cənubi Qafqazı əl keçirməyə can atan Rusiyanın bolşevik hakimiyyətinin və onun Bakıdakı təmsilçisi roluna iddia edən Bakı Sovetinin planlarına ciddi təhlükə yaradırdı. Belə şəraitdə Bakı bolşevikləri bütün anti-Azərbaycan, xüsusən erməni-daşnak qüvvələri səfərbər edərək milli hərəkatı və onun aparıcı qüvvəsi olan Müsavat partiyasını məhv etmək üçün 1918-ci il mart ayının sonu – aprel ayının əvvəllərində kütləvi qırğınlar törətdilər. Bakı şəhərində azərbaycanlıların soyqırımını törədən bolşevik-daşnak qüvvələri öz hakimiyyətlərini Azərbaycanın bölgələrinə də yaymaq niyyəti ilə fəal hərəkətə başladılar.

Bakıdan sonra bolşevik-daşnak hücumlarının ilk ünvanı Şamaxı qəzası və Şamaxı şəhəri oldu. Onlar bu bölgəyə bütün Azərbaycanı ələ keçirmək üçün bir plasdarm kimi baxırdılar. Buna görə də qəzanın tezliklə ələ keçirilməsi üçün erməni və malakan əhalisi silahlandırılırdı.

Həmin dövrdə Şamaxı qəzasında 229 kənd var idi ki, bu yaşayış məntəqələrindən 196-da azərbaycanlılar, 21-də ermənilər, 11-də rus və malakanlar, 1-də isə yəhudilər yaşayırdılar. Şamaxı şəhəri də daxil olmaqla kəndlərlə birlikdə, bütövlükdə, Şamaxı qəzasının əhalisi 161 min 552 nəfər idi ki, bunun da 72,9 faizini (117 min 706 nəfər) müsəlmanlar, 13,78 faizini (22 min 350 nəfər) ermənilər, 12 faizini (19 min 393 nəfər) ruslar, 1,32 faizini isə Qafqaz dağlıları və yəhudilər təşkil edirdi.

Şamaxı qəzasını ələ keçirmək üçün Bakı sovetinin bolşevik-daşnak rəhbərliyi bura külli miqdarda silah-sursat göndərmişdi. Bunu həmin dövrün materialları və şahid ifadələri də təsdiq edir. S.Şaumyan RSFSR XKS-ə göndərdiyi 13 aprel 1918-ci il tarixli məktubunda Şamaxıya artilleriyanın və pulemyotların onun göstərişi ilə göndərildiyini təsdiq edir. Bundan savayı, mart ayının ortalarında Bakı Soveti Şamaxıya ermənilərdən ibarət 2 min nəfərlik hərbi dəstə və 60 araba silah da göndərmişdi.

Şamaxı müsəlmanlarının dəhşətli soyqırımına məruz qalmalarını rus, hətta erməni millətindən olan şahidlər (N.Asriyants) öz xatirələrində etiraf etmişlər. 4 gün davam etmiş erməni talanları zamanı şəhərin abad və zəngin hissəsi olan "Piran-Şirvan" məhəlləsi tamamilə dağıdılmış, 14 məscid, o cümlədən Qafqazın ən qədim məscidi olan 800 illik Cümə məscidi yandırılmışdı. FTK-nın heç də tam olmayan hesablamalarına görə, təkcə Şamaxı şəhərində ermənilər tərəfindən 10 min insan öldürülmüş, şəhər tamamilə dağıdılmışdı. Qəzanın 110 müsəlman kəndi yandırılmış və talan edilmiş, 10 min nəfərdən artıq müsəlman qətlə yetirilmişdi.

Şamaxı qəzasını ələ keçirdikdən sonra daşnak və bolşevik dəstələri Göyçay qəzasına doğru hərəkət etmiş, burada da kütləvi vəhşiliklər həyata keçirmişlər. 1918-ci il martın sonunda isə erməni-bolşevik qüvvələri tərəfindən Bakıdan "Evelina" gəmisində Lənkərana yola düşən müsəlman alayı heyətinin tərk-silah edilməsi ilə başlanılan soyqırımı digər ərazilərdə olduğu kimi, Lənkəran-Muğan bölgəsində də həyata keçirilmiş, bu coğrafiyada yerli müsəlman əhaliyə amansız divan tutulmuşdur. Bəzi mənbələrə görə, təkcə Lənkəran şəhərində 300-ə yaxın müsəlman öldürülmüşdü. Bu hadisələrdən sonra Lənkəranda hakimiyyət antimilli qüvvələrin əlinə keçmiş, burada sovet hakimiyyəti qurulmuşdu.

Bakıdan Cavad qəzasına göndərilmiş silahlı dəstələr aprelin 24-də Salyan şəhərini ələ keçirərək burada sovet hakimiyyətinin qurulduğunu elan etdilər. Aprelin son ongünlüyündə isə qəzanın əksər kəndlərinin əhalisi daşnak-bolşevik dəstələrinin vəhşiliklərinə məruz qaldı. Şaumyanın təklifi ilə Quba qəzasını ələ keçirmək və Şimali Qafqazla əlaqələri bərpa etmək üçün bura əsasən ermənilərdən ibarət daşnak Hamazaspın başçılığı ilə 2 minlik cəza döyüş dəstələri və zirehli qatar göndərilmişdi. Qubaya silahlı müdaxilə etmiş Hamazaspın rəhbərlik etdiyi daşnak silahlı birləşmələrinin dinc əhaliyə təcavüzü nəticəsində Quba şəhəri tamamilə dağıdılmış, 2800 türk-müsəlman öldürülmüşdü. Qəzanın 168 kəndi ermənilər tərəfindən dağıdılmışdı.

Bütün bunlardan sonra bolşevik-daşnak güruhu tez bir zamanda bütün Azərbaycanda və Cənubi Qafqazda, xüsusən Gəncədə hakimiyyəti ələ keçirmək niyyəti güdürdülər, bunun üçün qərb istiqamətində hücum planı da hazırlanmışdı. Şaumyan Leninə yazdığı 23 iyun 1918-ci il tarixli məktubda təəssüflə bildirirdi ki, biz Bakıdakı vətəndaş müharibəsindən sonra az qüvvə ilə Gəncəyə hərəkət etmiş olsaydıq, daha yaxşı olardı. Bolşeviklər regionda hakimiyyəti ələ keçirmək üçün əsas ümidlərini sovet Rusiyası ilə yanaşı, ermənilərin üsyanı ilə bağlayırdılar.

**Aygün ƏZİMOVA:**

– Mart soyqırımı ərəfəsində Azərbaycan milli qüvvələrinin hərbi gücü ilə bağlı bəzi məqamları da diqqətə çatdırmaq istərdim. Belə ki, atəşkəs imzalansa da, Türkiyə ilə hələ yekun sülh müqaviləsi bağlanmamışdı. Belə olduqda qərara alınmışdı ki, Qafqaz cəbhəsini tərk edən rus ordusunu burada yaradılacaq milli hərbi hissələr əvəz etsin. Bunlar gürcü, erməni, müsəlman, eləcə də rus milli hissələri olmalı idi. Bu səbəbdən də 1917-ci ilin dekabrında Zaqafqaziya Komissarlığının qərarı ilə Millətlərarası Hərbi Şura yaradılmışdı.

Məlum olduğu kimi, gürcü və ermənilərin rus ordusunda çox sayda əsgərləri var idi. Azərbaycanlılar isə çar Rusiyası dövründə hərbi mükəlləfiyyət daşımaqdan azad edilməklə orduda xidmətdən məhrum olunmuşdular. Bu səbəbdən də əgər erməni və gürcü milli hərbi hissələrini təşkil etmək asanlıqla baş verdisə, azərbaycanlılar üçün bu iş böyük çətinliklər yaratmışdı. Buna rəğmən, Azərbaycan hərbi qüvvələrinin də təşkili başlanmışdı. Bu qüvvələrin əsasını I Dünya müharibəsi zamanı Qafqaz xalqlarından təşkil edilən süvari Vəhşı diviziyanın tərkibində olan Tatar süvari alayı təşkil edirdi. Noyabrın əvvəlində Gəncədə Müsəlman hərbçilərinin qurultayı keçirilmiş, Bakıda isə hərbi kadrlar hazırlamaq üçün Müsəlman praporşiklər məktəbi açılmışdı. Bir qədər sonra – dekabrın 6-da Tiflisdə Qafqaz cəbhəsi Müsəlman hərbçilərinin qurultayı çağırılaraq Ə.Əsədullayevin sədr olduğu Qafqaz Müsəlman Hərbi Şurası da yaradılmışdı.

Daha sonra isə Əliağa Şıxlinskinin komandanlığı altında Müsəlman Milli Korpusunun təşkili başlanmışdı. 1918-ci il yanvarın 9-da Zaqafqaziya dəmir yolunun Şamxor stansiyasında rus ordusu əsgərlərinin tərk-silah edilməsi nəticəsində 20 top, 70 pulemyot və 15 min tüfəng əldə edə bilmişdilər. Lakin bu hadisə bolşeviklər tərəfindən milli qüvvələrə qarşı siyasi təbliğatda qarayaxma üçün istifadə edilmişdi. Azərbaycan milli qüvvələrinin təbii haqqı olaraq, öz hərbi qüvvələrini təşkil etmək cəhdi bolşeviklər tərəfindən əks-inqilabın silahlanması kimi təqdim edilirdi. Halbuki, eyni proses daha sürətlə və kütləvi şəkildə erməni və gürcü milli şuraları tərəfindən həyata keçirilirdi.

Yeri gəlmişkən, Brest-Litovsk sülh müqaviləsinin regiondakı prosesləri dəyişməsinə gəldikdə isə deyə bilərəm ki, 1918-ci il martın 3-də sovet Rusiyası ilə Almaniya arasında adıçəkilən sənədin imzalanması Cənubi Qafqazda siyasi qüvvələr arasında münasibətlərin kəskinləşməsinə təsir etdi. Bu müqaviləyə görə, sovet Rusiyası Qars, Ərdahan və Batumdan Osmanlı dövlətinin xeyrinə imtina edir və bununla da Osmanlı dövləti ilə Zaqafqaziya Komissarlığını üz-üzə qoymuş olurdu. Komissarlıq bu ərazilərin Türkiyəyə keçməsi ilə razılaşmırdı. Belə olan halda Türkiyə hərbi əməliyyatları bərpa etmiş Zaqafqaziya Seymini Osmanlı dövləti ilə danışıqlara başlamağa məcbur etmişdi.

Osmanlı dövləti Cənubi Qafqazın öz müstəqilliyinin elan olunmasını təklif edirdi. Osmanlı dövlətinin köməyinə ümid edə bilən Azərbaycan milli qüvvələri ilə Osmanlıya qarşı olan erməni və gürcülər arasında kəskin fikir ayrılığı yaranmışdı. Azərbaycanlılar Türkiyənin müttəfiqi və Qafqazın Rusiyadan ayrılmasının əsas təqsirkarları hesab olunurdular. Bir sözlə, Azərbaycan milli qüvvələrinə qarşı mübarizə bolşeviklər və erməni siyasi qüvvələrinin ümumi hədəfinə çevrilmişdi. Şübhəsiz ki, bolşevklər arasında ermənilərin kifayət qədər yer tutması hər iki təşkilat arasında münasibətə təsir etmişdi.



*"Dəyirmi masa" söhbətini çapa hazırladı:*
***Vaqif BAYRAMOV,***
***Səbuhi MƏMMƏDOV (foto)***
***XQ***

*Təqvim yada salır*

# Ədəbi mübarizənin öncül şairi

**XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Rəsul Rzanın əbədiyyətə qovuşmasından 45 il keçir. Şairin zəngin yaradıcılığı zamanın ruhunu, insanın daxili aləmini və cəmiyyətin mürəkkəb çalarlarını əks etdirməklə müasirliyini daim qoruyub saxlayır. 17 yaşında "Bu gün" adlı şeiri ilə ədəbiyyat aləminə gələn şair müasirliyi, yeniliyə açıq baxışını və üsyankar çağırışlarını ortaya qoyur.**



Rəsul Rza poeziyası həyatın özü kimi zahirdə sadə, daxildə isə sonsuz dərinliklər və ziddiyyətlər daşıyan bir aləmdir. "Poeziya zəhmət və ilhamdır" anlayışı onun yaradıcılığı haqqında dolğun təsəvvür yaradır: "Deyilənə görə, mən 1910-cu ildə mayın 19-da anadan olmuşam. Deyilənə görə deyirəm, çünki bu tarix düzgün olmaya bilər".

Gənc Rəsulun Gəncə Sənaye və Ziraət Texnikumuna qəbul olunmaq üçün yazdığı ərizədə ədəbi dilin yüksək səviyyədə olması maarifçi, "Molla Nəsrəddin" jurnalının yaradıcılarından biri olmuş Ömər Faiq Nemanzadənin diqqətini cəlb edir və söz dünyasının qapıları onun üzünə açılır.

Abdulla Faruq, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Mehdi Hüseyn, Səməd Vurğun, Mikayıl Rəfili, Əli Nazim, Mirzə İbrahimovla dostluq münasibətləri onun yaradıcılıq dünyasını daha da zənginləşdirir. "Gənc işçi" qəzeti gənc qələm sahibləri üçün ədəbi məktəb olur. Şair "Gənc işçi" haqqında yazırdı:

***İndi çörək dükanıdır***
***o ilk tanışlığımız,***
***ilk həyat məktəbimiz,***
***ilk mübarizə meydanımız sevincimiz,***
***həyəcanımız olan yer.***

Rəsul Rza ilk şeirlərindən novatorluq axtarışları ilə seçilirdi. Gənc yaşlarından o, yeni mövzulara, yeni düşüncə tərzinə üz tutur, dövrün ideoloji və ictimai çağırışlarına biganə qalmırdı. 1931-ci ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunan "Bolşevik yazı" şeirində isə görkəmli şairin novatorluq ənənələri bir daha sübut edilir. Görkəmli yazıçı və tənqidçi Mehdi Hüseyn bu şeirin təsir gücünü xüsusi qeyd edərək "Yaradıcılıq ixtilaflarımız" məqaləsində onun məşhur misralarını epiqraf kimi seçmişdi:

***Mübarizə bu gün də var, yarın da.***
***Mən də onun ən ön sıralarında.***

Rəsul Rzanın dünyanın digər regionlarında baş verən hadisələrdən təsirlənərək qələmə aldığı "Çapey", "Cəlladları durdur", "Madrid", "Həbəşistan" və s. şeirləri onun bəşəri ağrılara həssaslığını əks etdirirdi.

1941-ci ilin sərt qışı şairin həyatında yeni səhifə açır. Müharibə dövrü şairin qələmində də öz əksini tapır, Səməd Vurğun, Süleyman Rüstəm kimi şairlərlə birgə onun da şeirləri dillər əzbəri olur. Onun "And" şeirində xalqın, vətənin, torpağın səsi əks-səda verirdi.

Artıq yetkin şair kimi tanınan Rəsul Rza İkinci Dünya müharibəsi illərində qələm dostları ilə birlikdə Krıma yollanır və burada hərbi müxbir kimi fəaliyyət göstərməyə başlayır. "Döyüşən Krım" qəzetində çalışan şair tez-tez ön cəbhəyə gedir, səngərdəki həyatın ağrı-acısını, əsgərlərin taleyini yaxından görür. Bu dövrdə qələmə aldığı "Bəxtiyar" şeiri şairin yeni poetik uğuru idi. Onun şeirlərinin hər misrasında vətən sevgisi, dözüm və ümid aşılanır.

Novator şairin müharibə illərinin məhrumiyyətlərini əks etdirən "Vəfa" pyesi 1943-cü ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulmuş, tənqidçilər tərəfindən yüksək dəyərləndirilmiş, tamaşaçıların yaddaşında silinməz iz buraxmışdır. Rəsul Rza bu dramda müharibə dövründə insanların mənəvi dünyasını Bahadır və Vəfa kimi obrazların timsalında təsvir etmişdir. Xalq şairi Səməd Vurğun deyir ki, "Rəsul Rza romantik qəlbiylə yazdığı "İntiqam" şeirində insanları, yerləri və göyləri, dağları və daşları belə intiqama – faşist cəlladlarının başına od yağdırmağa çağırdı".

Rəsul Rzanın novatorluq axtarışları "Pəncərəmə düşən işıq" (1962), "Duyğular... düşüncələr" (1964), "Dözüm" (1965) kitablarında daha geniş yer tutur.

Şairin 1960-cı illərdə qələmə aldığı "Qızılgül olmayaydı" əsəri 1937-ci il repressiyasının qurbanı, qüdrətli şair Mikayıl Müşfiqin xatirəsinə həsr olunmuşdur.

"Qızılgül olmayaydı" lirik-epik üslubun təsirli nümunələrindəndir. Oxucu həmin dövrdə qorxu ilə ümidin, itki ilə xatirənin arasında qalmış insanların taleyinə yanıb. Əsərdə qızılgül obrazı rəmzi məna daşıyır. Şair, sanki, bu obraz vasitəsilə oxucuya sual verir: əgər bu qədər gözəllik məhvə məhkumdursa, onda həyatın mənası nədir?

1960-cı illərdə Rəsul Rza poeziyasında yeni, fəlsəfi lirika dövrü başlayır. Şairin yazdığı ayrı-ayrı şeirlər bir-biri ilə səsləşir. Bu mərhələnin zirvəsi sayılan "Rənglər" silsiləsi isə onun poetik təfəkkürünün parlaq ifadəsidir. Burada hər bir çalar insan ruhunun müxtəlif qatlarının poetik açılışıdır. Şair deyir ki, bu rənglərin kökü xalqın yaddaşına, folkloruna bağlıdır. Türk dünyasının böyük şairi Nazim Hikmət bu silsilə haqqında yazırdı ki, Rəsul Rza poeziyada tamamilə yeni bir yol açıb. Həqiqətən də şair poetik düşüncələri ilə sözün qüdrətini göstərir.

"Ağ rəng"i görün şair necə mənalandırıb:

***Yuxulu körpənin təbəssümü.***
***Ümid.***
***Təmənnasız yaxşılıq.***
***"Sizdə xərçəng yoxdur"***
***sözlərinin deyildiyi dəqiqə.***

Müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Ramiz Rövşən Rəsul Rzanın milli ədəbiyyatımızın inkişafındakı rolunu poeziyamızda intibahın başlanğıc nöqtəsi kimi dəyərləndirir.

Xalq şairinin yaradıcılığı bütöv bir dövrün düşüncəsini əks etdirir.

Ömrünün 71-ci baharında – 1981-ci il aprelin 1-də əbədiyyətə qovuşsa da, xatirəsi daim ehtiramla yad olunur.

Şair poetik taleyinə də biganə qalmamışdır:

***Hansı şeirim,***
***hansı sözüm***
***yaşayacaq məndən sonra?***
***Mən bilmirəm,***
***eldən soruş!***

Rəsul Rzanın zəngin yaradıcılığı, yenilik ruhu, milli dəyəri və müasirliyi ilə ölməzlik qazanıb.

***Ləman TƏHMƏZ***
***XQ***

*Ənvər Əlibəyli – 110*

**Gözəl bir yaz günü anadan olan şair-tərcüməçi Ənvər Əlibəyli bahar çayları kimi coşqun yaradıcılığı ilə XX əsr Azərbaycan ədəbiyyatında layiqli yer tutub. Ulu öndər Heydər Əliyev onun haqqında deyib: "Mən Ənvər Əlibəylini çox böyük hörmətlə xatırlayıram. O, həm yaxşı jurnalist, həm yaxşı şair idi. Həm də televiziyaya yaxşı rəhbərlik edirdi".**

# "Sevgi himninin müəllifi"



Ənvər Əlibəyli əvvəl tibb texnikumunda, ardınca Xarici Dillər İnstitutunun fəhlə fakültəsində, daha sonra APİ-nin ədəbiyyat fakültəsində təhsil alıb. Hər üç sahə onun yaradıcılığında rol oynayıb və necə deyərlər, üçü birində cəmləşib: tibb elmində musiqi ilə müalicənin mümkün olduğunu öyrənib, musiqi dilini yaxşı bilib və ədəbiyyat nəzəriyyəsini dərindən mənimsəyib deyə, bütün əsərləri yüksək səviyyəli olub.

Ənvər Əlibəyli İkinci Dünya müharibəsindən əvvəl Azərbaycan radiosunda çalışıb. Müharibəyə 416-cı Taqanroq Azərbaycan Diviziyasının tərkibində topçu zabit kimi qatılıb. "Dnepr" adlı şeirində yazıb:

***Qızdı ara, qopdu tufan,***
***Yağı - damla, biz - bir dəniz.***
***Sənin üçün candan keçdik,***
***Həyat şirin, sənsə əziz.***
***Vurduq, düşmən döndü külə,***
***Açdıq sübhü gülə-gülə.***

Yeri gəlmişkən, Xalq şairi Bəxtiyar Vahabzadə məşhur "Dörd yüz on altı" poemasının bir fəslini ona həsr edib, bir əlində qələm, digərində silah olan döyüşçünü vəsf edib.

***Yumşaq təbiətli bu həlim insan, –***
***Deyərdin, quşa da daş ata bilməz.***
***Ancaq... top ardına keçdiyi zaman***
***O yalnız əsgərdir, ölər, yenilməz!***
***Döyüşdə əsgərdi - adicə əsgər;***
***Döyüş qurtardımı? - şairdir Ənvər.***

Döyüş orden və medallarına layiq görülən Ənvər Əlibəyli 1944-cü ildə ağır yaralanandan sonra Bakıya qayıdaraq bir müddət hərbi jurnalist kimi "Vətən uğrunda" jurnalında fəaliyyət göstərib. Sonra "İnqilab və mədəniyyət", "Təbliğatçı" jurnallarının məsul katibi, "Ədəbiyyat" qəzetinin redaktoru kimi məhsuldar çalışıb. Onun ömrünün böyük bir qismi dövlət tele-radiosunda məsul vəzifələrlə bağlı olub. SSRİ Ali Sovetinə deputat seçilib.

Ənvər Əlibəylinin yaradıcılığında saf sevgi motivləri güclü olub. Şeirlərinə Qara Qarayev, Rauf Hacıyev, Cahangir Cahangirov, İbrahim Topçubaşov, Səid Rüstəmov, Rauf Hacıyev, Tofiq Quliyev, Hökümə Nəcəfova, Ramiz Mirişli və başqaları gözəl mahnılar bəstələyiblər. "Azərbaycan", "Bu gün elə xoşbəxtəm ki", "Bakı, əziz şəhər", "Sevgilim", "Gəlmədin", "İlk məhəbbətim", "Gəl-gəl", "Xəzərim", "Qəşəng qızlar", "Narınc", "Hamıdan göyçək", "Söz olmasaydı" kimi populyar mahnılar musiqi xəzinəmizin parlaq inciləri kimi bu gün də müğənnilərin repertuarını bəzəyir.

Dillər əzbəri olan "Azərbaycan" mahnısında şairin 3 bəndlik şeirindən yalnız 2 bəndi oxunur. Səbəb də bu olub ki, 3-cü bənddə sovet rejiminin yada salınmasını yasaqladığı bir məsələyə – Azərbaycanın parçalanmasına çox incə şəkildə işarə vurulur:

***Sənə şirin arzum deyim, diləyim deyim,***
***Havam deyim, suyum deyim, çörəyim deyim,***
***İki yerə parçalanmış ürəyim deyim.***
***"Yurdum, yuvam, məskənimsən", Azərbaycanım!***
***Al bayraqlı vətənimsən, Azərbaycanım!***

Onu da deyək ki, Ənvər Əlibəyli bir çox məşhur film mahnılarının da sözlərinin müəllifi olub. Ən məşhuru "Bəxtiyar" filmində Rəşid Behbudovun oxuduğu mahnılarıdır. Şair "Qara daşlar", "Qızmar günəş altında", "Bir məhəlləli iki oğlan" filmlərində səslənən mahnıların da həmmüəllifidir.

Qələmdaşlarının "Sevgi himninin müəllifi" adlandırdıqları nəğməkar şairin "Sənin adınla", "İlk məhəbbət", "Dostluq körpüsü", "Mingəçevir şeirləri", "Dalğalar arasında", "Elə xoşbəxtəm ki!", "Ədəbiyyat", "Nəğmələr", "Bir kitab şeir", "Ürəyimdəsən", "Seçilmiş əsərləri" və s. kitabları nəşr olunub.

Ənvər Əlibəyli Azərbaycan Televiziyasının ilk rəhbəri olub. Bir ara başqa sahədə çalışsa da, 1965-ci ildən ömrünün sonuna kimi yenidən televiziyaya rəhbərlik edib. Onun iki övladı – radio jurnalisti Şəlalə Əlibəyli və telerejissor Şahin Əlibəyli ilə birlikdə çalışmışıq. Heç vaxt atalarının ad-sanı ilə öyünməyib, öz zəhmətlərinə güvəniblər.

Şairin digər övladı – filologiya elmləri doktoru Şəfəq Əlibəyli deyir ki, atalarını baharda daha çox xatırlayırlar:

– Atam 1 Aprel Yumor Günündə dünyaya gəlib, bəlkə də buna görə baməzə və zarafatcıl insan idi. İlk kitabı baharın gəlişindən soraq verən "Qaranquş" adı ilə çap edilib və onun istedadının müjdəçisi olub. Atam dünyasını da çox sevdiyi baharda – mayın 7-də dəyişib. Şeirlərindən həmişə bahar təravəti duyulur. Onun nəvəsi, mənim oğlum Tural Qahirənin "Eyn Şams" Universitetinin dilçilik fakültəsinin yetirməsidir. Babaları Ənvər Əlibəyli və Gəray Fəzlinin poeziya bulağından su içdiyi üçün o da gözəl şeirlər yazır.

***Əli NƏCƏFXANLI***
***XQ***

# "Xarıbülbül" Musiqi Festivalına hazırlıq

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə mayın 14-15-də Şuşada "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalı keçiriləcək.**

Builki festival da maraqlı proqram və dünyanın müxtəlif ölkələrindən istedadlı incəsənət xadimlərinin təqdimatları ilə yadda qalacaq.

Festivalın əsas məqsədlərindən biri mədəni dialoqun inkişafına töhfə vermək və musiqiçilər arasında yaradıcılıq mübadiləsini təşviq etməkdir. Məhz bu səbəbdən zəngin mədəniyyət hadisəsi olan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına Azərbaycan ifaçıları və musiqi kollektivləri ilə yanaşı, ABŞ, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Yaponiya və digər ölkələrdən incəsənət nümayəndələri dəvət alıb.

Festivala mayın 14-də Cıdır düzündəki konsertlə start veriləcək. Tədbir iki gün ərzində Şuşanın bir sıra məkanlarını əhatə edəcək.

Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Festival həmin il may ayında məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Ağdam rayonunun Abdal Gülablı kəndində başlayıb, Şuşada davam edib və Ağdamda yekun konsertlə başa çatmışdı. 1990-cı ildən isə "Xarıbülbül" festivalı beynəlxalq status alıb. Qarabağ münaqişəsi dövründə əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Bərdə və Ağcabədidə də keçirilib.

Vətən müharibəsindəki tarixi Zəfərimizlə torpaqlarımız işğaldan azad olunduqdan sonra festival yenidən Şuşaya qayıdıb. Festivalın bəzi konsertləri Laçın şəhərində də olub.




Dünyanın bir çox ölkələrindən çoxsaylı musiqiçinin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə də töhfə verir.

***XQ***

# Məşhur alban alimi Ədəbiyyat Muzeyində

**Albaniyanın tanınmış ictimai xadimi, Mediterranian Universitetinin prorektoru, tarix elmləri doktoru Arben Cici Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət edib.**

Muzeyin Məktəblərlə və ictimaiyyətlə iş şöbəsinin əməkdaşı Nəzrin Yusifova alban əsilli qonaqla ingilis dilində ekskursiya aparıb, onu muzeyin zəngin ekspozisiyası ilə tanış edib.

Arben Cici Azərbaycan ədəbiyyatı və tarixi mövzusunda muzeydə sərgilənən müxtəlif növ əsərləri seyr edib, onlar haqqında ətraflı bilik əldə etməkdən böyük zövq aldığını dilə gətirib.



Daha sonra diplomat və alim böyük Azərbaycan şairi Nizami Gəncəvi irsi, tədqiqat tarixi haqqında qələmə aldığı kitabı Ədəbiyyat Muzeyinə hədiyyə edib.

***Q.YUSİFOĞLU***
***XQ***

# Rəssam soydaşımızın Xorvatiya uğuru

**Masallıda yaşayan rəssam Ehtiram Məmmədov beynəlxalq sərgilərdə artıq 4-cü mükafatını alıb. Xorvatiyada keçirilən sərgidə onun dünyada baş verən müharibələrin acı nəticələrini göstərən rəsmi mükafata layiq görülüb.**

Qeyd edək ki, Azərbaycanın dilbər guşələrindən olan Masallıdan Nüsrət Fətullayev, Tələt Şıxəliyev, Fərahim Zeynalov, Rafael Əsədov kimi məşhur rəssamlar çıxıb. Azərbaycan Rəssamlar İttifaqının üzvü Ehtiram Məmmədov da ömrünü bütünlüklə təsviri sənətə həsr edənlərdəndir. Masallı şəhər 11 illik İncəsənət məktəbinin rəssamlıq şöbəsinin müəllimidir, eyni zamanda, "Öncəqala Xeyriyyə Cəmiyyəti"nə də sədrlik edir.

Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirib. İlk uğurunu 1982-ci ildə – 18 yaşında, 2-ci kursda təhsil aldığı zaman Bakı Çini Qablar Zavodunun sifarişi ilə Almaniyada keçiriləcək Azərbaycan Mədəniyyəti günlərinin sərgisi üçün hazırladığı kompozisiya ilə qazanıb. Daha sonra Bakıda təşkil olunan onlarla sərgidə rəsmləri nümayiş etdirilib.

2001-ci ildə 11 yaşlı oğlu Turalla Türkiyənin İzmir şəhərindəki sərgidə əsərləri maraqla qarşılanıb. ABŞ, Almaniya, Türkiyə, Filippin, Bosniya və Hersoqovina, eləcə də digər ölkələrdə milli incəsənətimizi layiqincə təmsil edib.

Əsasən kətan üzərində yağlı boya ilə işləyən Ehtiram Məmmədovun əsərlərini anlamaq üçün heç bir tərcüməçiyə ehtiyac yoxdur. Onun mövzuları, rəngləri və lövhələri rəssamın duyğu və düşüncələrini açıq ifadə edir. Ehtiram Məmmədovun portretlər qalereyasında xalq qəhrəmanı Koroğlunun, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun obrazları xüsusi yer tutur. Onun "Şəhid anası", "Tənha ev", "Öncəqala yolu", "Qəbələ payızı" "İstanbul sahilində", "Masallı lövhələri" silsiləsindən olan tabloları realistliyi və ifadəliliyi ilə seçilir.




***Ə.DOSTƏLİ***
***XQ***

# Azərbaycan dünyanın ən təhlükəsiz ölkələri sırasında

*Bu fakt İqtisadiyyat və Sülh İnstitutunun illik reytinq cədvəlində yer alıb*



**Dünyanın nüfuzlu sosial-tədqiqat institutlarından biri hesab olunan “Global Terrorism Index 2026” (GTI) illik hesabatında dövlətlərin terror təhlükəsinə görə növbəti reytinq sıralanması təqdim edib. Sənəddə qeyd olunur ki, ərazisində terrorçuluq fəaliyyəti və terror təhlükəsi ən yüksək olan ölkələr arasında ilk sıralara - 1. Pakistan (8.574), 2. Burkina-Faso (8.324), 3. Niger (7.816) daxil edilib.**

Həmin sıralamada Suriya (7.38) 6-cı, İsrail (6.79) 10-cu, Əfqanıstan (6.678) 11-ci, Hindistan (6.428) 13-cü, Rusiya (5.593) 17-ci, İran (5.477) 18-ci, ABŞ (4.521) 28-ci, Almaniya (4.447) 29-cu, Fransa (3.224) 35-ci, Türkiyə (3,212) 36-cı, Çin (1.311) 54-cü, İsveçrə (0.749) 67-ci, Birləşmiş Ərəb Əmirlikləri (0.749) 68-ci, Gürcüstan (0.506) 77-ci, Ermənistan (0.483) 81-ci yerdə qərarlaşıb.

2025-ci ilin göstəriciləri əsasında hazırlanmış hesabata əsasən terror təhlükəsi üzrə qeyd olunan sıralamada “0.233” indekslə 90-cı reytinq mövqeyində olan Azərbaycan 2026-cı ildə üç reytinq də yüksələrək “0.123” indekslə 93-cü yerdə qərarlaşıb. Yəni 1-dən 100-dək artan mümkün reytinq həddində dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi yüksək reytinqə sahib olub.

“Global Terrorism Index” (GTI) reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə hesablamalara əsaslanır.

İqtisadiyyat və Sülh İnstitutu (Institute for Economics and Peace - İEP) tərəfindən dövri olaraq açıqlanan “Global Terrorism Index” hesabatları Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı, digər beynəlxalq təşkilatlar və beynəlxalq akademik institutlar üçün istinad mənbəyi kimi çıxış edir. Hesabatlar, eyni zamanda, ölkələrə geniş iqtisadi infrastrukturda xarici investisiya yatırımları zamanı nəzərə alınan əsas mənbələrdən hesab olunur.

Onu da qeyd edək ki, beynəlxalq təşkilatların hesabatlarından göründüyü kimi, dini, siyasi, milli və digər zəminlərdə terror-təxribat təhdidlərinin yüksək olduğu kifayət qədər həssas və mürəkkəb geosiyasi məkanda yerləşsə də, uğurlu daxili və xarici dövlət siyasəti nəticəsində bərqərar olmuş inkişaf, əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən görülən effektiv işlər sayəsində Azərbaycan son illər dünyada çox yüksək daxili təhlükəsizlik reytinqinə sahib olub.

*XQ*

# Borçalının unudulmaz qızı



**Qardabani İnteqrasiya və Təhsil Mərkəzində dünyada ilk türk-müsəlman qadın deputat, keçən əsrin əvvəllərində Gürcüstan parlamentinin azərbaycanlı üzvü olmuş Pərixanım Sofiyevanın xatirəsi anılıb. Mərasim Qardabani Gənclər Klubunun təşkilatçılığı ilə “Qafqaz” təşkilatının “Bərabərhüquqlu və təhlükəsiz cəmiyyət üçün” layihəsi çərçivəsində reallaşdırılıb.**



Toplantıda Pərixanım Sofiyevanın bu gün də Borçalıda yaşayan nəslinin nümayəndələri, eləcə də tarixçi-araşdırmaçı İrakli Xvadaqiani, Qardabani İnteqrasiya Mərkəzinin direktoru Çiçək Hüseynova, Qardabani Gənclər Klubunun koordinatoru Gülgün Məmmədxanova, klubun üzvləri, Qaracalar kəndindəki ictimai məktəbin müəllimləri Aytən Qızbəsova və Günay Qərənizadə, şagirdlər, valideynlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Gənclər Klubunun üzvləri tərəfindən öz dövründə “Kişi Pəri” kimi tanınmış sabiq deputatın həyatı və fəaliyyəti ilə bağlı geniş təqdimat olub. Sonra onun nəslinin nümayəndələri Ramin Sofiyev, Vüqar Məmmədov və İsmayıl Sofiyev çıxış edərək mərdliyi, mübarizliyi və xeyirxahlığı ilə ad qazanmış nənələri haqqında xatirələrini bölüşüblər. Çıxış edənlər Pərixanım Sofiyevanın Gürcüstan və Borçalının tarixindəki xüsusi rolunu vurğulayaraq, kişi kimi at belində gəzmiş, el-obanın xeyir-şərində yaxından iştirak etmiş, köməksizlərə əl tutmuş bu qadının Gürcüstanda yaşayan azərbaycanlılar üçün qürur mənbəyi olduğunu bildiriblər.

Tarixçi İrakli Xvadaqiani çıxışında Sofiyevanın ictimai-siyasi fəaliyyətinə dair mühüm məqamları diqqətə çatdırıb. Tədbir çərçivəsində sənədli film nümayiş olunub, həmçinin iştirakçılar arasında sual-cavab sessiyası təşkil olunub və mövzu ətrafında müzakirələr aparılıb.

Sonda Pərixanım Sofiyevaya həsr olunmuş “TikTok” müsabiqəsinin qalibləri Emilia Məmmədova, Tüncay Əliyev və Fidan Əsgərova mükafatlandırılıblar.

*Paşa ƏMİRCANOV*
*XQ*

# Hər kitab bir dünyadır

## Türk adının mənşəyi haqqında əsər




**Dünyada tanınmış türkoloq, tarixçi, şərqşünas – ABŞ-ın Rutgers Universitetinin fəxri professoru Piter B.Qolden türk xalqlarının erkən tarixi, etnogenezisi və etnonimlərinin ən nüfuzlu tədqiqatçılarından biridir. Onun “Türk etnonimi haqqında mülahizələr” əsəri türk adı ilə bağlı elmi diskursda mühüm yer tutur.**

Filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Abdullayeva–Nəbiyevanın tərcümə və tərtibatında bu kitabın işıq üzü görməsi türkologiya mütəxəssislərinə töhfədir. Qolden çalışmalarında “türk” etnoniminin erkən orta əsrlərdə (xüsusilə Göytürk xaqanlığı dövründə) siyasi və coğrafi bir məna daşıdığını, zamanla isə etnik bir ismə çevrildiyini qeyd edir. O, türk sözünün “güclü”, “müqavimətli”, “törəmiş” və ya “çoxalmış” mənalarına gələ biləcəyinə dair müxtəlif fərziyyələri araşdırıb. Xüsusilə Çin mənbələrindəki “T'u-chüeh” ifadəsinin türk sözünün transkripsiyası olduğunu təsdiqləyir və bu adın erkən türk tayfalarının özünüifadəsi kimi meydana çıxdığını vurğulayır. O, həmçinin Çin, Bizans və ərəb qaynaqlarındakı məlumatları filoloji və tarixi baxımdan ətraflı təhlil edir.

“Elm və təhsil” nəşriyyatında buraxılan bu əsər yalnız türkoloji araşdırmalar üçün deyil, həm də ümumi etnoqrafiya, tarix və dilçilik üçün dəyərli vəsaitdir.

## Azərbaycanlılar Moskva Şərqşünaslıq institutlarında

**Professor Nadir Məmmədlinin “Moskva Şərqşünaslıq İnstitutlarının azərbaycanlı tələbə, müdavim, alim və pedaqoqları” kitabı müəllifin 38 illik araşdırmalarının bəhrəsi olaraq ərsəyə gəlib.**




Əsərdə 20-ci əsrin əvvəllərində Rusiya–Azərbaycan elmi-mədəni əlaqələrini və milli şərqşünaslığın formalaşması işıqlandırılır. Lazarev Şərq Dilləri İnstitutunda, digər Moskva ali məktəblərində təhsil almış və çalışmış azərbaycanlı şərqşünasların irsinə və həyat yoluna həsr olunmuş monoqrafiya iki hissədən ibarətdir. İlk hissə Rusiya Şərqşünaslıq İnstitutlarının tələbə və müdavimləri olmuş soydaşlarımızın həyat yolunu, ikinci hissə isə pedaqoji fəaliyyətlərini əhatə edir.

Ensiklopedik əsərdə Lazarev Şərq Dilləri İnstitutu, Moskva Şərqşünaslıq İnstitutu və digər təhsil ocaqlarında oxumuş və ya çalışmış şəxsiyyətlər, onların maarifçilik missiyası geniş araşdırılır. Bu monoqrafiya AMEA Dilçilik İnstitutu tərəfindən milli şərqşünaslıq elminin intişar tarixini öyrənmək üçün əsaslı mənbə hesab olunur.

*Hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

**Yaxın Şərqdə son bir ayda müşahidə olunan gərginlik tədricən daha geniş və təhlükəli mərhələyə daxil olmaqdadır. Lokal qarşıdurmaların sərhədləri aşaraq regional güclər arasında qarşıdurmaya çevrilməsi vəziyyəti nəzarətdənçıxma riski ilə üz-üzə qoyur. Artıq bir sıra ölkələrin birbaşa və ya dolayısı ilə prosesə qoşulma ehtimalını müzakirə etməsi regionda yeni müharibə dalğasının formalaşma təhlükəsini gündəmə gətirir. Sözügedən kontekstdə dünən – martın 31-də baş verən hadisələrin media icmalını oxucuların diqqətinə çatdırırıq.**

# Yaxın Şərqdə savaş səngimir

*Qarşıdurmanın coğrafiyası genişlənir*

**“Reuters”:** Ağ Evin mətbuat katibi Kerolayn Levitt jurnalistlərlə söhbətində deyib ki, ABŞ aprelin 6-dək İranla razılaşma imzalanacağına ümid edir. Ondan ABŞ Prezidenti Donald Trampın əvvəllər “Truth Social”da Vaşinqtonun İranın enerji infrastrukturuna zərbələri 10 gün, yəni 6 aprelə qədər dayandırdığını yazdığı paylaşımla bağlı şərh verməsi istənilib. ABŞ-ın müəyyən edilmiş müddət ərzində nəyə nail olmağa ümid etdiyi soruşulduqda, Levitt Trampın “razılaşma əldə etmək istədiyini” izah edib.




**“Jordan Times”:** İsrailin Baş naziri Binyamin Netanyahu İordaniya Haşimilər Krallığının kralı II Abdullah ibn Al Hüseyn ilə görüşmək istəsə də, Amman tərəfi bundan imtina edib. Mənbə iddia edib ki, İsraildən gələn təklif İordaniya tərəfini qane etməyib və Netanyahuya kralla görüşmək kimi siyasi şans vermək istəyinin olmadığı, İsraillə gələcək əlaqələrin pərdəarxası təhlükəsizlik kanalları vasitəsilə təmin ediləcəyi qərara alınıb.

**“Associated Press”:** Səudiyyə Ərəbistanı və BƏƏ başda olmaqla bir neçə Körfəz ölkəsi ABŞ-ı İrana qarşı hərbi əməliyyatları davam etdirməyə çağırıb. BƏƏ, Səudiyyə Ərəbistanı, Küveyt və Bəhreyn nümayəndələri gizli şəkildə Amerika-İsrail hərbi əməliyyatının Tehran rəhbərliyində köklü dəyişikliklər baş verənə qədər davam etməsini istədiklərini bildiriblər.

**“Sky News”:** Böyük Britaniyanın Baş naziri Kir Starmer ABŞ və İsrailin İrana qarşı əməliyyatının iqtisadi nəticələrinə həsr olunmuş təcili müşavirə keçirəcək. İclasda münaqişənin iqtisadiyyata mənfi təsiri müzakirə ediləcək. Məlumata görə, görüşdə, həmçinin vəziyyətin effektiv monitorinqi və nəzarətin təmin edilməsi məsələsinə yenidən baxılacaq.

**“IRNA”:** İraqın cənubundakı Bəsrə əyalətindəki “Qərbi Qurna-1” yatağının ərazisində pilotsuz uçuş aparatı (PUA) qəzaya uğrayıb. Bildirilib ki, zərər çəkən yoxdur. Raketin qalıqları ölkənin qərbindəki Ət-Tartar rayonunda yaşayış evinə düşüb.

**“Al Jazeera”:** ABŞ dövlət katibi Marko Rubio İrana qarşı əməliyyatla bağlı ayrı-ayrı müttəfiq ölkələrin mövqeyini nəzərə alaraq Vaşinqtonun NATO ilə münasibətlərinə yenidən baxılmasının vacibliyini bildirib. O, İspaniyanın əməliyyat üçün hava məkanını verməkdən imtina etməsini şərh edərkən vurğulayıb ki, bütün bunlar nəzərdən keçirilməlidir.

**“WANA”:** İsrail ordusu bildirib ki, İran İsrailə doğru çoxsaylı raket zərbələri endirib və eyni zamanda, Yəməndən də hücum qeydə alınıb. Bu, ABŞ/İsrail və Tehran arasında münaqişə başlayandan bəri Yəməndən edilən ikinci hücumdur. Martın 30-da da Yəməndən buraxılan iki pilotsuz uçuş aparatı zərərsizləşdirilib. Xatırladaq ki, Yəmən husiləri ötən şənbə müharibəyə qoşularaq İranı müdafiə ediblər və İsrailə raketlər atıblar.

**“WARYA”:** Yəmənin rəsmi hökuməti İranın regiondakı fəaliyyətlərini və Husi qruplaşmasına verdiyi dəstəyi sərt şəkildə pisləyərək bunun ölkənin suverenliyinə birbaşa təhdid olduğunu bəyan edib. Hökumətin açıqlamasında bildirilib ki, İran Yəməni regional münaqişələrə cəlb etməyə çalışır və silahlı qruplaşmalar vasitəsilə dövlət institutlarını zəiflətmək siyasəti yürüdür. Rəsmi Səna bu cür addımların ölkənin sabitliyinə və təhlükəsizliyinə ciddi zərbə vurduğunu qeyd edib.

**“Corriere della Sera”:** İtaliyanın müdafiə naziri Qvido Krozetto ABŞ hərbi təyyarələrinin Yaxın Şərqdə hərbi əməliyyatlar üçün Siciliyadakı Siqonella bazasından istifadəsini qadağan edib. Qərar ABŞ komandanlığının bombardmançı təyyarələr artıq havada olduğu zaman onların enişini razılaşdırmağa cəhd etməsindən sonra qəbul olunub.

**“Guardian”:** Fransa İsrailə gedən ABŞ təyyarələrinin öz ərazisi üzərindən uçmasına icazə verməyib. Bu barədə ABŞ Prezidenti Donald Tramp “Truth Social” sosial şəbəkəsindəki səhifəsində yazıb. Onun sözlərinə görə, Fransa bu addımları ilə İrana kömək göstərib. D.Tramp, həmçinin qeyd edib ki, ABŞ “bunu unutmayacaq”.

**“SEPAH”:** İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müşaviri general-leytenant Cəmşid Eshaqi ABŞ və İsrailin raket zərbələri nəticəsində həlak olub. Bu barədə İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandanı general-mayor Əhməd Vahidi bildirib.

**“Daily Mail”:** Yaxın günlər İranla hərbi münaqişədə həlledici olacaq. ABŞ-ın müharibə naziri Pit Heqset jurnalistlər üçün brifinqdə bildirib: “Biz öz şərtlərimizi müəyyən etdik. Yaxın günlər həlledici olacaq. İran da bunu bilir”.

*Hazırladı:*
*N.BEYDİYEVA*
*XQ*

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ**
*aşağıdakı vakant vəzifəni tutmaq üçün*
**MÜSABİQƏ ELAN EDİR**

**• Ümumi və tətbiqi riyaziyyat kafedrası - professor – 1.**

Sənədləri təlimata uyğun şəkildə, müsabiqə elanının qəzetdə dərc edildiyi gündən etibarən bir ay müddətində www.asoiu.edu.az/vakant səhifəsi vasitəsilə təqdim etməyiniz, eyni zamanda rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıda göstərilən ünvana göndərməyiniz xahiş olunur:

**Telefon:** 598-41-57.
**Ünvan:** AZ 1010, Bakı şəhəri, Azadlıq prospekti 34, otaq 223.

*Rektorluq*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 53 (31022) 1 aprel 2026-cı il, çərşənbə

## İDMAN

### 18 yaşadək şahmatçıların Azərbaycan çempionatı



**Şahmat üzrə 8,10,12,14,16 və 18 yaşadək oğlanlar və qızlar arasında ölkə çempionatına yekun vurulub. Yarış ilk dəfə paytaxtdan kənarda – Gəncə İdman Sarayında təşkil olunub. Ölkə çempionatının bağlanış mərasimində iştirak edən Azərbaycan Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov qalibləri təbrik edərək onlara növbəti yarışlarda uğurlar arzulayıb.**

Qeyd edək ki, hər yaş qrupunda mükafatçı şahmatçılar müvafiq dərəcəli diplom və medalla təltif olunublar. Azərbaycan çempionları müvafiq yaş qrupunda 2026-cı ilin Dünya və Avropa çempionatına, 2-ci yeri tutan şahmatçılar müvafiq yaş qrupunda 2026-cı ilin Avropa çempionatına ezam ediləcək. 3-cü yeri tutan şahmatçılara isə reytinqli beynəlxalq yarışda iştirak üçün 2.000 AZN-dək maddi dəstək göstəriləcək.

### Boksçularımız Almaniyada uğurla çıxış ediblər



**31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Almaniyanın Şvelm şəhərində boks turniri təşkil olunub.**

"Stolz Fight Club", Diaspora Boks Liqası, Berlin Azərbaycan Evinin və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən yarışlar, eyni zamanda, dünyada yeni yaradılmış SFC Hibrid Kombat Döyüş Federasiyasının ilk açıq turniri kimi yadda qalıb.

Gərgin idman mübarizəsinin yaşandığı turnirdə müxtəlif klubları təmsil edən 50 idmançı 10 çəki dərəcəsində yarışıb. Azərbaycan idmançıları da yarışlarda uğurla çıxış ediblər. Ramal Abdullayev (64 kq), Alay Qurbanov (70 kq) və Azər Soltanov (73 kq) qarşılaşmaları qələbə ilə başa vuraraq qalib adını qazanıblar. Anar Ağayev (67 kq) qarşılaşmanı bərabərliklə başa vurub. Eləcə də 80 kiloqram çəki dərəcəsində yarışan Renat Məmişov və 91 kiloqramda mübarizə aparan Azər Ağayev rəqiblərinin döyüşdən imtina etməsi ilə əlaqədar qalib elan olunublar.

Bu turnir idman yarışı ilə yanaşı, xalqlar arasında dostluğun möhkəmləndirilməsi, müxtəlif ölkələrdən olan idmançılar arasında qarşılıqlı hörmət və əməkdaşlıq mühitinin yaradılması baxımından əhəmiyyət daşıyıb. Xaricdə yaşayan azərbaycanlı idmançıların belə yarışlarda fəal iştirakı onların yaşadıqları cəmiyyətlərdə Azərbaycanın uğurlu təbliğinə, gənclərin idmana və sağlam həyat tərzinə cəlb olunmasına mühüm töhfə verir.

### "Asiya Qran Pri–2026"nın qalibi



**Özbəkistanın paytaxtı Daşkənddə nərd üzrə "Asiya Qran Pri–2026" beynəlxalq turniri keçirilib.**

Gənclər və İdman Nazirliyindən verilən məlumatına görə, 55-dən çox ölkədən 700-ə yaxın idmançının qatıldığı yarışda Azərbaycan yığmasının üzvü Kənan Həsənzadə uğurla çıxış edib.

O, "Backgammon" (Blitz) kateqoriyasında 256 iştirakçı arasında hamını qabaqlayaraq qızıl medal qazanıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Mənəvi dəyərlərimiz*

# Kamil bir papaqçı olanda insan...

## Papaq isə təkcə baş örtüyü deyil





**Qədim sənətlərdən biri olan papaqçılıq əsrlər boyu Azərbaycan kişilərinin gündəlik həyatında və ictimai mövqeyində mühüm rol oynayıb. Keçmiş dövrlərdə xüsusi hörmət qoyulan bu geyim təkcə soyuqdan qorunmaq vasitəsi deyil, həm də şərəf, qeyrət və kişilik rəmzi kimi qəbul edilib. Papaq həm də kimliyin və ənənələrin yaşadılmasında mühüm rol oynayıb. Bir sözlə, papaq Azərbaycan xalqının tarixini, mədəniyyətini və mənəvi dəyərlərini özündə əks etdirən əvəzsiz irs nümunəsidir. Hətta birinin papağının oğurlanması sahibinə qarşı düşmən hücumu kimi qiymətləndirilirdi.**

Azərbaycanda papaq əsasən qoyun xəzi və ya qaragüldən hazırlanıb. Kişi baş geyimləri içərisində aşılı qoyun dərisindən tikilmiş papaq xüsusi yer tutub. Qaragül dərisindən tikilən papaqlar isə daha qiymətli sayılıb. Onun forması adətən dairəvi və bir qədər hündür, rəngləri isə əsasən qara, boz və ya ağ olub.

Azərbaycanın müxtəlif bölgələrində papağın fərqli növləri mövcud olub. Məsələn, buxara papaq, şiş papaq və s. Hər bir növ həm formasına, həm də istifadə olunan materialına görə fərqlənib. Bu müxtəliflik isə ölkənin zəngin mədəni irsinin göstəricisidir.

Bu gün papaq əvvəlki kimi gündəlik həyatda geniş istifadə olunmasa da, milli bayramlarda, folklor tədbirlərində və xüsusi mərasimlərdə öz yerini qoruyub saxlayır. Hər biri müəyyən bölgəni, zövqü və sosial mənanı ifadə edir. Çoxlarının istifadə etdiyi Qaragül papağı ən məşhur papaq növlərindən biridir, yumşaq, parlaq və qara rəngdə olur. Daha çox zadəganlar və nüfuzlu şəxslər tərəfindən istifadə edilir. Dağlıq bölgələrdə daha çox yayılan şiş papaq isə adından göründüyü kimi, hündür, bir qədər sivri formada, qoyun dərisindən hazırlanır. Buxara papağı Orta Asiya təsiri ilə Azərbaycanda da yayılıb. Bahalı xəzlərdən hazırlanan, görkəmi ilə daha zəngin və diqqətçəkən bu papaq xüsusi günlərdə istifadə edilib.

Ağsaqqallarımızdan eşitdiyimizə görə, vaxtilə hər məhəllənin öz papaqçısı olub. Hazırda milli papaqlara maraq azaldığından indi bu qədim sənəti yaşadan sənətkar papaqçı tapmaq, onunla söhbətləşmək sanki samanlıqda iynə axtarışına bənzəyir.

25 ildən çoxdur ki, papaqçılıqla məşğul olan **Ramin Fərzəliyev** 15 yaşından bu sənəti yaşadır. O, sadəcə, usta deyil, babasından miras qalan ənənəni qoruyan və gələcəyə daşıyan sənətkardır.

"Papaqçılıq mənim üçün peşədən daha çox ailə mirasıdır. Babam bu sənətə ömrünün 70 ilini sərf edib. Mən isə onun nəfəsini bu gün də işimdə hiss edirəm", – deyir Ramin. Əslən İrəvandan olan babası Nazim Nəcəfov illərlə balaca dükanında papaq tikib. Ramin isə o emalatxanada böyüyüb: "8–9 yaşımda bu sənətə marağım başladı, 15 yaşımda artıq özüm sərbəst papaq tikirdim" - usta fəxrlə söyləyir. Raminin babasının atası da papaqçı olub. Emalatxanasını babalardan yadigar qalmış qədimi əşyalarla yanaşı, əsri haqlamış qəliblər də bəzəyir.

Həmçinin @Millipapaq_Azerbaijan hesabının yaradıcısı Raminin yüksək zövqlə tikdiyi papaqların çeşidi olduqca genişdir: Milli papaq, Ziyalı, Səfir, General modelləri, idman üslubu... Onun sözlərinə görə, bölgələrə görə də fərqlər var: "Qazax papaqları bir az hündür olur, Şəki papaqları isə daha yığcam".

Sosial şəbəkələrdəki videolarında papağın tikiliş prosesi, tarixi incəlikləri, müxtəlif modellərin hazırlanma mərhələləri izləyicilərə təqdim olunur. "Uğurun sirri səmimiyyətdədir. Hər videoda hiss olunur ki, bu sənət bizə ailədən miras qalıb", – deyir usta. Videolara baxan izləyicilər maraqlanır, həm də sifariş verirlər. Beləcə, sosial şəbəkə onun üçün maarifləndirmə və müştəri qazanma vasitəsinə çevrilib.

Ustanın sifarişçiləri həm gənclər, həm də ağsaqqallardır. Hətta dövlət qurumları və din xadimləri də müraciət edir. Tanınmış xanəndələrimiz mərhum Ağaxan Abdullayev, Alim Qasımov və Elnur Məmmədov üçün papaqlar tikib. Ordu generalları, zabitlər, vaxtilə babasının müştəriləri və onların övladları Raminin ünvanına üz tutanlar arasındadır. Papaqların modellərinə görə də qiyməti fərqlidir. 150-300 manat arasında dəyişir. Bu isə yalnız zəhmətin, əməyin tələb olunması ilə bağlıdır. Papağın neçə günə tikilməsinə gəlincə, Ramin bu müddətin papağın növünə görə dəyişdiyini bildirdi: "Bir papağın tikilib başa çatması bəzən 3-4 saat, bəzənsə 3-4 gün vaxt aparır. Əvvəlcə papaq üçün müəyyən edilmiş dərinin növü seçilir. Sonra sifarişçinin baş ölçüsünə uyğun olaraq biçilib-kəsilir. Papağa hazırlanan içlik dəriyə tikilir və qəlibə qoyulur".

Maraqlısı odur ki, sifarişlər təkcə Azərbaycandan deyil, Türkiyə, İngiltərə, Rusiya, Almaniya, İsveçrə, Hollandiya və İsraildən də gəlir. Belə ki, müştərilər sosial şəbəkələr vasitəsilə müraciət edirlər. Tikiş üçün dəriləri Özbəkistandan (buxara dəriləri), Əfqanıstandan (əfqan qaragül dəriləri) və Afrikanın Namibiya ölkəsindən (swakara dəriləri) sifariş edir. Gün ərzində 3-4, bir ayda 40-a yaxın papaq satır.

Raminin gələcək planları daha genişdir: "İstəyirəm papaqda istifadə olunan dərinin hazırlandığını, necə seçildiyini izləyicilərə, ümumiyyətlə, papağın necə ərsəyə gəldiyini canlı olaraq sosial şəbəkələrdə göstərim. Çünki saxta materiallardan hazırlanan məhsullar çoxdur. İnsanlar doğru ilə yanlışı ayıra bilməlidirlər".

Papaqçı Ramin Fərzəliyev bu gün, sadəcə, bir sənəti deyil, həm də milli dəyərləri yaşadır. Onun tikdiyi papaqlar keçmişin yadigarı olmaqla yanaşı, bugünün trendlərinə də çevrilir. Bu qədim sənət insanların maraq dairəsinə qaytarılır, hətta sərhədləri aşaraq dünyaya yayılır.

Usta papaqçının qabarlı əlləri sanki illərin zəhməti ilə bərkiyib, hər toxunuşunda isə bir incəlik gizlənir. Qara quzu dərisini sığallayarkən keçmişlə bu günü birləşdirir, hər lifdə bir xatirə oyadır. Emalatxanasındakı dərinin qoxusu, alətin səsi, iynənin səssiz rəqsi – bunlar hamısı bir sənətin deyil, sanki bir həyatın melodiyasıdır. Bir usta əlində iynə ilə keçmişi qoruyur, onu gələcəyə ötürür. Çünki papaqçılıq yaddaşın, kimliyin və mədəniyyətin canlı izidir.

***Müşfiq MİRZƏ***
***XQ***

# Uzunömürlüyün sirri tapılıbmı?



**Zaman bəzən nə qapını döyür, nə də xəbər verir. Sadəcə bir gün güzgüdəki əksimizdə, yorğun baxışlarımızda, saçlarımıza düşən ağlarda özünü hiss etdirir. İnsanlıq tarix boyu bu səssiz gücə - yaşlanmaya qarşı mübarizə aparıb. Əfsanələrdə "əbədi gənclik bulağı", elmdə isə uzunömürlülük sirləri axtarılıb. Bu gün isə həmin axtarışlar yeni bir mərhələyə qədəm qoyur: gen terapiyası ilə hüceyrələrin "cavanlaşdırılması".**

ABŞ-ın "Life Biosciences" biotexnologiya şirkətinin hüceyrələri "cavanlaşdırmağı" hədəfləyən ER-100 adlı yeni gen terapiyası elmi ictimaiyyətdə böyük rezonans doğurub. Yaşlanmaya qarşı səs-küy yaradan yeni preparatın ilk dəfə olaraq insanlar üzərində sınaqdan keçirilməsinə icazə verilməsi təkcə tibbi yenilik deyil, həm də insanın zamanla münasibətində dönüş nöqtəsi kimi qiymətləndirilir. Əgər bu sınaqlar uğurlu olarsa, yaşlanma artıq qaçılmaz taleyimiz deyil, idarə olunan bir prosesə çevrilə bilər.

Alimlər hesab edirlər ki, yaşlanma təkcə DNT zədələnməsi ilə yox, genlərin işləmə mexanizminin dəyişməsi - epigenetik dəyişikliklərlə bağlıdır. Bu dəyişikliklər zamanla hüceyrələrin fəaliyyətini zəiflədir və bərpa qabiliyyətini azaldır. 2006-cı ildə yapon alim Shinya Yamanaka müəyyən etmişdi ki, bəzi genlər aktivləşdirildikdə hüceyrələr daha "gənc" vəziyyətə qaytarıla bilər.

Sonrakı tədqiqatlarda, o cümlədən "Harvard Medical School" alimlərinin apardığı təcrübələrdə bu yanaşmanın siçanlarda zədələnmiş görmə sinirini bərpa etdiyi göstərilib. Bu isə yetkin toxumaların müəyyən hallarda "gənclik vəziyyətinə" qayıda biləcəyini göstərib.

ER-100 terapiyası torlu qişa hüceyrələrinə xüsusi genetik siqnallar ötürərək onları tam dəyişdirmədən yalnız "cavanlaşdırmağı" hədəfləyir. Preparatın ilk sınaqları görmə itkisinə səbəb olan torlu qişa xəstəlikləri olan xəstələr üzərində aparılacaq. İlk mərhələdə əsas məqsəd preparatın təhlükəsizliyini yoxlamaqdır. Əgər nəticələr uğurlu olarsa, bu texnologiya yalnız xəstəlikləri müalicə edən deyil, hüceyrələri gəncləşdirən yeni dərmanların yaranmasına yol aça bilər.

Bu yanaşma elmi fantastika kimi səslənsə də, heyvanlar üzərində aparılan təcrübələr göstərib ki, bəzi hüceyrələr həqiqətən də funksional baxımdan "cavanlaşa" bilir. İndi isə bütün diqqət insan üzərində aparılacaq klinik sınaqlara yönəlib. Bu mərhələ həm böyük ümidlərin, həm də ciddi məsuliyyətin başlanğıcıdır. Çünki hər bir elmi sıçrayış özündə həm imkan, həm də risk daşıyır. Hüceyrələrin yenidən proqramlaşdırılması prosesi nə qədər təhlükəsizdir? Bu müdaxilə uzunmüddətli perspektivdə hansı nəticələrə gətirib çıxara bilər? İnsan ömrünün uzanması cəmiyyətin sosial və iqtisadi strukturuna necə təsir edəcək? Bu suallar hələ ki cavabını gözləyir.

Bununla belə, bir həqiqət dəyişmir: insan daim öz sərhədlərini genişləndirməyə çalışır. ER-100 kimi innovasiyalar bu istəyin növbəti təzahürüdür. Bəlkə də yaxın gələcəkdə yaşlanma artıq qorxulu bir son deyil, sadəcə, ləngidilə və idarə edilə bilən bir mərhələ olacaq. Zamanın axarını tam dayandırmaq mümkün olmasa da, onun sürətini azaltmaq arzusu artıq xəyaldan reallığa doğru addımlayır. Bu yolun sonu hələ bilinməsə də, başlanğıcı artıq qoyulub. Və bəlkə də insan ilk dəfədir ki, zamanla yarışda geri qalmaqdan çox, onunla bərabər addımlamağa bu qədər yaxınlaşır.

***Nurəngiz ADİLQIZI***
***XQ***

## HAVA

### Paytaxtda və dağlıq rayonlarda qısamüddətli yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturunun gecə 10-12, gündüz 16-21 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 763 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.



Havanın temperaturunun gecə 7-12, gündüz 20-25, dağlarda gecə 0-5, gündüz 10-15, bəzi yerlərdə 18 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universiteti psixologiya kafedrasının kollektivi həmin kafedranın müdiri, professor Səxavət Əliyevaya qayınanası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Tural və Ramil Məmmədovlara ataları

**SƏMƏNDƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

AMEA Tarix və Etnologiya İnstitutunun əməkdaşları Mehri Xanbabayeva, Nərminə Əmirbəyova və Adilə Ağabəyova tarix elmləri doktorları Tofiq Nəcəfli və Güntəkin Nəcəfliyə əzizləri, BDU-nun biologiya fakültəsinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru

**MÖHÜBBƏT NƏCƏFLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA Tarix və Etnologiya İnstitutunun Azərbaycanın XV-XVIII əsrlər tarixi şöbəsinin əməkdaşları şöbə müdiri, tarix elmləri doktoru Tofiq Nəcəfli və şöbənin əməkdaşı, tarix elmləri doktoru Güntəkin Nəcəfliyə əzizləri, BDU-nun biologiya fakültəsinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru

**MÖHÜBBƏT NƏCƏFLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

*✓ 2025-ci ildə Bakı şəhəri 5 nömrəli "Asan Xidmət" tərəfindən Rəhimzadə Firuzə Mahir qızının adına verilmiş AA6976590 nömrəli şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır. (identifikasiya nömrəsi 7EOQVJO).*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2954
SİFARİŞ 398
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00